Xalqın qəzeti!

# Xalq qəzeti

№ 112 (31081) 30 iyun 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan rəqəmsal inkişaf sahəsində regionun aparıcı dövlətlərindən birinə çevriləcək

## Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası



**İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış etdi.**

### Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

– Hörmətli həmkarlar.

Bu gün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasını keçiririk. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənmişdir. Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır.

Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Bugünkü iclasda müşavirədən keçən son aylar ərzində aparılan işlər, əldə edilən nəticələr haqqında Rəşad Nəbiyev məruzə edəcək.

*(ardı 3-cü səhifədə)*

# I Bakı Türkoloji Qurultayının tarixi dəyəri və dərsləri

*Turana qılıncdan ulu qüvvət – mədəniyyət!*



**Türkoloji Qurultay haqqında düşünərkən fikrimizdə Azərbaycan Xalq Cümhuriyyətinin qısa, lakin parlaq tarixi canlanır. Cəmi 23 ay mövcud olsa da, Şərqdə ilk demokratik dövlət kimi tarixə düşən bu quruluş milli şüurun oyanışında və siyasi düşüncənin formalaşmasında silinməz iz qoydu. Cümhuriyyət haqqında nə qədər yazılsa da, onun əhəmiyyəti və xidmətləri zaman keçdikcə daha dərindən dərk olunur. 1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilən I Türkoloji Qurultay da məhz bu tarixi gedişin davamı idi.**

*(ardı 13-cü səhifədə)*

# Minsk Şərqə meyillənir




Səhifə ⇨ 5

# TANAP – Azərbaycandan Türkiyəyə "mavi axın"




Səhifə ⇨ 7

## Ursula Fon der Lyayenin Bakı səfəri



Səhifə ⇨ 4

## Vaşinqton–Tehran: razılaşma həm var, həm də yoxdur



Səhifə ⇨ 5

## İrəvanda "seçki düyünü"



Səhifə ⇨ 6

## İl yarıya çatır, uğurlar isə yarıdan çoxdur



Səhifə ⇨ 9

## İsmayıllı yeni iqtisadi yüksəlişin astanasında



Səhifə ⇨ 10

## Şəmkir bolluq, bərəkət bölgəsidir



Səhifə ⇨ 11

## Qlobal çağırışlara cavab verən konsepsiya




Səhifə ⇨ 14

# Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına

**Hörmətli iştirakçılar!**

Sizi Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır.

Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mövcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır.

Türk dünyasının ortaq mənəvi dəyərlərinin – dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.

Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada, süni maneələrlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik.

Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır.

Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır.

Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik.

İnanıram ki, Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyun 2026-cı il**

# Milli Məclis Korsika ilə bağlı qanun layihəsini dəstəkləyib

Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu Fransa Milli Assambleyasında qəbul edilmiş konstitusiya qanunu layihəsinə dair bəyanat yayıb.

**Bəyanatda deyilir:**

"Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət statusunun təsbit edilməsini nəzərdə tutan konstitusiya qanunu layihəsinin qəbul olunması Korsika xalqı üçün mühüm mərhələdir. Qanun layihəsi adanın tarixi, mədəni, sosial və coğrafi xüsusiyyətləri nəzərə alınmaqla Korsikaya daha geniş özünüidarəetmə səlahiyyətlərinin verilməsini nəzərdə tutur və bu baxımdan Korsika xalqının uzun illər ərzində apardığı dinc, demokratik və ardıcıl mübarizənin mühüm siyasi nəticəsi kimi qiymətləndirilir.

Biz, Milli Məclisin Korsika Xalqına Dəstək Qrupu olaraq, Korsika xalqının bu əzmini, qətiyyətini və demokratik prinsiplərə sadiqliyini yüksək qiymətləndirir, onları səmimi qəlbdən alqışlayırıq. Korsika xalqının öz gələcəyini müəyyənləşdirmək istiqamətində nümayiş etdirdiyi əzm və qətiyyət bir daha göstərir ki, xalqların legitim tələbləri gec-tez siyasi müstəvidə öz əksini tapır. Bu baxımdan Fransa Milli Assambleyasında qəbul olunmuş qərar yalnız qanunvericilik aktı deyil, həm də Korsika xalqının uzunmüddətli mübarizəsinin mühüm siyasi nailiyyətidir.

Ümidvarıq ki, Fransa Senatı da tarixi məsuliyyət nümayiş etdirərək Fransa Milli Assambleyasının qəbul etdiyi qərarı dəstəkləyəcək və bununla da Korsika xalqının demokratik iradəsinə hörmət ifadə edəcək. Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu bundan sonra da Korsika xalqının qanuni hüquqlarının, demokratik iradəsinin və dinc siyasi mübarizəsinin beynəlxalq ictimaiyyət tərəfindən obyektiv qiymətləndirilməsini dəstəkləməyə davam edəcək".

***XQ***

# Baş prokuror ICMP Baş direktorunu qəbul edib



**İyunun 29-da Baş prokuror Kamran Əliyev ölkəmizdə səfərdə olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) Baş direktoru xanım Katrin Bombergerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan Kamran Əliyev qeyd edib ki, Baş Prokurorluqla Komissiya arasında 2023-cü ildən səmərəli əməkdaşlıq əlaqələri formalaşıb. Qeyd olunub ki, Komissiyanın fəaliyyəti xüsusilə həssas mövzu ilə əlaqədardır və itkin düşmüş şəxslərlə barğlı müvafiq məlumat mübadiləsinin təmin edilməsi zərərçəkmiş şəxslərin ailələrinin hüquqları baxımından olduqca vacibdir. Bu mövzu cənab Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə əhatə olunur.

Qəbula görə minnətdarlıq ifadə edən xanım Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumatların toplanması və mübadiləsi işinin yüksək səviyyədə təşkil edilməsini qeyd edib, mövcud əməkdaşlıq səviyyəsindən razılıq bildirib.

***XQ***

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin strukturu" təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin işçilərinin say həddi 55 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1427 (Cild I) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.1-ci bənddə "ərazisində (bundan sonra – müvafiq ərazi)" sözləri "Konstitusiyası və" sözləri ilə, "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir" sözləri "və Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra – müvafiq ərazi) Azərbaycan Respublikası Prezidentinin fəaliyyətini təmin edən 1-ci kateqoriya dövlət orqanıdır" sözləri ilə əvəz edilsin;

4.1.2. 1.2-ci bəndə "qanunlarını," sözündən sonra "bu Əsasnaməni," sözləri əlavə olunsun və həmin bənddə "fərman və sərəncamlarını, bu Əsasnaməni" sözləri "digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri ilə əvəz edilsin;

4.1.3. 1.3-cü bənddə "dövlət orqanları (qurumları) ilə" sözləri "digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

4.1.4. aşağıdakı məzmunda 1.3-1-ci və 1.3-2-ci bəndlər əlavə edilsin:

"1.3-1. Səlahiyyətli nümayəndəliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.3-2. Səlahiyyətli nümayəndəliyin saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.";

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.1.1-ci yarımbənddə "fəaliyyətini əlaqələndirmək və onların" sözləri ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək və yerli icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Konstitusiyasından, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan irəli gələn səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək;";

4.3. 3-cü hissə üzrə:

4.3.1. 3.1-ci bənd üzrə:

4.3.1.1. aşağıdakı məzmunda 3.1.1-1–3.1.1-6-cı yarımbəndlər əlavə edilsin:

"3.1.1-1. aşağıdakı məsələlər barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək:

3.1.1-1.1. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin (bundan sonra – Ali Məclis) Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması;

3.1.1-1.2. Ali Məclisin növbədənkənar sessiyasının çağırılması, habelə Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsi;

3.1.1-1.3. Azərbaycan Respublikası Prezidentinin aktları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üçün əlavə səlahiyyətlərin müəyyən edilməsi;

3.1.1-1.4. bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təkmilləşdirilməsi;

3.1.1-2. aşağıdakı məsələlərə dair Ali Məclis sədrinin təkliflərinin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi ilə bağlı tədbirlər görmək:

3.1.1-2.1. Ali Məclisə seçkilərin təyin edilməsi;

3.1.1-2.2. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında qulluq (xidmət) keçən şəxslərə ixtisas dərəcələrinin və ali xüsusi rütbələrin verilməsi;

3.1.1-2.3. Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltifetmə;

3.1.1-3. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının, tabelikdə olmayan publik hüquqi şəxslərinin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərinin rəhbərlərinin və onların müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Baş nazirinə razılıq verilməsi;

3.1.1-4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılan hallar istisna olmaqla, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və tabelikdə olmayan publik hüquqi şəxslərinin Naxçıvan Muxtar Respublikasındakı struktur bölmələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

3.1.1-5. aşağıdakı məsələlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək:

3.1.1-5.1. Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin olunması barədə Azərbaycan Respublikası Prezidentinin təqdimatının Ali Məclisin sədrinə təqdim edilməsi;

3.1.1-5.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarının yaradılmasına və ləğv edilməsinə dair, habelə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefasına dair Azərbaycan Respublikası Prezidentinin razılığının alınması;

3.1.1-5.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydasının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılması;

3.1.1-5.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə dair Naxçıvan Muxtar Respublikasının Baş nazirinə təkliflər verilməsi;

3.1.1-5.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin edilməsinə dair Ali Məclis sədrinin təqdimatının Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

3.1.1-5.6. Ali Məclisin növbədənkənar sessiyasının çağırılmasına dair Azərbaycan Respublikası Prezidentinin tələbinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-5.7. Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin təklifinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-6. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər səlahiyyətlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək;";

4.3.1.2. 3.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.3. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları və konsepsiyaların layihələrinin, həmçinin dövlət investisiya proqramına daxil edilən investisiya layihələrinin hazırlanmasında iştirak etmək və onların icrasına nəzarəti həyata keçirmək;";

4.3.1.3. 3.1.8-ci və 3.1.10-cu yarımbəndlərə "orqanlarının" sözündən sonra ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.3.1.4. aşağıdakı məzmunda 3.1.11-1 – 3.1.11-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.11-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11-2. səlahiyyətli nümayəndəliyə ayrılan büdcə vəsaitindən və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11-3. səlahiyyətli nümayəndəliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.11-4. müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.11-5. səlahiyyətli nümayəndəliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;";

4.3.1.5. 3.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

4.3.2. 3.2-ci bənd üzrə:

4.3.2.1. aşağıdakı məzmunda 3.2.1-1-ci yarımbənd əlavə edilsin:

"3.2.1-1. yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;";

4.3.2.2. 3.2.3-cü yarımbənddə "müvəqqəti olmadıqda" sözləri "məzuniyyətdə və ya ezamiyyətdə olduqda, xəstəliyi və ya digər səbəblərlə əlaqədar öz səlahiyyətlərini icra edə bilmədikdə" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "müəyyən etdiyi" sözləri çıxarılsın;

4.3.2.3. 3.2.6-cı yarımbənddə "aktların layihələrinə dair təkliflər vermək" sözləri "akt layihələrinin hazırlanmasında iştirak etmək" sözləri ilə əvəz edilsin;

4.3.2.4. 3.2.7-ci yarımbənddə "təhlillər" sözü "fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr" sözləri ilə əvəz edilsin;

4.3.2.5. aşağıdakı məzmunda 3.2.7-1-ci və 3.2.7-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.7-1. müvafiq ərazidə dövlət–özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.2.7-2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə dövlət orqanlarına (qurumlarına) təklif və tövsiyələr vermək;";

4.3.2.6. 3.2.8-ci yarımbənddə "səlahiyyətlərinə aid olan məsələlərlə bağlı" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair" sözləri ilə əvəz edilsin;

4.3.2.7. 3.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.9. forum, konfrans, müşavirə, sərgi və digər tədbirlərdə, habelə beynəlxalq tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

4.3.2.8. aşağıdakı məzmunda 3.2.9-1-ci və 3.2.9-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.9-1. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları öz fəaliyyətinə cəlb etmək, işçi qruplar yaratmaq;

3.2.9-2. istifadəsində olan dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

4.3.2.9. 3.2.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

4.4. 4-cü hissə üzrə:

4.4.1. 4.4-cü və 4.5-ci bəndlər ləğv edilsin;

4.4.2. aşağıdakı məzmunda 4.6-cı bənd əlavə edilsin:

"4.6. Səlahiyyətli nümayəndə:

4.6.1. səlahiyyətli nümayəndəliyin fəaliyyətini təşkil edir və rəhbərlik edir;

4.6.2. səlahiyyətli nümayəndəliyin fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat verir;

4.6.3. müavinləri arasında vəzifə bölgüsü aparır;

4.6.4. səlahiyyətli nümayəndəliyin strukturu və işçilərinin say həddi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

4.6.5. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərinin say həddi daxilində səlahiyyətli nümayəndəliyin ştat cədvəlini təsdiq edir;

4.6.6. səlahiyyətli nümayəndəliyin struktur bölmələrinin əsasnamələrini və işçilərinin vəzifə təlimatlarını təsdiq edir;

4.6.7. dövlət büdcəsindən ayrılan vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunla müəyyən olunan əlavələrin və digər ödənişlərin verilməsini təmin edir;

4.6.8. səlahiyyətli nümayəndəliyi təmsil edir;

4.6.9. müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.6.10. bu Əsasnamənin 4.3-cü bəndi nəzərə alınmaqla, səlahiyyətli nümayəndəliyin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

4.6.11. səlahiyyətli nümayəndəliyin işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

4.6.12. səlahiyyətli nümayəndəlikdə dövlət sirrinin və məxfilik rejiminin qorunması ilə bağlı qanunvericiliyin tələblərinə, etik davranış qaydalarına, əmək və icra intizamına riayət olunmasına nəzarət edir;

4.6.13. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.6.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.".

5. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyun 2026-cı il**

# Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası

*(əvvəli 1-ci səhifədə)*

Rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyev** “Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verdi. Qeyd etdi ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu dedi.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verdi, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlərin davam etdirildiyini vurğuladı. "Mygov" platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirdi.

Rəqəmsal inkişaf və nəqliyyat naziri fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, "mygov" və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini dedi. Rəşad Nəbiyev innovasiya ekosisteminin inkişafı məsələlərinə toxundu, texnoloji suverenliyi gücləndirən sahələrdə fəaliyyət göstərən şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanıldığını vurğuladı və kibertəhlükəsizlik sahəsində görülən işlərdən danışdı. Qeyd etdi ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

*

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri **Şahmar Mövsümov** rəqəmsal sahədə qanunvericilik üzrə islahatlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Şahmar Mövsümov qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlətimizin başçısının bu ilin fevralında imzaladığı Fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradıldığını və “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın təsdiqləndiyini xatırladan Şahmar Mövsümov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatların hazırlandığını dedi. Vurğuladı ki, bu, postsovet məkanında rəqəmsal ekosistemin inkişafı və tənzimlənməsi istiqamətində həyata keçirilən ən əhatəli və fundamental islahat təşəbbüsüdür.

Şahmar Mövsümov islahatın əhatə etdiyi sahələrə toxunaraq bildirdi ki, bunlar hüquqi müəyyənliyin təmini, rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi, elmi-tədqiqat və innovasiya təşviqləri, istedadların cəlb edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və kibertəhlükəsizlik sahəsində tənzimləmənin təkmilləşdirilməsidir.

Prezidentin köməkçisi bu islahatların mühüm cəhətlərindən biri kimi onların dünya təcrübəsinə əsaslandığını dedi, dəyişikliklər hazırlanarkən müxtəlif ölkələrin uğurlu modellərinin öyrənildiyini qeyd etdi.

*

Elm və təhsil naziri **Emin Əmrullayev** ölkədə təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər və gələcək planlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Nazir təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təminatı, “Rəqəmsal məktəb” layihəsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşması, təhsil sənədlərinin elektronlaşdırılması məsələlərinə toxundu, növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu dedi.

Emin Əmrullayev, həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı üçün məktəblərdə həyata keçirilən “Rəqəmsal bacarıqlar”, “STEAM Azərbaycan” layihələrini qeyd etdi, bu istiqamətdə insan kapitalının inkişafının təmin edilməsinin də əsas prioritetlərdən biri olduğunu vurğuladı.

İclas müzakirələrlə davam etdirildi.

***AZƏRTAC***

# Leyla Əliyeva və Alyona Əliyeva Xeyirxahlıq Festivalında







**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın ümumtəhsil müəssisələrinin müəllimlərinə həsr olunmuş Xeyirxahlıq Festivalı keçirilib.**

IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və “ThinkIn” təşkilatının əməkdaşlığı çərçivəsində təşkil olunan tədbirdə ölkənin 290 ümumtəhsil müəssisəsindən 1000-ə yaxın müəllim iştirak edib.

Mərkəzi Nəbatat Bağında açıq hava formatında təşkil olunmuş festivalda Leyla Əliyeva və Alyona Əliyeva da iştirak ediblər.

Leyla Əliyeva və Alyona Əliyeva festival ərazisində yaradılmış müxtəlif fəaliyyət zonaları ilə tanış olub, milli zona, sənət emalatxanaları, yoqa və meditasiya sessiyaları, əl işləri yarmarkası və digər interaktiv məkanlarda iştirakçılarla səmimi söhbət edib, onlarla xatirə şəkilləri çəkdirib və məktəblilərin hazırladığı yaradıcı çıxışları izləyiblər. Onlara müxtəlif əl işlərindən ibarət hədiyyələr təqdim olunub.

Tədbirin rəsmi hissəsində çıxış edən Leyla Əliyeva festivalın hər kəsə gözəl və müsbət hisslər bəxş edəcəyinə inandığını bildirib. Leyla Əliyeva vurğulayıb ki, hər bir uşaq bir möcüzə, bir xəzinədir. Biz bunu nə qədər tez aşkar etsək, onların istedadları bir o qədər tez üzə çıxacaq. Müəllimlərin, valideynlərin və ümumilikdə böyüklərin uşaqları daha yaxşı anlamasının əhəmiyyətini qeyd edən Leyla Əliyeva mehribanlığın ən böyük xoşbəxtlik olduğunu bildirib.

Sonra Leyla Əliyeva müəllimlərə gördükləri məsuliyyətli işə görə minnətdarlığını ifadə edib.

Tədbir çərçivəsində keçirilən panel müzakirəsində ümumtəhsil müəssisələrində xeyirxahlıq, mərhəmət, qarşılıqlı hörmət və empatiya kimi dəyərlərin təşviqinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə iştirak edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Nərminə Hüseynova və ADA Universitetinin prorektoru Vəfa Kazdal bu xüsusda müəllimlərin gələcək nəsillərin və bütövlükdə cəmiyyətin inkişafında oynadığı mühüm rolu xüsusi olaraq vurğulayıblar.

Daha sonra festival çərçivəsində keçirilən “Xeyirxahlıq Marafonu”nun qaliblərinin mükafatlandırma mərasimi olub. Məktəblər arasında xeyirxahlıq mövzusunda hazırlanmış ən yaradıcı sosial media məzmunları müxtəlif nominasiyalar üzrə qiymətləndirilib, 55, 244, 83, 156, 185, 45, 277, 144, 211, 300 və 165 nömrəli məktəblər “Ən səmimi təşəkkür”, “Xeyirxah əməllər mükafatı”, “Ən yaxşı ekoloji təşəbbüs” və digər nominasiyalar üzrə qalib elan olunublar. Marafon məktəblərdə xeyirxahlıq, minnətdarlıq, yaradıcılıq və həmrəyliyin gündəlik davranış mədəniyyətinə çevrilməsini təşviq etmək məqsədilə keçirilib.

Yüksək əhvali-ruhiyyə şəraitində keçən festival geniş konsert proqramı ilə başa çatıb.

Qeyd edək ki, Xeyirxahlıq Festivalının əsas məqsədi cəmiyyətin müəllimlərə olan dərin hörmət və minnətdarlığını ifadə etmək, məktəblərdə xeyirxahlıq, qarşılıqlı hörmət və dəstəyə əsaslanan sağlam təhsil mühitini təşviq etmək, empatiya və mənəvi dəyərlər üzərində qurulan təhsil mədəniyyətinin inkişafına töhfə vermək, eləcə də xeyirxahlığın təhsil sistemində və cəmiyyətin inkişafındakı mühüm rolunu nümayiş etdirməkdən ibarət olub.

Tədbir çərçivəsində keçirilən əl işləri yarmarkasında 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi, “Birgə və Sağlam” Autizm Mərkəzi, Zəka Yolu İnkişaf Mərkəzi, “İZ Community”, “Kashalata” və digər təşkilatların nümayəndələrinin hazırladıqları məhsullar tədbir iştirakçılarına təqdim olunub.

***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva Dənizkənarı Milli Parkda layihə təqdimatlarında





**İyunun 26-da Dənizkənarı Milli Park ərazisində bir sıra layihənin təqdimat mərasimləri keçirilib. Mərasimlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.**

## Boulevard idman klubu




Əvvəlcə Dənizkənarı Milli Parkda ənənəvi tennis kortu kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan “Boulevard Sports Club” idman klubunun açılışı olub.

Leyla Əliyeva və Arzu Əliyeva idman klubunda yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, yeni idman klubu Dənizkənarı Milli Parkda sağlam həyat tərzinin təşviqi, idman infrastrukturunun genişləndirilməsi və istirahət imkanlarının artırılması istiqamətində görülən işlər çərçivəsində qurulub. Burada müasir avadanlıqlarla təchiz olunan funksional fitnes zalı, padel kortları və dinamik idman imkanları yaradılıb.

## Üzən sutəmizləmə qurğusu

Sonra Bakı buxtasının Dənizkənarı Milli Park akvatoriyasına düşən hissəsinin ekoloji vəziyyətinin yaxşılaşdırılması və su hövzəsinin təmizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində innovativ “WasteShark” üzən sutəmizləmə qurğusunun təqdimatı olub. Təqdimat zamanı Leyla Əliyeva və Arzu Əliyevaya qurğunun texniki imkanları nümayiş etdirilib. Bildirilib ki, qurğu son illər Xəzər dənizində su səviyyəsinin enməsi fonunda sahilyanı ərazilərdə, dayaz sularda və qapalı akvatoriyalarda üzən tullantıların, biokütlənin və müxtəlif çirkləndiricilərin çevik şəkildə toplanmasına imkan verən qabaqcıl texnoloji həllərlə təchiz olunub.



Uzaqdan idarəolunan, xüsusi sensorlar və kameralarla təchiz edilən və çevik hərəkət imkanlarına malik qurğu su səthindəki tullantılar, üzvi qalıqlar və çirkləndirici maddələri toplayır. Xüsusilə əlçatanlıq məhdud olan sahələrdə səmərəli fəaliyyət göstərən “WasteShark” ekoloji monitorinq və təmizlik tədbirlərinin imkanlarını genişləndirməyə hesablanıb.

Qurğunun ilkin mərhələdə lokal təmizləmə işlərində tətbiqi, əldə olunan nəticələrə əsasən isə Bakı buxtasının daha geniş akvatoriyasında və müxtəlif istifadə formatlarında tətbiqi nəzərdə tutulur.

Qeyd edək ki, layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

## Elektrik mühərrikli faytonlar

Daha sonra Bakı Bulvarı ərazisində ziyarətçilərə fərqli istirahət və gəzinti imkanı təqdim edən yeni layihənin - elektrik mühərrikli faytonların təqdimatı olub.

Əvvəlcə Leyla Əliyeva və Arzu Əliyevaya yeni layihə haqqında məlumat verilib. Bildirilib ki, Bakı şəhərinin fayton ənənələrindən ilhamlanan həmin tarixi görünüşlü müasir nəqliyyat vasitələri bulvar ərazisində xüsusi marşrut üzrə ekoloji təmiz, səssiz və komfortlu gəzinti imkanları təqdim edir. Qeyd edilib ki, elektrik mühərrikli faytonların istifadəsi müasir, ekoloji və dayanıqlı şəhər mühiti prinsiplərinin təşviqi istiqamətində atılan addımlardan biridir. Sonra qonaqlar üçün elektrik mühərrikli faytonlarla bulvar boyunca gəzinti təşkil olunub.



Açılış və təqdimat mərasimləri zamanı Leyla Əliyeva və Arzu Əliyeva şəhər sakinləri ilə görüşüb, onlarla şəkil çəkdiriblər.

***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva Bakı Bulvarında mövsümi güllərin əkilməsi aksiyasında





**İyunun 26-da Bakı Bulvarında mövsümi güllərin əkilməsi aksiyası keçirilib.**

Aksiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Bakı Bulvarının yaşıllıq sahələrinin zənginləşdirilməsi, ərazidə təbii gözəlliklərin və estetik görünüşün artırılması məqsədilə təşkil olunan aksiyada xüsusi landşaft kompozisiyalarına uyğun olaraq müxtəlif növ minlərlə mövsümi gül əkilib.

Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin könüllüləri ilə birgə keçirilən aksiya ekoloji təşəbbüslərdə fəal iştirakın təşviqi, ətraf mühitə məsuliyyətli münasibətin formalaşdırılması və Dənizkənarı Milli Parkın yaşıl məkan kimi qorunması, onun inkişafına ictimai dəstəyin artırılması baxımından əhəmiyyət daşıyır.

***XQ***

# Ursula Fon der Lyayenin Bakı səfəri

## *Yaxud Avropa İttifaqının dəyişən geosiyasi hesablamaları*

**Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Cənubi Qafqaza növbəti səfəri Avropa İttifaqının (Aİ) regiona münasibətində formalaşan yeni geosiyasi yanaşmanın praktik ifadəsidir. Əgər bir neçə il əvvəl Brüsselin Cənubi Qafqaz siyasətində təhlükəsizlik, münaqişələrin idarə olunması və normativ gündəm üstünlük təşkil edirdisə, hazırkı mərhələdə prioritetlər əhəmiyyətli dərəcədə dəyişib. Region artıq Avrasiya məkanında enerji, nəqliyyat və iqtisadi bağlantıları təmin edən strateji platforma kimi nəzərdən keçirilir.**



Cənubi Qafqazın bugünkü geosiyasi əhəmiyyətini anlamaq üçün tarixə nəzər salmaq kifayətdir. XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı tədricən nəzarətə götürməsi regionun beynəlxalq statusunu kökündən dəyişdirdi. 1804–1813 və 1826–1828-ci illər Rusiya–İran müharibələrinin nəticəsi olaraq imzalanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Şimali Azərbaycan Rusiya imperiyasının tərkibinə daxil oldu. Bununla da Rusiya Xəzər hövzəsinə, Cənubi Qafqaza və Mərkəzi Asiyaya uzanan strateji istiqamətdə möhkəmləndi. Bundan sonra Böyük Britaniya Rusiyanın cənuba "yürüşünü" öz imperiya maraqları üçün təhlükə hesab etməyə başladı. Londonun əsas narahatlığı Qafqazın özü deyil, Rusiyanın Mərkəzi Asiya üzərindən Əfqanıstana, oradan isə Britaniya imperiyasının "tacındakı ən qiymətli inci" sayılan Hindistana yaxınlaşması idi. Tarixə "Böyük oyun" adı ilə düşən geosiyasi rəqabət bu strateji hesablamaların məhsulu idi. Rəqabət yalnız hərbi müstəvidə aparılmırdı. Rusiya Qafqazda yollar çəkir, hərbi istehkamlar yaradır, Xəzərdə donanmasını gücləndirirdi. Britaniya isə diplomatik missiyalar, kəşfiyyat ekspedisiyaları və yerli hakimlərlə ittifaqlar vasitəsilə Rusiyanın irəliləyişini ləngitməyə çalışırdı.

Bu gün geosiyasi mənzərə fərqlidir, lakin məntiq eyni qalır. Artıq imperiyalar ordularla irəliləmir, onların yerini iqtisadi layihələr tutub. Dəmir yolları, limanlar, enerji kəmərləri, fiber-optik xətlər və beynəlxalq nəqliyyat dəhlizləri XXI əsrin geosiyasi təsir alətlərinə çevrilib. Əgər XIX əsrdə böyük dövlətlər Hindistana gedən yollar uğrunda rəqabət aparırdılarsa, bu gün Aİ, Çin, ABŞ və digər aktorlar Avropa ilə Mərkəzi Asiya arasında ən təhlükəsiz və ən səmərəli marşrutların formalaşmasında maraqlıdırlar.

* * *

Məhz bu baxımdan Ursula Fon der Lyayenin Bakı səfəri tarixi kontekstdən kənarda qiymətləndirilə bilməz. Aİ Cənubi Qafqaza yeni münaqişə məkanı kimi deyil, Avrasiyanın dəyişən iqtisadi xəritəsində strateji bağlantı nöqtəsi kimi baxmağa başlayıb. Azərbaycanın diqqət mərkəzində olmasının səbəbi də məhz budur: bu coğrafiya yenidən qlobal güclərin maraqlarının kəsişmə nöqtəsinə çevrilir. Doğrudur, XXI əsrdə geosiyasi mübarizənin alətləri dəyişib, lakin onun əsas məqsədi – Avrasiyanın kommunikasiya xətlərinə nəzarət etmək – əvvəlki kimi qalır. Son on ildə "bağlantılılıq" anlayışı beynəlxalq siyasətin əsas terminlərindən birinə çevrilib. Aİ-nin "Qlobal bağlantılar", Çinin "Bir kəmər, bir yol", Hindistanın Yaxın Şərq və Avropanı birləşdirməyi hədəfləyən Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizi layihəsi, Rusiyanın "Şimal–Cənub" nəqliyyat dəhlizi – bütün bu təşəbbüslər mahiyyət etibarilə eyni məqsədə xidmət edir: Avrasiyanın iqtisadi arteriyalarında mövqe qazanmaq. Bu rəqabətdə Cənubi Qafqaz Xəzər hövzəsini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən yeganə sabit quru marşrutlarından biri kimi ön plana çıxır. Xüsusilə Ukrayna müharibəsindən sonra Aİ üçün bu marşrutun strateji əhəmiyyəti daha da artıb. Şimal marşrutu Rusiya üzərindən keçdiyi üçün siyasi risk daşıyır, cənub istiqaməti isə Yaxın Şərqdə davam edən böhranlar səbəbindən qeyri-müəyyən olaraq qalır. Belə şəraitdə Xəzər dənizi–Azərbaycan–Gürcüstan–Türkiyə xətti Avropa üçün ən real alternativlərdən biri kimi çıxış edir.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan bu prosesə hazır infrastruktura daxil olur. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu son iyirmi ildə formalaşdırılmış strateji investisiyaların nəticəsidir. Bu layihələr Azərbaycanın uzunmüddətli dövlət siyasətinin məhsuludur.

Ursula Fon der Lyayenin Bakı səfərinin əsas siyasi məntiqi burada ortaya çıxır. Brüssel regionda yeni layihə yaratmağa gəlmir. Aİ artıq formalaşmış geoiqtisadi reallığa uyğunlaşmağa çalışır. Azərbaycanın son illər qurduğu enerji və nəqliyyat infrastrukturu Avropa üçün zərurətə çevrilməkdədir.

* * *

Lakin səfərin ikinci mühüm istiqaməti də diqqətdən yayınmamalıdır. Aİ anlayır ki, iri infrastruktur layihələrinin uzunmüddətli dayanıqlılığı yalnız siyasi sabitlik şəraitində mümkündür. Məhz buna görə Bakı ilə İrəvan arasında normallaşma prosesi Brüssel üçün həm də iqtisadi və strateji zərurətdir. Aİ-nin sülh gündəminə verdiyi dəstək ilk növbədə regional kommunikasiyaların təhlükəsizliyinə, investisiya mühitinin möhkəmləndirilməsinə və Orta Dəhlizin tam potensiala işləməsinə hesablanıb. Bu yanaşmanın arxasında kifayət qədər praktik hesablamalar dayanır. Beynəlxalq maliyyə institutlarının və böyük investorların qərarları ilk növbədə siyasi risk göstəricilərinə əsaslanır. Məsələn, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Asiya İnkişaf Bankı kimi qurumlar iri nəqliyyat və enerji layihələrinə kredit ayırarkən regiondakı təhlükəsizlik vəziyyətini əsas meyarlardan biri kimi qiymətləndirirlər. Münaqişə riski yüksək olan marşrutlarda sığorta xərcləri artır, tranzit qiymətləri yüksəlir və investisiya qərarları ləngiyir. Aİ-nin Orta Dəhlizə xüsusi diqqət yetirməsinin səbəbi də budur. Çin–Qazaxıstan–Xəzər dənizi–Azərbaycan–Gürcüstan–Türkiyə–Avropa xətti üzrə daşınan yüklərin həcmi son illər nəzərəçarpacaq dərəcədə artıb. Ukrayna müharibəsindən sonra bir sıra Avropa şirkətləri Rusiyadan keçən şimal marşrutuna alternativ axtarmağa başladılar və Transxəzər marşrutu onların əsas seçimlərindən birinə çevrildi. Lakin bu marşrutun tam potensialla işləməsi üçün Cənubi Qafqazda siyasi gərginliyin azalması vacibdir.

Burada əsas məsələ regionun ümumi təhlükəsizlik mühitidir. Aİ hesab edir ki, Bakı ilə İrəvan arasında davamlı sülh əldə olunarsa, nəqliyyat layihələrinə qoyulan sərmayələrin geri dönüşü daha proqnozlaşdırılan olacaq. Tarixi təcrübə də bunu təsdiqləyir. 1951-ci ildə yaradılan Avropa Kömür və Polad Birliyi – sonradan Aİ-yə çevrilən inteqrasiyanın əsası – məhz iqtisadi qarşılıqlı asılılıq vasitəsilə Fransa ilə Almaniya arasında müharibə riskini azaltmaq məqsədi daşıyırdı. Yəni Avropa inteqrasiyasının özü iqtisadi layihələrin sülh yaratmaq potensialı üzərində qurulmuşdu. Brüssel bu təcrübəni Cənubi Qafqazda da tətbiq etməyə çalışır: kommunikasiyalar açıldıqca, ticarət və investisiyalar artdıqca, münaqişə ehtimalının azalacağına inanır.

* * *

Beynəlxalq münasibətlərdə bir prinsip var: dövlətlərin siyasəti dəyişə bilər, lakin coğrafiyanın diktə etdiyi maraqlar asanlıqla dəyişmir. Cənubi Qafqaz bunun ən yaxşı nümunələrindən biridir. XIX əsrdə Böyük Britaniya ilə Rusiya imperiyası arasında "Böyük oyun"un əsas məqsədi Hindistana gedən yollar üzərində strateji üstünlük əldə etmək idi. XX əsrin əvvəllərində isə regionun geosiyasi əhəmiyyətinə yeni amil əlavə olundu – Bakı nefti. Təsadüfi deyil ki, Birinci Dünya müharibəsinin son mərhələsində – 1918-ci ildə Osmanlı, Böyük Britaniya, bolşevik Rusiyası və yerli siyasi qüvvələrin maraqları Bakıda toqquşdu.

İkinci Dünya müharibəsində də Azərbaycanın geostrateji əhəmiyyəti yenidən ön plana çıxdı. Almaniyanın 1942-ci ildə həyata keçirdiyi "Edelveys" əməliyyatı



təsadüfi olaraq Qafqaza yönəlməmişdi. Hitlerin məqsədi yalnız Sovet ordusunu cənubdan sıxışdırmaq deyil, Bakı neftinə çıxış əldə etmək idi. Alman Baş Qərargahının sənədlərində Qafqaz neftinin ələ keçirilməsi müharibənin taleyini dəyişə biləcək strateji məqsəd kimi qiymətləndirilirdi. Soyuq müharibə dövründə Cənubi Qafqaz SSRİ-nin cənub sərhədlərinin təhlükəsizlik zolağına çevrildi. Region uzun müddət qlobal iqtisadi layihələrin deyil, hərbi-siyasi qarşıdurmanın tərkib hissəsi oldu.

Bu gün Ursula Fon der Lyayenin Bakıya səfərini məhz bu tarixi ardıcıllıqda qiymətləndirmək lazımdır. Aİ Azərbaycanın geosiyasi əhəmiyyətini yaratmır. Brüssel son iki əsrdə müxtəlif formalarda özünü göstərən bir reallığı qəbul edir: Avrasiya məkanında yolların istiqaməti dəyişəndə Cənubi Qafqaz yenidən böyük siyasətin mərkəzinə çevrilir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanın enerji strategiyası ölkəmizin beynəlxalq nüfuzunu yüksəldir

## *Gürcü politoloqa görə, Bakının çoxvektorlu və praqmatik xarici siyasəti bölgə üçün strateji yol xəritəsidir*

**Qlobal geosiyasi rəqabətin kəskinləşdiyi və beynəlxalq təhlükəsizlik sisteminin böhran yaşadığı müasir şəraitdə logistika marşrutlarının geostrateji əhəmiyyəti artıb. Bu zaman dünya güclərinin diqqəti Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji qovşaqlara yönəlib. Mövcud reallıqlar fonunda Azərbaycan Cənubi Qafqazda təhlükəsizlik və inteqrasiya modelinin əsas memarı, dayanıqlı inkişafın aparıcı qüvvəsidir.**

Rəsmi Bakının çoxvektorlu və praqmatik xarici siyasət kursu regionda risklərin azaldılmasına xidmət edir. Azərbaycanın irəli sürdüyü sülh gündəliyi Cənubi Qafqazın gələcəyini qarşıdurma və bloklaşma deyil, bərabərhüquqlu əməkdaşlıq platforması üzərində qurmağı hədəfləyir və bu yanaşma region dövlətləri tərəfindən sabitlik və inkişaf üçün real təminat kimi qəbul olunur. Bölgədə formalaşan yeni geostrateji arxitektura regionun digər mühüm aktoru olan Gürcüstanın siyasi və analitik dairələrində də müsbət qarşılanır.

**"Vahid Neytral Gürcüstan" partiyasının icraçı katibi, gürcü politoloq Vato Şakarişvilinin** fikrincə, Azərbaycanın həyata keçirdiyi layihələr və sülh



təşəbbüsləri region ölkələrinin milli maraqlarını yaxınlaşdırır. Cənubi Qafqazın qlobal güclər qarşısında diplomatik və iqtisadi çəkisini artırır. Həmçinin iqtisadi inkişafı sürətləndirən və sabitliyi gücləndirən mühüm amil rolunu oynayır.

V.Şakarişvilinin vurğuladığına görə, Azərbaycan, Gürcüstan və Türkiyə arasında formalaşmış strateji üçtərəfli əməkdaşlıq formatının və iqtisadi sinerjinin ən uğurlu nümunələrindən biri Bakı–Tbilisi–Qars dəmir yolu xəttidir. Bu xətt regional təhlükəsizliyin və logistika sabitliyinin əsas elementlərindən biridir. Layihə yalnız nəqliyyat bağlantısı deyil, həm də regionlararası inteqrasiyanı dərinləşdirən strateji infrastruktur platforması funksiyasını yerinə yetirir.



Eyni zamanda, Çindən Avropaya qədər uzanan geniş coğrafiyanı əhatə edən Orta Dəhliz layihəsi Şərqlə Qərb arasında yük axınlarının diversifikasiyası baxımından öz əhəmiyyətini artıraraq, qlobal ticarət marşrutları arasında rəqabətqabiliyyətli alternativ kimi mövqeyini möhkəmləndirir. Marşrutun həm vaxt, həm də təhlükəsizlik baxımından üstünlükləri onun beynəlxalq logistika sistemində rolunu aktuallaşdırır.

Bununla yanaşı, Azərbaycanın enerji strategiyası çərçivəsində formalaşmış diversifikasiya olunmuş neft-qaz kəmərləri şəbəkəsi və perspektivli Qara dəniz sualtı elektrik kabeli layihəsi regionun Avropanın enerji təhlükəsizliyi sistemindəki rolunu artırır. Bu təşəbbüslər Cənubi Qafqazı enerji təchizatı zəncirində, sadəcə, tranzit məkan deyil, həm də strateji təminatçı kimi çıxış etdiyini göstərir. V.Şakarişvilinin də qeyd etdiyi kimi, bu istiqamətdə ən ardıcıl və sistemli siyasi xətt yürüdən əsas aktor Azərbaycandır. Onun sözlərinə görə, Bakı Cənubi Qafqazın tranzit və logistik potensialının reallaşdırılmasına yönəlmiş irihəcmli infrastruktur layihələrini ardıcıl şəkildə həyata keçirməklə regionun iqtisadi və geosiyasi çəkisini artırır. Bu siyasət təkcə iqtisadi nəticələrə deyil, həm də regional sabitliyin möhkəmlənməsinə xidmət edən strateji yanaşmadır.

* * *

Şübhəsiz ki, həyata keçirilən geostrateji təşəbbüslər Cənubi Qafqazı qlobal rəqabət məkanından daha çox qarşılıqlı asılılığa əsaslanan əməkdaşlıq platformasına yönəldir və regionun beynəlxalq təhlükəsizlik və ticarət sistemində əhəmiyyətli strateji qovşağa çevrilməsinə şərait yaradır. Bu fonda Azərbaycan–Gürcüstan münasibətləri də regionda formalaşan yeni siyasi düzənin əsas sütunlarından biridir. Gürcüstan Prezidenti və digər rəsmilərin ilk xarici səfərlərini Azərbaycana etmələri təsadüfi diplomatik addım deyil. Bu, iki ölkə arasında strateji tərəfdaşlığın yüksək səviyyəsinin və qarşılıqlı etimadın siyasi göstəricisidir. Vato Şakarişvili bu səfərləri iki ölkə arasında möhkəm dostluğun, strateji tərəfdaşlığın davamı adlandırır. Bildirir ki, Gürcüstan Azərbaycana xüsusi önəm verir. Onun sözlərinə görə, iki ölkəni birləşdirən əsas amil yalnız mehriban qonşuluq münasibətləri deyil, həm də bölgədə sülhün qorunması, regional təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi rifahın təmin olunması və yeni geosiyasi reallıqlarda ortaq maraqların müdafiəsidir.

Sözsüz ki, Azərbaycanın həyata keçirdiyi xarici siyasətin əsas xüsusiyyətlərindən biri əlaqələrin qarşılıqlı fayda, etimad və uzunmüddətli tərəfdaşlıq əsasında qurmasıdır. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan hazırda təkcə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində deyil, bütövlükdə Avrasiya məkanında strateji nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafında əsas ölkələrdən biridir.

**Gürcüstanlı siyasi şərhçi Vüqar İsayevin** fikrincə, Azərbaycanın ardıcıl, praqmatik və uzaqgörən siyasəti Cənubi Qafqazda yeni əməkdaşlıq mühitinin formalaşmasında həlledici rol oynayır: "Bu yanaşma regionda etimad mühitini gücləndirməklə yanaşı, iqtisadi əlaqələrin genişlənməsinə, investisiya axınlarının artmasına və yeni nəqliyyat-logistika marşrutlarının açılmasına real imkanlar yaradır. Əslində, bu proses Cənubi Qafqazın qlobal geosiyasi sistemdə daha inteqrasiya olunmuş, qarşılıqlı əlaqələrə əsaslanan vahid məkan kimi çıxış etməsinə şərait yaradır".

Ekspertin qiymətləndirməsinə görə, Azərbaycanın təşəbbüsləri region ölkələri arasında əməkdaşlığın dərinləşməsini sürətləndirir və uzun illərdir formalaşmış etimad defisitinin aradan qaldırılmasına xidmət edir. Bu isə təkcə iqtisadi layihələrin deyil, həm də siyasi dialoqun gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Analitikin vurğuladığı kimi, müasir beynəlxalq münasibətlər sistemində regional əməkdaşlıq və davamlı sülh artıq yalnız iqtisadi inkişafın deyil, eyni zamanda, siyasi sabitliyin, təhlükəsizliyin və dövlət suverenliyinin əsas dayaqlarından birinə çevrilib: "Bu kontekstdə Azərbaycan mövcud reallıqları nəzərə alaraq sülh gündəmini ardıcıl şəkildə irəli aparır, region ölkələri arasında əməkdaşlığın genişləndirilməsi üçün konkret təşəbbüslər irəli sürür və çoxtərəfli regional layihələrin icrasında aktiv rol oynayır".

V.İsayev hesab edir ki, Azərbaycanın formalaşdırdığı əməkdaşlıq modeli mövcud geosiyasi çağırışlara operativ cavab verməklə kifayətlənmir, eyni zamanda, Cənubi Qafqaz üçün uzunmüddətli siyasi sabitlik, iqtisadi inteqrasiya və dayanıqlı inkişaf baxımından strateji yol xəritəsi



funksiyasını daşıyır və regionun gələcək geosiyasi arxitekturasını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

Beləliklə, gürcü politoloqları Azərbaycanın təşəbbüslərini yalnız milli maraqlara xidmət edən layihələr kimi deyil, Cənubi Qafqazın yeni siyasi və iqtisadi arxitekturasının formalaşmasının əsas sütunlarından biri kimi qiymətləndirirlər. Onlar qeyd edirlər ki, Azərbaycanın təşəbbüsləri Cənubi Qafqazın geosiyasi çəkisini artırmaqla yanaşı, region üçün daha sabit, qarşılıqlı faydaya əsaslanan və uzunmüddətli inkişaf modelinin formalaşmasına xidmət edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**“Buradan Birləşmiş Ştatlardakı erməni lobbisinə də müraciət edirəm. Onlar “Qarabağ hərəkatı”nı davam etdirməyi düşünürlər. Erməni xalqı isə “Qarabağ hərəkatı”nı davam etdirməyəcək. Biz bu istiqamətdə atılan bütün addımların qarşısını alacağıq”. Ermənistanın Baş naziri Nikol Paşinyanın bu fikri təkcə Amerika Erməni Milli Komitəsi (ANCA) başda olmaqla, ABŞ-ın erməni lobbi və diaspor təşkilatlarına deyil, eyni zamanda, ölkənin saxta hay təəssübü çəkən konqresmenlərinə tərs şapalaqdır. O konqresmenlərə ki, iyun ayı başlayandan anti-Azərbaycan motivli fəaliyyətlərini gücləndiriblər. O konqresmenlər ki, ANCA-nın onlara ayırdığı çirkli pullardan cuşa gələrək, sərsəm musiqilərini ənənəvi erməni avantürizminin notlarına kökləyiblər.**

# Paşinyan, xaricdəki erməni lobbisi və “Qarabağ hərəkatı”

## *Ermənistanın Baş naziri nəyin mesajını verir və...*

Həqiqətən, Baş nazir N.Paşinyan son dərəcə vacib məqama toxunur. O, yanaşmasını erməni cəmiyyətində populyar xəstəliyə nəzərən ortaya qoyur. Yanaşma isə budur: “...İnsanların arqumentləri tükənəndə kiməsə hücum etmək üçün Türkiyə və ya Azərbaycan deyirlər. Əvvəllər də bildirmişəm ki, təhqir etdiyinizi düşünərək mənə türk deməyin”.

ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri də Paşinyanı “türk” adlandırırlar. Bu cür deyimlərin, habelə, həmin təşkilatların hazırkı anti-Azərbaycan ritorikasının bir məqsədi var: Bakı-İrəvan sülh prosesini pozmaq. Məhz bu məqsədin

Ümumən, N.Paşinyan son illərdə dəfələrlə bildirib ki, Ermənistanın dövlət maraqları ilə bəzi diaspor qruplarının məqsədləri üst-üstə düşmür. Mövcud kontekstdən yanaşsaq, İrəvanın ABŞ-dakı erməni təşkilatlarının Qarabağ məsələsini yenidən beynəlxalq gündəmə gətirmək cəhdlərinə qarşı bir neçə istiqamətdə tədbir görməsi mümkündür. Bunlardan birincisi siyasi maarifləndirmədir. Hesab edirik ki, hay lobbi və diaspor təşkilatlarının “aktivliyi” artdıqca, Ermənistan hakimiyyəti dərhal müdaxilə mexanizmi tətbiq etməlidir. Yəni təkcə Paşinyanın özü deyil, bütövlükdə onun komandasının üzvləri və müvafiq



müxtəlif təzahür formaları nəzərə çarpır ki, belə mənfi təmayüllər baxımından ən yaxşı təsviri elə Paşinyanın özü verir. Yəni onun ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının “Qarabağ hərəkatı”nı davam etdirmək istəklərindən söz açması təsadüf sayılmamalıdır.

Bəli, istər Birləşmiş Ştatların haypərəst konqresmenlərinin – Bred Şermanın, Tom Makklintokun, Judi Çunun və Laura Fridmanın son dövlərdəki “aktivliyinin”, istərsə də bu şəxslərin birgə təşəbbüsü ilə Konqresin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin müzakirəsinə çıxarılmış erməniпərəst qanunvericilik sənədlərinin qayəsində məhz bədnam “Qarabağ hərəkatı”nı “diriltmək” niyyəti dayanır. Paşinyan mətləbi, necə deyərlər, bəzəksiz-düzəksiz anladır, faktiki olaraq, ayının min oyununun bir armudun başında olduğunu açıqlayır.

Qeyd edək ki, “ayıların” oyunları özünü ən müxtəlif formada göstərməkdədir. Bu mənada, sözügedən konqres komitəsinin müzakirəsinə təqdim olunmuş “Diplomatik xidmət haqqında” qanuna “Azərbaycanı bütün erməni hərbi əsirlərini və siyasi məhbusları dərhal və qeyd-şərtsiz azad etməyə çağıran” müddəanın əlavəsi təşəbbüsündən tutmuş, Birləşmiş Ştatların 2027-ci maliyyə ili üçün “Milli Müdafiə Səlahiyyətləri Aktı”na və “Milli Təhlükəsizlik və Xarici Əməliyyatların Maliyyələşdirilməsi Aktı”na erməniпərəst mahiyyət daşıyan dəyişikliklərədək bir çox məqamları vurğulamaq mümkündür.

Deməli, Paşinyanın sözlərindən gəlinən qənaət budur ki, adlarını qeyd etdiyimiz qanun layihələri ilə erməni məhbusların azad edilmələri, ölkəmizə hərbi yardımın məhdudlaşdırılması, rəsmi Bakının davranışına dair Pentaqon üzərinə hesabatlar təqdim etmək öhdəliyinin qoyulması, Ermənistan üçün əlavə təhlükəsizlik yardımının göstərilməsi, İrəvanın hərbi məqsədlər naminə maliyyələşdirilməsi, Qarabağ ermənilərinin geri qayıdışı və onların mədəni irsinin qorunması tələblərinin irəli sürülməsi ilə bağlı hesabat və monitorinq mexanizmlərinin yaradılması kimi məsələlərin məğzində məhz avantüranın bərpası istəyi dayanır.

Bəli, Nikol açıq danışmaqla, bir növ, maskaları yırtır. O, ABŞ-dakı erməniпərəst “aktivliyi” ifşa edir və bununla kifayətlənməyərək, erməni xalqı ilə bu “aktivliyi” formalaşdıranların arasındakı uçurumu vurğulayır. Paşinyan dolayısı ilə birinci qütbün təmsilçilərinin erməni cəmiyyətinə heç bir aidiyyatının olmadığını önə çəkir. Hesab edirik ki, ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarına münasibətdə məhz bu cür yanaşmanın meydana çıxması ilk sayıla bilər. Baxmayaraq ki, ümumən, Ermənistan daxilində və diaspor mühitində mövcud fikir ayrılıqları məsələsi təkcə indinin söhbəti deyil. Bilavasitə ilkə gəldikdə, Paşinyanın həmin təşkilatların çıxardıqları oyunbazlıqlara qarşı müqavimət göstəriləcəyini diqqətə çatdırmasıdır. O zaman sual yaranır: Görəsən, erməni iqtidarı lobbi və diaspor amilini neytrallaşdırmaq üçün hansı addımları ata bilər?

* * *

dövlət rəsmiləri bəyanatlar verməlidirlər. Bəyanatlar verməlidirlər ki, məsələn, ABŞ-ın ictimai rəyinin diqqəti erməniпərəst təşəbbüslərdən yayınsın. Təkcə Birləşmiş Ştatlardakı deyil, o cümlədən dünyanın bir çox bölgələrindəki erməni lobbi və diaspor təşkilatlarının Qarabağ sərsəmliyinə qarşı diplomatik kanallar vasitəsilə də mübarizə apara bilər. Bu mübarizə ikinciləri əhəmiyyətli dərəcədə neytrallaşdıracaq.

Üçüncü mübarizə istiqaməti Ermənistan hakimiyyətinin xaricdəki, həmçinin ABŞ-dakı diaspor və lobbi təşkilatları ilə institusional dialoqudur. Hesab edirik ki, bu fəaliyyət, müəyyən qədər də olsa, ikincilərin fəaliyyətini praqmatik çərçivəyə yönəldə bilər. Dördüncüsü, Ermənistanda hüquqi və konstitusion islahatların davam etdirilməsi vacibdir. Əgər Ermənistan rəhbərliyi “Qarabağ hərəkatı”nı dövlət siyasətindən çıxarmaq niyyətindədirsə, əməli fəaliyyətə üstünlük verməli, konstitusiya, strateji sənədlər və rəsmi doktrinalarda düzəlişlərə getməlidir. Başqa sözlə desək, ölkə hakimiyyəti Azərbaycanın tələbinin yerinə yetirilməsinə qol çırmalamalıdır. Proses tam şəkildə başa çatdırılmalıdır ki, xaricdəki erməni lobbi və diaspor təşkilatlarının da mövqeyi zəifləsin, onların əsas mövzuları sıradan çıxsın. Beşinci məqam. Məlumdur ki, Ermənistan hazırda anti-Rusiya xətti həyata keçirməkdədir. Mövcud xəttin nə dərəcədə uğurlu olub-olmayacağını demək çətinlik yaratsa da, bu fəaliyyətin Rusiya tərəfindən maliyyələşdirilən siyasi qurumları maddi imkanlardan məhrum etməyə yönələn fazası da var. Hesab edirik ki, eyni yanaşma lobbi və diaspor təşkilatlarına münasibətdə də tətbiq olunmalıdır. Yəni Ermənistan hökuməti ölkə daxilindəki bəzi fondların onlardan maliyyələşdirməsi üzərində nəzarəti gücləndirməlidir. Aydındır ki, bu, Ermənistan daxilindəki siyasi proseslərə təsir imkanlarını da azaldacaq. Nəhayət, altıncı məqam kimi Ermənistanda ictimai rəyin formalaşdırılması məsələsini vurğulamaq mümkündür. Məlum olduğu kimi, N.Paşinyanın son aylardakı çıxışlarının əsas məqsədlərindən biri Ermənistan cəmiyyətinə yeni siyasi xətti qəbul etdirməkdir. Əgər hökumət cəmiyyətə Qarabağ mövzusunun davamının ölkəyə əlavə risklər yaratdığının tam izahını verə bilsə, diasporun çağırışları Ermənistan daxilində daha az dəstək qazanacaq.

* * *

Sonda onu da vurğulayaq ki, Ermənistan hakimiyyətinin ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının fəaliyyətini birbaşa dayandırmaq imkanları məhduddur, hətta, demək olar, yoxdur. Çünki ikincilər Birləşmiş Ştatlar qanunvericiliyinə əsasən müstəqil qurumlardır və işlərini Ermənistan hökumətindən asılı olmayaraq qurmaq səlahiyyətindədirlər. Məsələyə mövcud prizmadan yanaşsaq, Paşinyanın əvvəl təqdim etdiyimiz iqtibasdakı “qarşısını almaq” fikri daha çox Ermənistan dövlətinin ABŞ-dakı erməni lobbi və diaspor qurumlarının təşəbbüslərinə qoşulmadığının, həmin təşəbbüsləri legitimləşdirmədiyinin mesajıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Minsk Şərqə meyillənir

## *Çinlə strateji əməkdaşlıq Belarusun Avrasiyadakı mövqeyini gücləndirir*

**Belarus Prezidenti Aleksandr Lukaşenkonun Pekinə səfəri və Çin Sədri Si Cinpin ilə görüşməsi Minskin geosiyasi istiqamətini qəti şəkildə Şərqə tərəf yönəltdiyini nümayiş etdirir. Görüş zamanı səsləndirilən bəyanatlar, xüsusən ikitərəfli münasibətlərin tarixi zirvə nöqtəsinə çatması barədə rəsmi rəylər maraq doğurub.**

Mərkəzi və Şərqi Avropada artan gərginlik, Qərbin tətbiq etdiyi sanksiyalar və təzyiqlər fonunda Belarus xarici siyasətində fərqli təhlükəsizlik alternativləri axtarmaq məcburiyyətində qalıb. Siyasi təcrid cəhdləri qarşısında Minskin yeganə çıxış yolu kimi Pekin ilə müttəfiqlik əlaqələrini gücləndirməyi seçməsi təsadüfi hesab edilə bilməz. Çin Sədri Si Cinpinin bəyan etdiyi kimi, tərəflər arasında qurulan qarşılıqlı etimad beynəlxalq gərginliyin ən ağır sınaqlarından uğurla keçib. Hazırkı tərəfdaşlıq formatı qlobal güc rəqabətində tərəflərin qarşılıqlı şəkildə mövqelərini möhkəmləndirməyə xidmət edir. Pekinin Minskə verdiyi siyasi dəstək, Belarusun daxili və xarici siyasətində suverenliyini qorumaq baxımından həlledici amil rolunu oynayır.

Belarus prezidentinin Asiya turnesinin Çindən başlaması Şərq vektorunun rəsmi Minsk üçün prioritet xarakter daşıdığını təsdiqləyir. Aleksandr Lukaşenkonun bu diplomatik gedişi yalnız ikitərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədi daşımır, həm də qlobal müstəvidə yeni tərəfdaşlıq şəbəkəsinin qurulmasına hədəflənir. Çinin təklif etdiyi beynəlxalq təşəbbüslər və təhlükəsizlik konsepsiyaları Belarus tərəfindən tam dəstəklənir. Sözügedən çərçivədə rəsmi Minskin Şanxay Əməkdaşlıq Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi və BRICS platforması ilə tərəfdaşlıq əlaqələrini dərinləşdirməsi siyasi reorientasiyanın institusional əsaslarını formalaşdırır. Qeyd edilən proseslər Belarusun Avropa qitəsindəki təcrid olunma təhlükəsini aradan qaldırır və dövlətin beynəlxalq arenada manevr imkanlarını genişləndirir.

Belarus liderinin Pekinə səfəri Valdayda Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi intensiv məsləhətləşmələrdən dərhal sonra reallaşıb. Həmin ardıcıllıq Moskva və Minskin xarici siyasət addımlarını sıx şəkildə əlaqələndirdiyini nümayiş etdirir. Rusiya ilə müttəfiqlik münasibətlərini qoruyan Belarus, eyni zamanda, Çin kimi qlobal fövqəldövlətlə bilavasitə strateji xətt quraraq tarazlıq yaratmağa çalışır. Çin rəhbərliyi isə Şərqi Avropadakı müttəfiqinin suverenliyini və müstəqilliyini dəstəkləyərək, regionda Qərbin birtərəfli təsir imkanlarını məhdudlaşdırmağı hədəfləyir.

* * *

Çin diplomatiyasında “hər cür hava şəraitində hərtərəfli strateji tərəfdaşlıq” statusu müstəsna əhəmiyyət kəsb edir. Pekin dövlətlərlə münasibətləri kateqoriyalara ayırarkən həmin ifadəni yalnız xüsusi etimada malik, qlobal fırtınalarda sadiqliyini sübut edən ölkələrə şamil edir. Belarusun həmin statusa layiq görülməsi Çinin regionda uzunmüddətli geosiyasi hesablamalarından xəbər verir. Si Cinpinin qeyd etdiyi kimi, Belarus–Çin əməkdaşlığı zamanla ayaqlaşır, daim inkişaf edir və beynəlxalq dəyişikliklərdən asılı olmayaraq möhkəmlənir. Sözügedən yanaşma Çinin Avrasiya siyasətində Şərqi Avropa qapısı rolunu oynayan Belarusun strateji mövqeyini yüksək qiymətləndirdiyini nümayiş etdirir.




Tarixi nöqteyi-nəzərdən rəsmi Minsk uzun illər həm Şərq, həm də Qərb arasında tarazlıq saxlamağa yönələn vektorlu siyasət yürütməyə çalışırdı. Lakin son illər baş verən qlobal qarşıdurma və Qərb dövlətləri ilə münasibətlərin qırılması Belarus dövlətini xarici siyasətində seçim etmək məqamı ilə üz-üzə qoydu. Belə çətin geosiyasi mühitdə Asiyaya yönəlmək, sadəcə, iqtisadi tərəfdaşlıq axtarışı sayılmır, qeyd edilən strateji gediş dövlətin siyasi gələcəyini təminat altına almaq məqsədi daşıyır. Aleksandr Lukaşenkonun Çinə budəfəki səfəri ölkənin beynəlxalq təcrid cəhdlərini sındırmaq və Avrasiyanın formalaşmaqda olan yeni təhlükəsizlik arxitekturasında layiqli yer tutmaq niyyətini ortaya qoyur.

Çinin təşəbbüsü ilə həyata keçirilən “Bir kəmər, bir yol” layihəsində Belarus mühüm tranzit və logistika mərkəzi hesab olunur. Lakin hazırda məsələnin siyasi tərəfi daha qabarıq görünür. Belarusun Şanxay Əməkdaşlıq Təşkilatının tamhüquqlu üzvünə çevrilməsi, Pekinlə Minsk arasında təhlükəsizlik sahəsindəki koordinasiyanı yüksək səviyyəyə çatdırıb. Pekin tərəfindən idarə olunan regional platformalar Belarusa Qərbin təzyiqlərinə qarşı kollektiv müdafiə strukturu qazanmaq imkanı verir. ŞƏT çərçivəsində fəaliyyət Minskin qeyri-Qərb dünyası ilə siyasi əlaqələrini institusionallaşdırır və dövlətin suveren hüquqlarının beynəlxalq müstəvidə qorunmasına əlavə təminatlar qazandırır.

Şərqi Avropada formalaşan Çin-Belarus ittifaqı, təbii ki, Qərb gücləri, xüsusən Şimali Atlantika Alyansı tərəfindən ciddi narahatlıqla qarşılanır. Belarusun NATO-nun şərq sərhədində yerləşməsi və eyni zamanda, nüvə potensialına malik Rusiya ilə vahid ittifaq dövləti təşkil etməsi geosiyasi gərginliyi artıran başlıca amillərdəndir. Belə şəraitdə rəsmi Minskin Çin ilə hərbi-siyasi əlaqələrini dərinləşdirməsi alyansın şərq cinahında güc balansının dəyişməsi kimi qiymətləndirilir. Bu vəziyyət NATO-nun strateji planlarında Belarus amilinə daha çox diqqət yetirməsini zəruri edir. Çin rəhbərliyinin isə hegemonluq və hədə-qorxu siyasətinə qarşı Belarus ilə çiyin-çiyinə dayanacağını bəyan etməsi Şərqi Avropadakı qarşıdurmanın artıq qlobal xarakter aldığını göstərir.

Çin və Belarus rəhbərlərinin görüşündə səslənən “çoxşaxəli və zamanla ayaqlaşan əməkdaşlıq” bəyanatı hər iki dövlətin qlobal idarəçilikdə fərqli baxış bucağına sahib olduğunu təsdiqləyir. Pekin və Minsk mövcud qlobal institutların fəaliyyətində islahatların aparılmasını, inkişaf etməkdə olan ölkələrin səs hüququnun artırılmasını vacib sayır. Həmin yanaşma, Qərb mərkəzli beynəlxalq sistemin alternativi kimi çıxış edən yeni nizamın konturlarını cızır. Si Cinpin rəsmi Minskin müstəqil inkişaf yolunu və daxili işlərinə xarici müdaxilələrin qarşısının alınmasını dəstəklədiyini ifadə edib. Bu dəstək Belarusun daxili siyasi sabitliyini təmin etmək və suveren dövlət institutlarını qorumaq üçün böyük əhəmiyyətə malikdir. Müttəfiqlərin qlobal müstəvidə sıx təmasda olması, onların beynəlxalq təşəbbüslərində və beynəlxalq təşəbbüs platformalarında qarşılıqlı dəstək nümayiş etdirməsinə imkan yaradır.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Pekinə səfəri və Çin Sədri Si Cinpin ilə apardığı müzakirələr Avrasiyanın geosiyasi xəritəsində formalaşan yeni reallıqların növbəti təsdiqidir. Münasibətlərin tarixi zirvəyə çatması rəsmi Minskin xarici siyasətində Şərq və Asiya istiqamətinin prioritet olduğunun əlamətidir. Qərb sanksiyalarının və təcrid siyasətinin yaratdığı çətinliklər Belarusu Çin kimi nəhəng güclə uzunmüddətli strateji tərəfdaşlığı dərinləşdirməyə sövq edib. Hazırkı əməkdaşlıq təkcə iki ölkənin regional maraqlarına xidmət etmir, həm də qlobal miqyasda çoxqütblü beynəlxalq nizamın formalaşmasına töhfə verən amillərdən biridir. Eyni zamanda, Prezident Lukaşenko Pekində keçirdiyi görüşlər zamanı Belarusun müharibə tərəfdarı olmadığını, ölkəsinin dialoq, sabitlik və sülh yolu ilə inkişafın tərəfdarı olduğunu vurğulayaraq bildirib ki, Minsk bütün mübahisələrin danışıqlar və qarşılıqlı hörmət əsasında həll edilməsinin tərəfdarıdır. Bu yanaşma Belarusun regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi məqsədinə xidmət etdiyini göstərir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Beynəlxalq həyat*

# Vaşinqton–Tehran: razılaşma həm var, həm də yoxdur

**ABŞ və İran nümayəndələri Dohada Hörmüz boğazı ilə bağlı mübahisələri həll etmək üçün iyunun 30-dan etibarən hərbi əməliyyatları qarşılıqlı dayandırmaq və məsləhətləşmələr aparmaq barədə razılığa gəliblər. Bu barədə “Axios”un jurnalisti Barak Ravid özəl mənbələrinə istinadən məlumat yayıb.**

Məlumatda qeyd olunur ki, yüksək rütbəli ABŞ rəsmisinin sözlərinə görə, Vaşinqton və Tehran bir-birinə zərbələr endirməmək barədə razılığa gəliblər. Çünki hər iki tərəf Hörmüz boğazı ilə bağlı fikir ayrılıqlarını həll etməkdən ötrü çərşənbə axşamı Qətərin paytaxtında görüşməyi planlaşdırırlar.

“Axios”un mənbələrindən biri bildirib ki, tərəflər əvvəlcə çərşənbə axşamı İsveçrədə İran İslam Respublikasının nüvə proqramı üzrə gələcək fəaliyyətini müzakirə etmək üçün məsləhətləşmələr keçirməyi planlaşdırırdılar. Amma son günlər baş verən gərginliyə görə ABŞ və İran danışıqların yerini və əsas mövzusunu dəyişmək qərarına gəliblər. Ağ Evdəki mənbə onu da əlavə edib ki, məsləhətləşmələrdə ABŞ-ın texniki qrupunun rəhbəri Nik Stüart iştirak edəcək.

### Əvvəl imtina, sonra razılaşma

Yeri gəlmişkən, bazar günü səhər saatlarında İran ölkəyə qarşı son hücumları və



ABŞ-la “anlaşma memorandumunun yerinə yetirilməmiş şərtlərini” əsas gətirərək, həmin günə planlaşdırılan texniki danışıqlarda iştirakdan imtina etdiyini açıqlamışdı.

İran və Oman rəsmiləri Hörmüz boğazı üzrə birgə komitəsinin ilk iclasını Maskatda keçirərək, boğazın gələcək idarə olunması məsələsini müzakirə ediblər. Bu barədə bazar ertəsi İran xarici işlər nazirinin müavini Kazem Qəribabadi bildirib. O qeyd edib ki, səfər zamanı Omanın xarici işlər üzrə dövlət naziri Əbdüləziz Əl Hinai ilə görüşüb və boğazla bağlı cari məsələləri müzakirə edib. Qəribabadi bəyan edib ki, tərəflər Tehran və Vaşinqton arasında anlaşma memorandumunun 5-ci bəndinə uyğun olaraq boğazın gələcək idarə olunması ilə bağlı fikir mübadiləsi aparıblar.

### Ərdoğan çağırış etdi

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna münaqişəsi ilə bağlı tərəflərə çağırış edib. “Yaxın vaxtlarda Ukrayna münaqişəsinin həlli prosesində konkret nəticələrə nail olmaq olduqca vacibdir”. “Anadolu” agentliyi xəbər verir ki, bu sözlər Türkiyə liderinin çağırışında yer alıb.

“Xüsusilə vurğulamaq istərdim ki, qarşıdakı dövrdə biz Rusiya–Ukrayna müharibəsinin dialoq yolu ilə həllində nəticələr əldə etməliyik”, – deyə Türkiyə lideri bildirib. R.T.Ərdoğan, həmçinin bəyan edib ki, Türkiyə münaqişənin hər iki tərəfi ilə dialoqu davam etdirdiyi və onların etimadını qazandığı üçün Ukraynada münaqişənin sülh yolu ilə nizamlanmasına fəal kömək etməkdə davam edəcək.

Bu arada Türkiyənin xarici işlər naziri Hakan Fidan Avropa İttifaqının nümayəndələri ilə Ukrayna münaqişəsi, Cənubi Qafqaz, Yaxın Şərq və regional məsələlər üzrə əməkdaşlığı müzakirə edəcək. Türkiyə Xarici İşlər Nazirliyindəki mənbənin verdiyi məlumata görə, adıçəkilən mövzuları müzakirə etmək üçün bu gün Aİ-nin xarici siyasət üzrə ali nümayəndəsi Kaya Kallas, genişlənmə üzrə Avropa komissarı Marta Kos və Avropa komissarı Maqnus Brunner Ankaraya gələcəklər.

***XQ***

# Azərbaycançılığın prinsipləri: fəlsəfi təhlil



## III MƏQALƏ

### Tarixi gerçək və ədəbi cərəyanlar

Elmi təfəkkürün dövrləşdirilməsində tarixi reallıqlarla ideyanın konseptuallaşması arasındakı bağlantılar prinsipial rol oynamalıdır. Təklif olunan nümunədə həmin bağlantıların ana xəttini azərbaycançılığın təşkil etməsi ideyası mövcuddur. Yəni təfəkkürün dövrləşdirilməsində istiqamətverici, məzmunlaşdırıcı, məqsədyönlülüyü təminedici və konseptual hüdudları müəyyənedici rolu azərbaycançılıq oynamalıdır.

Əlbəttə, elmi əsaslandırma baxımından asan mövzu deyildir. Lakin bu elə bir nəzəri-konseptual modeldir ki, onun prizmasında tarixi mərhələlərdə elmi və bədii təfəkkürün təkamül dinamikasını sistemləşdirmək mümkündür. Həm də bu prosesdə bütün koqnitiv, metodoloji, dünyagörüşü "əməliyyatlar" azərbaycançılıq fonunda qiymətləndirilməlidir.

Bu cür yanaşmanın faydası nədən ibarətdir? Əsas fayda elmi, fəlsəfi, bədii, tarixi, kulturoloji təfəkkürün çox müxtəlif faktorlarının azərbaycançılığın işığında dərk edilməsinin təminidir. Burada başlıca metodoloji xüsusiyyət bütövlükdə təfəkkürü xarakterizə edən çoxsaylı parametrlər sahəsindən azərbaycançılığa aid olan faktorlara istinad etməkdən ibarətdir. Bu anlamda söhbət mütləq həqiqətdən deyil, mövcud alternativlər çeşidindən birinə üstünlük verməkdən ibarətdir. Təbii ki, burada müəyyən məhdudlaşdırma məqamı, konkret istiqamətə yönəltmə məntiqi və məqsədi vardır.

Lakin bu, ümumiyyətlə, insan təfəkkürü üçün xarakterikdir – elə bir idraki mövqe yoxdur ki, mütləq universallığı təmin etsin. Təfəkkür hər bir situasiyada fəlsəfi-elmi xarakteristikasına görə seçimə əsaslanır və bu mənada diskurs əmələ gətirir.

Belə alınır ki, azərbaycançılığa üstünlük vermək konkret koqnitiv, sosial, ideoloji və kulturoloji hədəfləri seçmək deməkdir. Bu hədəflər müstəqil dövlətin strateji inkişafına maksimum dərəcədə elmi töhfə vermək, cəmiyyətin tamlığı və bütövlüyü üçün yararlı olan ideyaları konseptuallaşdırmaq və bunun işığında bütövlükdə humanitar elmi təfəkkürü Azərbaycan üçün motivə etmək məqamları ilə sıx bağlıdır. Bu, stratejidə azərbaycanlı şüuru və humanitar təfəkkürünü dövlətçiliyə, milliliyə, davamlı inkişafın mədəni, mənəvi-əxlaqi aspektlərinə bağlamağa nail olmağa dəvətdir.

Bütün bunlara görə, təfəkkürün dövrləşdirilməsinə hər bir tarixi mərhələnin şərtlərindən meydana gələn ədəbi cərəyanların xüsusiyyətləri prizmasında nəzər salmaq ciddi əhəmiyyət kəsb edir. Aydındır ki, bu cür yanaşma çərçivəsində həmin xüsusiyyətlərin filoloji təhlili bədii təfəkkürü azərbaycançılıq kontekstində dərk etməyə faydalıdır. Eyni məntiqlə azərbaycançılıq kontekstində humanitar təfəkkürün bütün növlərinə fəlsəfi yanaşma əhəmiyyətlidir.

Çünki bu üsulla elmi təfəkkürün bütün formalarının qarşılıqlı əlaqəsində problemin fəlsəfi təhlilinə baş vurmağın mənası vardır. Bu istiqamətdə təhlili davam etdirmək daha ümumi, mücərrəd və terminoloji baxımdan qəliz məqamlara baş vurmağı tələb edir. Həmin aspektə burada toxunmayaq. Əvəzində, azərbaycançılıq prizmasında bədii təfəkkürün dövrləşdirilməsində əsas yeri tutan bir elmi təsnifat üzərində qısa dayanaq.

### Milli bədii təfəkkürün 10 inkişaf mərhələsi

Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələlərinin bir neçə maraqlı və əhəmiyyətli təsnifi nümunəsi mövcuddur. Onların sırasında bu mövzuya aid öncəki məqalədə vurğuladığımız dörd konseptual prinsip əsasında müəyyən edilmiş 10 inkişaf mərhələsini ehtiva edən təsnif nümunəsi də vardır. Həmin təsnif aşağıdakı tarixi mərhələləri ehtiva edir:

"1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər).

2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər).

3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər).

4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər).

5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər).

6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr).

7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək).

8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər).

9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər).

10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən)". (İ.Həbibbəyli, Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019, s.104).

Bu 10 mərhələnin hər birində azərbaycançılığın ifadəsi (qeyd olunan dörd konseptual prinsip fonunda) fəlsəfi baxımdan ayrıca araşdırılmalıdır. Çünki həmin təsnif üzrə hər bir mərhələdə azərbaycançılığın fəlsəfi məzmunu müəyyən edilsə, bir tərəfdən, bütövlükdə Azərbaycan humanitar təfəkküründə həmin aspektdə ümumiləşdirmələr aparmaq şansı yaranar, digər tərəfdən bu əsasda azərbaycançılığı konseptual prinsip kimi müasir mərhələdə azərbaycanşünaslığın inkişafında ölkənin strateji inkişaf kursu kontekstində nəzərə almaq imkanı genişlənər.

Vurğuladığımız bağlılıqda azərbaycançılığın I prinsipinin fəlsəfi anlamları üzərində dayanaq.

### Milli birlik ideyaları

Bu prinsip ideya baxımından çox maraqlı məqamları özündə ehtiva edir. Bütövlükdə, ayrı-ayrılıqda "ərazi bütövlüyü", "vahid Vətən", "vətəndaş həmrəyliyi" və "milli birlik" ideyalar kimi müxtəlif kontekstlərdə təhlil edilmişdir. Onların ideya kimi ümumi semantik anlamları da məlumdur. Ancaq məsələ azərbaycanşünaslıq çərçivəsində azərbaycançılıq prinsipinin tərkib hissələri kimi qarşılıqlı münasibətlərdə olan anlayışlar qrupu kimi təqdim olunursa, situasiya xeyli dəyişir. Burada həm azərbaycançılığın prinsip kimi fəlsəfi anlamında "ərazi bütövlüyü", "vahid Vətən", "vətəndaş həmrəyliyi" və "milli birlik" ideyalarının semantik özəllikləri, həm də həmin kontekstdə funksional keyfiyyətləri ön plana çıxır.

### Ərazi bütövlüyü

Nümunəyə baxaq. "Azərbaycançılığın I prinsipinin elementi kimi "ərazi bütövlüyü"nün fəlsəfi izahı necə ola bilər?" sualına cavab axtarmaq gərəkdir. Ərazi bütövlüyü coğrafi faktordur. Ancaq dövlətçilik, müstəqillik, ölkənin siyasi-coğrafi hüdudları kontekstlərində dərin ideya anlamı alır. Hazırda geosiyasi nəzəriyyəçilər, politoloqlar, filosoflar, tarixşünaslar ölkənin ərazi bütövlüyünün nəzəri obrazını tədqiq edirlər. Belə məlum olur ki, müasir mərhələdə hər bir ölkə üçün milli dövlətin kimliyində, onun real müstəqil olmasında əsas parametrlərdən biri kimi ərazinin bütövlüyünü götürürlər. Yəni ərazi bütövlüyü məsələsi müasir mərhələdə real müstəqil dövlətçiliyi müəyyən edən başlıca kriteriyalardan biri olaraq qəbul edilir. Onun fonunda suverenliyin hüquqi, siyasi və mənəvi hüdudları mənalandırılır.

Deməli, hər bir müstəqil dövlət üçün ərazi bütövlüyünün təmininə geosiyasi, siyasi, fəlsəfi və coğrafi anlamların ortaq semantik sahəsini yaratmağa yönəldən motivəedici prinsip olmalıdır. Məhz bu funksiyanı azərbaycançılığın prinsip (ideya və konsept) kimi yerinə yetirməsi tamamilə təbiidir. Azərbaycanda artıq bu məqamın praktiki ideya və ideoloji təcrübəsi də mövcuddur. Həmin təcrübə "milli ideya" anlayışının konkret məzmunu əsasında toplanmışdır. Biz nəyi nəzərdə tuturuq?

Ulu öndər Heydər Əliyev keçən əsrin 90-cı illərində Azərbaycanın müstəqil dövlət və azad cəmiyyət kimi milli ideyasını yığcam şəkildə belə müəyyən etmişdir: ərazi bütövlüyünün bərpası! Bu, tarixi baxımdan dövlətçilik ənənəsinin ruhuna tam uyğun, müstəqillik kontekstində meydana gəlmiş zərurət, cəmiyyətin özünütəsdiqi aspektində isə əsas motivəedici ideya tapıntısı idi.

Bu məzmunda ərazi bütövlüyünün milli ideya kimi məzmunlaşdırılması və həyata keçməsi avtomatik olaraq cəmiyyətin azərbaycançılıq əsasında birliyinə gətirib çıxarmalı idi. Tarix bunun doğruluğunu sübut etdi! Azərbaycan dövləti, ölkəsi, xalqı, ordusu, vətəndaşları 44 günə dünyaya azərbaycançı və düzgün müəyyən edilmiş ideya motivasiyası sayəsində ərazi bütövlüyününü və suverenliyi təmin etməyə qadir olduqlarını göstərdilər.

Bununla müasir Avrasiya tarixində ilk dəfə olaraq bir müstəqil dövlətin identikliyində ərazi bütövlüyünün milli ideya vasitəsilə sosial-mənəvi, ideoloji və mədəni birliyə transformasiyası baş verdi. Fərdlər və kollektiv səviyyədə cəmiyyət ərazi tamlığını bütövlükdə cəmiyyətin tamlığının əsası kimi qəbul etdilər.

Bu prosesin fəlsəfi dərki Azərbaycan cəmiyyətinin siyasi-coğrafi anlamda ərazi bütövlüyünü azərbaycançılıq kontekstində sosial birliyə uğurla proyeksiya edə bilməsi ilə sıx bağlıdır. Çünki ərazinin siyasi-coğrafi bütövlüyünün fəlsəfi obrazının yaradılmasında aparıcı ideya, prinsip və konsept olaraq azərbaycançılıq çıxış etdi. Toplum ərazi bütövlüyünün siyasi və coğrafi obrazını Azərbaycanın birliyini təminetmə fonunda qəbul etmişdir.

Buradan azərbaycançılığın I prinsipinin elementi kimi "vahid Vətən" anlayışının fəlsəfi dərkinə keçə bilərik.

### Vahid Vətən

Türk dövlətçilik ənənəsində özlüyündə coğrafi ərazi (torpaq) Vətən deyildir. Türklərin taleyi elə gətirmişdir ki, malik olduqları ideyaların feili həyata keçməsi ilə onun yaddaşa daxil olması sosial həyat tərzlərinin ana xəttini təşkil etmişdir. Yəni türk ideyasını o zaman əbədi özününkü (burada "əbədi" anlayışı təsadüfən işlədilmir, çünki türk qövmünün tarixən özünəxas Zaman anlamı olmuşdur və bu aspektdə tədqiqatlarlmız vardır–F.Q.) hesab etmişdir ki, onu praktiki həyat tərzində yaşamışdır. Yaşadığı torpağa (coğrafi əraziyə) də eyni məntiqlə münasibəti olmuşdur. Türk həmin ərazi uğrunda canını verə bildikdə, o torpaq qanı ilə yoğrulduqda ideala çevrilir. Həmin ideal böyük anlamda "Vətən"dir! Türklər bu dəyəri "torpaq uğrunda şəhid olan varsa, Vətəndir!" kimi ifadə etmişlər.

Söhbət Azərbaycanın Vətən kimi qəbul edilməsindən gedirsə, hər bir fərd azərbaycançı olmalıdır, yəni Azərbaycan uğrunda hətta şəhidliyə hazır olmalıdır. Bu o deməkdir ki, "vahid Vətən" anlamının ideya qaynağı və onun fəlsəfi obrazının yaradılmasının başlıca prinsipi azərbaycançılıqdır.

Əslində, fəlsəfi baxımdan "vahid Vətən" anlamı azərbaycançılığın etnik mənsubluq deyil, kimliyindən asılı olmayaraq vətəndaşın vətənsevərliyindən qaynaqlandığını ifadə edir. Bu mənada, kimlərinsə türklüklə azərbaycanlılığı qarşı-qarşıya qoymağa cəhd etməsi əsası olmayan boş işdir.

Azərbaycan bütövlükdə türk dövlətidir (bu, tarixi gerçəkliyin əbədi aksiomudur) və onun hər bir vətəndaşı üçün vahid Vətəndir! Türklük burada müəyyən etnik çoxluğun (dövlətqurucu qövmün) imtiyaza malik olmasını deyil, bütün cəmiyyət, ölkə və dövlət qarşısında birləşdirici rol oynamaq məsuliyyətini daşıdığını ifadə edir.

Türklük sosial, siyasi və ideoloji anlamda cəmiyyəti birləşməyə, Vətənin vahid olduğunu dərk etməyə motivə edən ideyadır. Bu mənada, türklük tələb edir ki, hər bir Azərbaycan vətəndaşı azərbaycançı olsun. Əsl türk azərbaycançı olandır. Ancaq azərbaycançı olmaq etnik baxımdan mütləq türk olmağı tələb etmir. Azərbaycançı üçün vahid Vətən anlamı öncəlik təşkil edir!

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**İyunun 26-dan etibarən Ermənistan Konstitusiya Məhkəməsində iyunun 7-də keçirilmiş parlament seçkilərinin nəticələri ilə bağlı işə baxılmasına başlanılıb. Seçkilərin nəticələrinə 7 siyasi qüvvə etiraz edir. Məhkəməyə təqdim olunan ərizələrin məzmununda müəyyən fərqlər olsa da, KM onları bir icraatda birləşdirərək baxılması barədə qərar qəbul edib.**

# İrəvanda "seçki düyünü"

## *Konstitusiya Məhkəməsində 7 siyasi qüvvənin iddiası üzrə hüquqi proses başlayıb*

Məhkəmə prosesi şifahi icraat qaydasında keçirilir. İş üzrə üçüncü tərəf qismində hakim "Mülki müqavilə" partiyası, cavabdeh qismində isə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Korrupsiyaya qarşı Mübarizə Komitəsi iştirak edir. Qüvvədə olan qanunvericiliyə əsasən, KM ərizə daxil olduqdan sonra ən geci 15 gün ərzində işə baxmalı və qərar qəbul etməlidir. Bu isə o deməkdir ki, məhkəmə hökmünü iyulun 4-dək elan etməlidir.

### Siyasi qüvvələrin tələbləri

Müxalif qüvvələr KM-in "müstəqillik, neytrallıq və qərəzsizlik baxımından ciddi çatışmazlıqlar yaşadığını" iddia etsələr də, işin nəticəsi ilə bağlı əvvəlcədən proqnoz verməyə tələsmirlər. Qeyd etdiyimiz kimi məhkəməyə 7 siyasi qüvvə etiraz edir. Bunlar "Güclü Ermənistan" bloku, "Birlik qanadları" partiyası, "Demokratiya. Qanun. İntizam" partiyası, "Çiçəklənən Ermənistan" partiyası, "Respublika naminə – demokratiyanın müdafiəçiləri ittifaqı" partiyası, "Ermənistan" bloku və "Yeni güc" partiyasıdır. Bu siyasi qüvvələrdən yalnız ikisi parlamentə düşə bilib – "Güclü Ermənistan" və "Ermənistan"



blokları. "Güclü Ermənistan" bloku seçkilərin nəticələrinin etibarsız sayılmasını və ikinci turun keçirilməsini tələb edir. "Ermənistan" bloku isə yalnız seçkilərin nəticələrinin etibarsız hesab olunmasını istəyir. "Respublika naminə" partiyasının rəhbəri Arman Babacanyan bildirib ki, onların müraciətinin digər ərizələrlə heç bir əlaqəsi yoxdur. Onun sözlərinə görə, müraciətin əsas mahiyyətində belə bir sual dayanır: əgər dövlət orqanları özləri seçkilər zamanı təşkil olunmuş, kütləvi, təkrar xarakter daşıyan və bir-biri ilə əlaqəli cinayət faktlarını qeydə alıblarsa, bu halda dövlət seçkilərin nəticələrinin xalqın azad iradəsini ifadə etdiyini əminliklə iddia edə bilərmi? Babacanyan bunu deyərkən Korrupsiyaya qarşı Mübarizə Komitəsinin bəzi müxalif siyasi qüvvələrin seçicilərə rüşvət verməsi ilə bağlı ifşa etdiyi faktları nəzərdə tutur: "Biz Konstitusiya Məhkəməsindən cinayət məhkəmələrinin funksiyasını yerinə yetirməsini istəmirik. Hər hansı konkret şəxsin hansı cinayəti törətdiyini müəyyən etməsini də tələb etmirik. Bu, cinayət mühakiməsinin səlahiyyətinə daxildir. Biz Konstitusiya Məhkəməsindən yalnız onun edə biləcəyi işi – seçkilərin Konstitusiyaya uyğunluğunu qiymətləndirməsini xahiş edirik".

### Hansı qərar qəbul edilə bilər?

Qüvvədə olan qanunvericiliyə əsasən, KM aşağıdakı qərarlardan birini qəbul edə bilər:

1. Seçkilərin nəticələri ilə bağlı qəbul edilmiş qərarı qüvvədə saxlamaq;

2. Seçkilərin nəticələri ilə bağlı qəbul edilmiş qərarı etibarsız saymaq və: a) seçkilərin nəticələrini etibarsız elan etmək; b) seçkilərin nəticələrini etibarsız elan etməklə mandatların bölüşdürülməsi qaydasını müəyyənləşdirmək; c) seçkilərin ikinci turunun keçirilməsinə qərar vermək.

İşə baxılmasının nəticələrinə əsasən, KM Konstitusiyada təsbit olunmuş seçki hüquqlarının pozulduğunu müəyyən edərsə, seçkilərin nəticələrini etibarsız saya bilər.

Konstitusiyanın 7-ci maddəsinə əsasən Milli Assambleyaya və icmaların ağsaqqallar şuralarına seçkilər, eləcə də referendumlar ümumi, bərabər, azad və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə keçirilir. Ermənistanın Seçki Məcəlləsinə görə, eyni siyasi partiyaların iştirakı ilə təkrar səsvermə seçkilərin etibarsız sayılması barədə qərar qüvvəyə mindikdən sonra ən tez 15, ən gec isə 30 gün ərzində keçirilə bilər. Məcəllənin 101-ci maddəsinə əsasən, təkrar səsvermənin nəticələri də etibarsız hesab edilərsə, növbədənkənar yeni seçkilər keçirilməlidir. Bu seçkilər müvafiq qərarın qüvvəyə minməsindən sonra ən geci 70 gün ərzində təşkil olunmalıdır.

**"Restart" Elm-Təhsil Fondunun icraçı direktoru Yuri Avakyanın** sözlərinə görə, seçkilərdən sonrakı dövr son dərəcə passiv keçir. O hesab edir ki, əgər seçkilərin nəticələri ilə ciddi şəkildə razılaşmamaq olsaydı, kütləvi etiraz aksiyaları və sərt siyasi bəyanatlar səslənərdi. Avakyanın fikrincə, belə bir ssenari mövcud deyil, çünki parlamentə düşən hər iki müxalif qüvvə – "Güclü Ermənistan" və "Ermənistan" blokları sonda seçkilərin nəticələrini qəbul edəcək və mandatlarını götürəcəklər.

Avakyan "JAM News"a bildirib ki, iyunun 7-dən sonra ölkədə siyasi böhran görmür. Onun sözlərinə görə, seçkilərin nəticələri cəmiyyət üçün gözlənilən idi. Bununla yanaşı, o, müəyyən legitimlik böhranının mövcud olduğunu düşünür və bunu 2 amillə izah edir: 1) Korrupsiyaya qarşı Mübarizə Komitəsinin aşkar etdiyi seçicilərin rüşvətlə ələ alınması faktları; 2) Mərkəzi Seçki Komissiyasının 2005 seçki məntəqəsindən üçündə təkrar səsvermə təyin etməməsi səbəbindən həmin məntəqələrdə verilmiş səslərin nəzərə alınmaması. Ekspert deyib: "Belə bir diskurs mövcuddur, o cümlədən demokratik baxımdan: bəli, "Mülki müqavilə" çoxluğu əldə edib, amma bu 3/5 çoxluq legitimdirmi? Digər tərəfdən, əgər hətta bir mandat belə seçici rüşvəti hesabına əldə olunubsa, bu da legitimlik böhranı yaradır".

Qeyd edək ki, MSK 3 seçki məntəqəsində seçkilərin nəticələrini etibarsız hesab etsə də, təkrar səsvermə keçirməyib. Qurum bunu taktiki səsvermə riskinin yaranması ilə əsaslandırıb. MSK bildirib ki, bu halda seçicilərin iradəsi artıq onların ilkin siyasi seçimlərinə və azad iradəsinə deyil, əvvəlcədən məlum olan nəticələri dəyişmək hesabına formalaşa bilər. Buna görə də komissiya hesab edib ki, təkrar səsvermə seçkilərin ədalətli nəticəsini təmin etməyəcək. Müxalif "Çiçəklənən Ermənistan" partiyası isə bəyan edib ki, həmin 3 seçki məntəqəsində qazandığı 200-dən çox səs parlamentə düşməsi üçün kifayət edərdi. Bundan əlavə, bu halda hakim "Mülki müqavilə" partiyası parlamentdə 3/5 çoxluğunu itirmiş olardı.

Y.Avakyan hesab edir ki, KM-in qərarından asılı olmayaraq, həm ölkənin daxili siyasi həyatında, həm də xarici əlaqələrində problemlər gözlənilir. Onun fikrincə, parlamentdə iki qarşılıqlı ittiham xətti formalaşacaq: "Hakimiyyət müxalifəti "seçkiqabağı rüşvət paylayaraq parlamentə düşən qüvvələr" adlandıracaq. Müxalifət isə hakimiyyəti bütün prob-



lemlərdə təqsirləndirəcək və onun nümayəndələrini "Artsaxı təslim edənlər" kimi təqdim edəcək. Nəticədə, ölkə qarşısında duran əsas çağırışlar parlamentin gündəliyində özünə yer tapmayacaq". Onun sözlərinə görə, MSK-nın 3 seçki məntəqəsində təkrar səsvermə keçirməməsi Ermənistanın Qərblə münasibətlərində də problemlər yarada bilər: "Bu sırf demokratik məsələ Ermənistana qarşı təzyiq vasitəsi kimi istifadə oluna bilər. Güman edirəm ki, bu məsələ həm Ermənistan daxilindəki rusiyapərəst dairələr, həm də Şərqi Avropada fəaliyyət göstərən Rusiya təsir şəbəkələri tərəfindən ölkəyə qarşı istifadə oluna bilər". O, misal kimi Ermənistanla Avropa İttifaqı arasında viza liberallaşdırılması üzrə dialoqu göstərib: "Aİ-yə üzv dövlətlərin səsverməsi zamanı Ermənistanı sevməyən bəzi ölkələrin bu 3 seçki məntəqəsi ilə bağlı vəziyyətdən istifadə edərək hökumət üçün süni maneələr yaratmaları mümkündür. Başqa sözlə, Aİ ilə yaxınlaşma planlarımızı pozmağa çalışa bilərlər".

"Restart" fondunun rəhbəri hesab edir ki, legitimlik böhranını aradan qaldırmaq üçün əvvəlcə seçici rüşvəti ilə bağlı işlər üzrə məhkəmə qərarları qəbul edilməli, daha sonra isə yeni seçkilər keçirilməlidir: "Yeni seçkiləri mütləq iki aydan sonra keçirmək lazım deyil. Onlar altı aydan, hətta bir ildən sonra da keçirilə bilər – məhkəmələrin qərar qəbul etməsi üçün nə qədər vaxt lazımdırsa...".

Y.Avakyanın sözlərinə görə, araşdırmaların həm operativ, həm də səmərəli aparılması üçün məhkəmələr vətəndaş cəmiyyətinin və beynəlxalq ictimaiyyətin dəstəyindən istifadə edə bilər. O, həmçinin Avropa İttifaqına müraciət edilməsini təklif edir və hesab edir ki, Aİ Ermənistanın müvafiq qurumları ilə öz "alətlər toplusunu" bölüşə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# TANAP – Azərbaycandan Türkiyəyə “mavi axın”

*İndiyədək bu kəmərlə qardaş ölkəyə 40 milyard kubmetr qaz ixrac olunub*

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağından çıxarılan təbii qazın Trans-Anadolu qaz boru kəməri (TANAP) ilə Türkiyə ərazisinə nəqlinə başlanmasından 8 il ötür. 2018-ci il iyunun 30-da Gürcüstan sərhədini aşan Azərbaycan qazı Türkiyə ərazisinə daxil olub. Bundan bir qədər əvvəl, həmin ayın 12-də isə Türkiyənin Əskişəhər şəhərində Azərbaycan və Türkiyənin dövlət başçılarının iştirakı ilə boru kəmərinin birinci hissəsinin açılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**




TANAP vasitəsilə kommersiya məqsədli qazın Türkiyəyə nəqlinə başlanılması XXI əsrin ən böyük enerji marşrutlarından sayılan Cənub Qaz Dəhlizinin reallaşdırılması istiqamətində atılan mühüm addım, böyük tarixi hadisə idi. Çünki 2007-ci ildən istismara verilmiş Cənubi Qafqaz boru kəməri məhz TANAP vasitəsilə yoluna davam edərək Azərbaycan qazını Türkiyənin ucqar qərb nöqtələrinə qədər nəqli üçün imkan yaradıb.

Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: “TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, yaxın beş ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək”.

TANAP layihəsi Cənubi Qafqaz boru kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin mərkəzi və əsas hissəsi olan bir layihədir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməridir. TANAP layihəsi Gürcüstan–Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə qoşularaq Türkiyə ərazisindən keçməklə Türkiyə–Yunanıstan sərhədində başa çatır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilir.

Xatırladaq ki, TANAP layihəsi 2011-ci ildə həyata vəsiqə alıb. Növbəti ildə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. Ümumilikdə isə, Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyan, “köhnə qitə”nin enerji xəritəsinin zənginləşdirilməsində mühüm rol oynayan TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, 5 il vaxt sərf olunub. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb.

Ötən müddətdə boru kəməri vasitəsilə, ümumilikdə, 99 milyard kubmetr yaxın qaz nəql edilib ki, bunun da, təxminən, 40 milyard kubmetri Türkiyəyə, qalan hissəsi isə Trans-Adriatik boru kəməri vasitəsilə Avropaya ixrac olunub. Göründüyü kimi, TANAP-ın istismara verilməsi ilə Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb.

Cənub Qaz Dəhlizinin ən uzun hissəsi olan TANAP kəməri Türkiyənin şərqindən qərbinə qədər 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan–Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə–Yunanıstan sərhədinədək olan hissəni əhatə edir. Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Ən yüksək hündürlüyü dəniz səviyyəsindən 2 min 700 metr təşkil edən TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. Kəmər boyunca 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də 4 qaz sərfini ölçmə stansiyası quraşdırılıb.

Trans-Anadolu Qaz Boru Kəməri ilə ilkin mərhələdə ildə 16,2 milyard kubmetr qaz nəql olunub. Bununla belə, sonrakı illərdə kəmərin genişləndirilməsinə zərurət yaranıb. Bu amil nəzərə alınaraq 2023-cü ildə kəmərin illik nəqletmə gücü 23 milyard kubmetrə çatdırılıb. Bununla belə, 2026-cı ildə bu göstəricinin 32 milyard kubmetrə çatdırılması planlaşdırılır.

Genişləndirmə işləri isə qaz tələbatından asılı olaraq mərhələli şəkildə həyata keçirilir. Eyni zamanda, kəmərin nəqletmə gücünün artırılması üçün əlavə kompressor stansiyaları qurqaşdırılır. Bu infrastruktur dəyişikliyi Avropanın enerji təhlükəsizliyini təmin etmək və Azərbaycan qazının həcmini artırmaq məqsədi daşıyır.

Ümumilikdə isə, TANAP layihəsi regionda qarşılıqlı əməkdaşlığın növbəti təzahürüdür. Bu, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin birgə səyi və gücü ilə reallaşdırılan nəhəng enerji layihəsidir. Azərbaycan qazını Türkiyə ərazisi ilə Avropa bazarına çıxaran Trans Anadolu Boru Kəməri hər iki ölkənin iqtisadi gücünün daha da artırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Avropa İttifaqı ölkəmizlə əməkdaşlığa strateji önəm verir

*Qurumun rəhbəri Bakıya niyə gəlir?*

**Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Azərbaycana səfər edəcək. Bu barədə Avropa Komissiyasının sözçüsü Paula Pinyo Brüsseldə keçirdiyi gündəlik mətbuat brifinqində məlumat verib. Bildirilib ki, Ursula Fon der Lyayen iyulun 2-də Ermənistana da səfər edəcək.**

Aİ rəsmisinin sözlərinə görə, səfərlər zamanı Ermənistan və Azərbaycan arasında sülh yolu ilə nizamlanma prosesi, eləcə də hər iki ölkənin Mərkəzi Asiya ilə Avropa arasında mühüm bağlantı dəhlizinə çevrilməsi perspektivləri müzakirə olunacaq. Bu kontekstdə Avropa İttifaqının regionun nəqliyyat infrastrukturuna yatırdığı investisiyalar da gündəmdə olacaq.

Xatırladaq ki, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana son rəsmi səfəri 2022-ci il iyulun 18-də baş tutub. Səfər çərçivəsində Prezident İlham Əliyevlə görüş keçirilib, enerji əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm razılaşmalar əldə olunub. Həmin gün Prezident İlham Əliyevin və Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.



Sənədə əsasən, Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artırılması nəzərdə tutulub. Qeyd edək ki, Cənub Qaz Dəhlizi vasitəsilə son bir il və 2026-cı ilin ilk dörd ayı ərzində Azərbaycan Avropaya 16,7 milyard kubmetr təbii qaz ixrac edib. 2025-ci ildə ölkənin ümumi qaz ixracı 25,2 milyard kubmetrə çatıb ki, bunun da yarıdan çoxu Avropa İttifaqı ölkələrinin payına düşüb. 2026-cı ilin əvvəlindən isə Azərbaycan Aİ-yə üzv olan Almaniya və Avstriyaya da boru kəməri vasitəsilə təbii qaz tədarükünə başlayıb. Bununla da Azərbaycan qazının ixrac edildiyi Aİ ölkələrinin sayı 10-a çatıb.

Məlumdur ki, Azərbaycan təkcə ənənəvi enerji resursları ilə deyil, həm də bərpaolunan enerji sahəsində zəngin potensialı ilə seçilir. Xüsusilə Xəzər dənizinin külək enerjisi ehtiyatları və “yaşıl” hidrogen istehsalı imkanları Avropa İttifaqının diqqət mərkəzindədir. Məhz bu səbəbdən 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu əməkdaşlığı neft və qazla məhdudlaşdırmayaraq bərpaolunan enerji istiqamətini də əhatə edib və bu sahədə uzunmüddətli tərəfdaşlığın əsasını qoyub.

Azərbaycanın strateji hədəfi yaxın illərdə bərpaolunan enerji üzrə ümumi quraşdırılmış gücü 10 giqavata çatdırmaq və istehsal ediləcək elektrik enerjisinin bir hissəsini Avropa bazarına ixrac etməkdir. Bu məqsədlə bp, Masdar və ACWA Power kimi aparıcı beynəlxalq şirkətlərlə iri həcmli investisiya sazişləri imzalanıb, bir sıra külək və günəş elektrik stansiyaları artıq istismara verilib, digərlərinin isə tikintisi davam edir.

Eyni zamanda, Azərbaycanın enerji strategiyasında 2030-cu ilədək elektrik enerjisi istehsalında bərpaolunan mənbələrin payının əhəmiyyətli dərəcədə artırılması əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu siyasət ölkənin enerji təhlükəsizliyini daha da gücləndirməklə yanaşı, Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı statusunu yeni mərhələyə daşıyacaq. Beləliklə, ölkə gələcəkdə Avropa bazarına təkcə neft və təbii qaz deyil, həm də “yaşıl” elektrik enerjisi və perspektivdə “yaşıl” hidrogen ixrac edən mühüm təchizatçılardan birinə çevrilməyi hədəfləyir.

Enerji və nəqliyyat sahələri ilə yanaşı, Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi əlaqələr də dinamik inkişaf edir. Aİ ölkəmizin ən böyük xarici ticarət tərəfdaşı olaraq qalır. 2025-ci ildə tərəflər arasında ticarət dövriyyəsi 19,770 milyard ABŞ dollarına çatıb. Bu dövrdə Azərbaycanın Aİ-yə ixracı təxminən 16,9 milyard dollar, Aİ-dən idxalı isə 2,826 milyard dollar təşkil edib. Azərbaycanın Aİ bazarına ixracında əsas yeri neft və təbii qaz məhsulları tutduğu halda, Avropa İttifaqından ölkəmizə əsasən maşınqayırma məhsulları, nəqliyyat avadanlıqları, kimya və digər yüksək texnologiyalı sənaye məhsulları idxal olunur.

*

Aİ-nin səfərlə bağlı verdiyi bəyanatdan da məlum olur ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi, Avrasiya məkanının əsas geosiyasi və iqtisadi qovşaqlarından birində yerləşməsi, həmçinin Mərkəzi Asiya ilə Avropa arasında etibarlı bağlantı yaratması Avropa İttifaqının ölkəmizə marağını ildən-ilə artırır. Azərbaycanın regional nəqliyyat və logistika mərkəzinə çevrilməsi, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində oynadığı aparıcı rol da bu marağı daha da gücləndirib. Təsadüfi deyil ki, Avropa İttifaqı rəsmiləri dəfələrlə Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrin genişləndirilməsində strateji tərəfdaş olduğunu vurğulayaraq, Brüsselin Bakı ilə əməkdaşlığı daha da dərinləşdirmək niyyətini bəyan ediblər.

Bu baxımdan Azərbaycan Avropa İttifaqının 2021-ci ildə irəli sürdüyü “Qlobal qapılar” (Global Gateway) təşəbbüsünün əsas tərəfdaşlarından biridir. Təxminən 300 milyard avro həcmində investisiyanı nəzərdə tutan bu təşəbbüsün başlıca məqsədi Avropa ilə Asiya arasında təhlükəsiz, dayanıqlı və siyasi risklərdən mümkün qədər uzaq alternativ nəqliyyat marşrutlarının formalaşdırılmasıdır. Aİ sənədlərində vurğulanan fikir bundan ibarətdir ki, Orta Dəhliz “Qlobal qapılar” strategiyasının əsas prioritetlərindən biridir və Azərbaycan həmin dəhlizin mərkəzi ölkəsidir.

Hazırkı geosiyasi reallıqlar Avropa üçün etibarlı alternativ marşrutların əhəmiyyətini daha da artırıb. Mövcud alternativlərin mühüm hissəsi ya sanksiyaların tətbiq olunduğu, ya da yüksək geosiyasi risklərin mövcud olduğu ərazilərdən keçir. Bu baxımdan Azərbaycan sabit siyasi mühiti, etibarlı tərəfdaş imici və inkişaf etmiş nəqliyyat infrastrukturu sayəsində Avropa ilə Mərkəzi Asiya arasında ən təhlükəsiz və səmərəli tranzit marşrutlarından birini təqdim edir. Nəzərə alsaq ki, Qara dəniz hövzəsində müharibə, Qırmızı dənizdə təhlükəsizlik problemləri və Hörmüz boğazında yaranan risklər Avropanı alternativ logistika marşrutlarını sürətlə inkişaf etdirməyə sövq edib. Bu baxımdan Orta Dəhlizin və Azərbaycanın strateji əhəmiyyəti əvvəlki illərlə müqayisədə daha da artıb

Son illər ərzində Azərbaycan nəqliyyat infrastrukturunun modernləşdirilməsinə milyardlarla manat həcmində investisiya yönəldib. Ölkədə beynəlxalq standartlara uyğun avtomobil magistralları çəkilib, dəmir yolu şəbəkəsi yenilənib, yeni beynəlxalq hava limanları istifadəyə verilib, dəniz limanlarının imkanları genişləndirilib. Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu regionun ən müasir logistika sistemlərindən biri hesab olunur.

Bu infrastrukturun əsas elementlərindən biri də Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Hazırda limanın illik yükaşırma gücünün mövcud imkanlardan 25 milyon tona çatdırılması istiqamətində genişləndirmə işləri həyata keçirilir. Bu layihə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların artan həcmini qarşılamağa və Orta Dəhlizin buraxılış qabiliyyətini əhəmiyyətli dərəcədə yüksəltməyə xidmət edir.

Azərbaycanın digər mühüm üstünlüyü Xəzər dənizində ən böyük ticarət və yük donanmasına malik olmasıdır. Müasir bərə və yük gəmilərindən ibarət donanma Transxəzər marşrutu üzrə daşımaların fasiləsiz həyata keçirilməsinə, yüklərin operativ şəkildə Avropa istiqamətinə çatdırılmasına imkan yaradır. Məhz bu amillərin və uzun illər ərzində formalaşdırılmış müasir nəqliyyat infrastrukturunun nəticəsidir ki, Azərbaycan bu gün Avropa İttifaqının Mərkəzi Asiya ilə iqtisadi və nəqliyyat əlaqələrinin inkişafında əvəzolunmaz tərəfdaşlardan biri kimi çıxış edir. Azərbaycan “Qlobal qapılar” təşəbbüsünün uğurla reallaşdırılması baxımından strateji əhəmiyyət daşıyan əsas tranzit mərkəzlərindən birinə çevrilib.

***Musa BAĞIRLI***
***XQ***

# Qara Dəniz Bankının Bakı hesabatı

**İyulun 1-də Bakı şəhərində Azərbaycan Respublikasının sədrliyi ilə Qara Dəniz Ticarət və İnkişaf Bankının Rəhbərlər Şurasının 28-ci illik toplantısı və biznes forumu öz işinə başlayacaq. Maliyyə Nazirliyinin məlumatına əsasən, 2 gün davam edəcək toplantıda bankın fəaliyyətinin nəticələri nəzərdən keçiriləcək, 2025-ci il üzrə maliyyə hesabatları təsdiqlənəcək. Bununla yanaşı, qurumun gələcək fəaliyyət istiqamətləri və institusional inkişaf məsələləri müzakirə olunacaq.**

Toplantı çərçivəsində “Bazarların əlaqələndirilməsi, iqtisadiyyatların şaxələndirilməsi: Azərbaycan regional qovşaq kimi” mövzusunda təşkil olunacaq biznes forumda isə Azərbaycanın iqtisadi inkişaf prioritetləri, regional əməkdaşlığın



gücləndirilməsi, eləcə də Qara Dəniz Ticarət və İnkişaf Bankının ölkəmizdə həyata keçirdiyi layihələr, inkişafın maliyyələşdirilməsi sahəsində mövcud tendensiyalar və çağırışlar ətrafında müzakirələr aparılacaq.

Eyni zamanda, forumun gündəliyinə uyğun olaraq, regional bağlantıların genişləndirilməsi, şaxələndirilmiş maliyyələşmədirmə mexanizmlərinin dayanıqlı iqtisadi artıma töhfəsi, eləcə də Azərbaycanın Avropa ilə Asiya arasında mühüm iqtisadi və nəqliyyat qovşağı kimi rolu diqqət mərkəzində olacaq. Toplantı çərçivəsində müxtəlif təqdimatların, plenar sessiyaların və işgüzar müzakirələrin keçirilməsi, sahibkarlar və maliyyə institutlarının nümayəndələri arasında ikitərəfli (B2B) görüşlərin təşkili də nəzərdə tutulur.

Qeyd edək ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan 11 dövlət – Albaniya, Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən yaradılmış çoxtərəfli beynəlxalq inkişaf maliyyə institutudur. Baş ofisi Yunanıstanın Saloniki şəhərində yerləşən bankın üzv ölkələrdə davamlı iqtisadi inkişafın və regional əməkdaşlığın təşviqinə xidmət edir, dövlət və özəl sektor layihələrinin maliyyələşdirilməsi, kreditlərin və kredit xətlərinin təqdim edilməsi, investisiyaların və zəmanətlərin verilməsi, eləcə də ticarətin maliyyələşdirilməsi istiqamətlərində fəaliyyət göstərir.

***XQ***

# Milli rəqəmsal maliyyə gündəliyi

**Dünən Bakıda “Azərbaycanın rəqəmsal maliyyə gündəliyi” mövzusunda maarifləndirici məclis keçirilib. Dövlət qurumlarının, maliyyə sektoru nümayəndələrinin, finteç şirkətlərinin və ödəniş ekosisteminin iştirakçıları bir araya gələrək ölkədə rəqəmsal maliyyə xidmətlərinin inkişaf perspektivlərini, həyata keçirilən islahatları və gələcək hədəfləri müzakirə ediblər.**

Rəqəmsal maliyyə gündəliyi ətrafında elektron ticarət sektoru üçün rəqəmsal ödəniş həllərinə həsr olunmuş sessiyada mövcud vəziyyət və gözlənilən yeniliklər barədə təqdimat edilib. Təqdimatçı Zeynal Kərimzadə elektron ticarət sahəsində rəqəmsal ödəniş həllərinin inkişaf istiqamətləri və perspektivləri haqqında məlumat verib. Tədbir çərçivəsində “Rəqəmsal maliyyə ekosisteminin inkişaf trendləri: Açıq bankçılıq, Ani Ödəniş Sistemi (AÖS), AZQR və kriptoaktivlər” mövzusunda panel müzakirəsi də keçirilib. Panelə Azərbaycan Mərkəzi Bankının nümayəndəsi Namiq Əliyev moderatorluq edib.

Bununla yanaşı, müzakirələrdə Mərkəzi Bankın nümayəndəsi Ramil Mahmudov, “PashaPay” şirkətinin nümayəndəsi İqbal Rüstəmov, Azərbaycan Fintex Assosiasiyasının nümayəndələri Tamerlan Rüstəmov və Rasim Xammədov çıxış edərək rəqəmsal maliyyə ekosisteminin inkişaf tendensiyaları, innovativ ödəniş həlləri, açıq bankçılıq, rəqəmsal ödəniş infrastrukturu və kriptoaktivlərin perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

Azərbaycan Mərkəzi Bankının Ödəniş sistemləri və məhsulların inkişafı departamentinin direktor müavini Ramil Mahmudov bildirib ki, Mərkəzi Bankın hədəfi yalnız daxili bazarın inkişafı ilə məhdudlaşmır. Məqsəd həm də Azərbaycanın maliyyə xidməti göstərən qurumlarının xarici bazarlara çıxışını və beynəlxalq fəaliyyətini dəstəkləməkdir. Bu məqsədlə prioritet istiqamətlərdən biri transsərhəd (cross-border) ödənişlərin inkişafı və digər ölkələrin ödəniş sistemləri ilə inteqrasiyadır: “Yaxın gələcəkdə ilk növbədə Azərbaycanın ən çox ticarət apardığı və turist axınının yüksək olduğu ölkələrlə qarşılıqlı ödəniş inteqrasiyalarının qurulması nəzərdə tutulur. Perspektivdə Azərbaycanın regional ödəniş habına çevrilməsi potensialı da qiymətləndirilir. Bununla yanaşı, bu proses uzunmüddətli yanaşma tələb edir və innovasiyaların dəstəklənməsi, eləcə




də yeni məhsul və xidmətlərin tətbiqi üçün müasir və adekvat normativ-hüquqi bazanın formalaşdırılması mühüm əhəmiyyət daşıyır”.

Digər tərəfdən, Azərbaycan Mərkəzi Bankının Maliyyə Texnologiyaları və İnnovasiyalar Departamentinin direktoru Fidan Tofidi isə bildirib ki, qəbul olunacaq kriptovalyuta haqqında qanun layihəsinə əsasən, kriptoaktivlərlə məşğul olmaq istəyən təşkilatlar mütləq şəkildə Mərkəzi Bankdan lisenziya almalıdırlar. Onun sözlərinə görə, lisenziya almaq üçün kifayət qədər sərt və ciddi tələblər müəyyən edilib: “Həmin tələblərə cavab verməyən təşkilatlar lisenziya ala bilməyəcəklər. Lisenziya əldə etdikdən sonra isə onların fəaliyyətinə davamlı nəzarət həyata keçiriləcək. Bu istiqamətdə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması əsas prioritetlərdən biridir. Buna görə də Mərkəzi Bankın əsas məqsədi yalnız innovasiyaların təşviqi deyil, həm də maliyyə sabitliyinin və təhlükəsizliyin qorunmasıdır. Məhz bu səbəbdən qeyd olunan məsələlər həm qanun layihəsində, həm də sonradan qəbul ediləcək normativ qaydalarda öz əksini tapacaq”.

Qeyd edək ki, məclisin əsas məqsədi rəqəmsal maliyyə sahəsində həyata keçirilən yeniliklər barədə ictimai maarifləndirməni artırmaq, maliyyə bazarının iştirakçıları arasında əməkdaşlığı gücləndirmək və ölkədə innovativ maliyyə ekosisteminin inkişafına töhfə verməkdir.

***XQ***

# I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk dünyası həftəsi”nin açılış mərasimi

**İyunun 29-da Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk dünyası həftəsi” başlanıb. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” 22 oktyabr 2025-ci il tarixli sərəncamına uyğun olaraq təşkil edilib.**






Heydər Əliyev Mərkəzində həftənin əsas tədbiri – “I Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi” mövzusunda beynəlxalq konqresin rəsmi açılış mərasimi keçirilib. Konqresdə türk respublikaları daxil olmaqla ümumilikdə 20 ölkədən rəsmilər, müxtəlif elmi mərkəzlərdən 126 türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak ediblər.

Əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi”nin iştirakçılarına müraciətini səsləndirib.

Açılış mərasimində, həmçinin Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin konqres iştirakçılarına müraciətləri oxunub.

Sonra I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

**Mərasimdə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki,** Azərbaycan Birinci Türkoloji Qurultayın irsinə hər zaman böyük diqqət və ehtiramla yanaşır, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd edilir. Bu, Azərbaycan dövlətinin Türk dünyasının ortaq elmi və mədəni irsinə verdiyi yüksək dəyərin bariz nümunəsidir: “Bu gün biz sadəcə bir yubileyi qeyd etmirik. Biz yüz il əvvəl Bakıda əsası qoyulmuş böyük bir ideyanın - ortaq mədəniyyət və mənəvi birlik ideyasının bir əsrlik tarixini qeyd edirik. İnanıram ki, keçiriləcək görüşlər yeni elmi təfəkkürün, yeni ideyaların və yeni əməkdaşlıq körpülərinin yaranmasına mühüm töhfə verəcək”.




Adil Kərimli, bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi”nin tədbirləri Qarabağda - Şuşa, Xankəndi və Ağdam şəhərlərində də davam edəcək.

Nazir vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda yenidən qurulan hər bir şəhər, bərpa olunan hər bir abidə və yenidən həyat qazanmış hər bir məkan Azərbaycanın dirçəlişini və bütövlükdə Türk dünyasının həmrəylik ruhunu ifadə edir.

“İnanırıq ki, bu qurultay Türk dünyasının ortaq tarixində əlamətdar hadisə kimi qalacaq və gələcək nəsillər üçün dəyərli irs yaradacaq”, - deyə o qeyd edib.

**Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev** çıxışında Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də Türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıdığını deyib: “Qəbələ Sammitində qəbul olunan bəyannamələrdə və “Türk dünyası – 2040” vizyonunda əksini tapan hədəflər Türk dövlətlərinin birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edir. Onun sözlərinə görə, Birinci Türkoloji Qurultayın yüz il əvvəl ortaya qoyduğu ideyalar bu gün Türk Dövlətləri Təşkilatının fəaliyyəti çərçivəsində uğurla davam etdirilir".

Kubanıçbek Ömüralıyev vurğulayıb ki, son illər türk dövlətləri arasında siyasi dialoq, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib. Bu əməkdaşlığın təməlində ortaq tarix, dil və mədəni irs dayanır.

Baş katib əlavə edib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlər ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və Türk dünyasında inteqrasiya prosesinin daha da gücləndirilməsinə töhfə verəcək.

**Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov** çıxışında Birinci Türkoloji Qurultayın Türk dünyasının elmi, mədəni və siyasi tarixində mühüm dönüş nöqtəsi olduğunu bildirib. O qeyd edib ki, bu qurultay yalnız elmi toplantı deyil, həm də türk xalqlarının ortaq kimliyini və birliyini nümayiş etdirən tarixi hadisə idi.

Akademik vurğulayıb ki, türk xalqlarının birliyi ideyası əsrlər boyu formalaşıb və bu yolda böyük maarifçilər, alimlər və ziyalılar mühüm xidmətlər göstəriblər. Müasir dövrdə türk dövlətləri arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmlənməsi Birinci Türkoloji Qurultayın irsinin davamı kimi qiymətləndirilməlidir.

Spiker müavini qeyd edib ki, Azərbaycan bu prosesdə mühüm rol oynayır və ölkə rəhbərliyinin Türk dünyasının birliyinə verdiyi dəstək ortaq dəyərlərin qorunmasına və inkişafına xidmət edir.

Çıxışlardan sonra Türk dünyasının tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Beynəlxalq konqres öz işini plenar iclas və panel sessiyalarla davam etdirib.

İyulun 3-dək davam edəcək “Türk dünyası həftəsi” Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə gerçəkləşir.

# “Ailəmiz – Türk dünyası”

*Məclisdə I Türkoloji Qurultayın yubiley döş nişanları təqdim olunub*






**İyunun 29-da Heydər Əliyev Mərkəzində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk dünyası həftəsi” çərçivəsində əvvəlcə süni intellekt texnologiyası əsasında hazırlanmış “Ailəmiz – Türk dünyası” qısametrajlı filmi nümayiş etdirilib.**

Daha sonra “Türk dünyası bir ailə kimi, ortaq məqsədlər naminə beynəlxalq türk əməkdaşlıq təşkilatlarının fəaliyyətləri” mövzusunda panel sessiya keçirilib.

**Panel sessiyada çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli** bildirib ki, Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması ilə bağlı imzaladığı sərəncam Azərbaycanda türkoloji irsə və Türk dünyasının ortaq dəyərlərinə verilən yüksək dövlət qayğısının təzahürüdür. Onun sözlərinə görə, bu sərəncam həm 1926-cı ildə Bakıda keçirilmiş tarixi qurultayın iştirakçılarının xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir, həm də müasir türkologiyanın inkişafına göstərilən diqqəti əks etdirir.

Akademik vurğulayıb ki, Birinci Türkoloji Qurultayın ideyalarının XXI əsrin çağırışlarına uyğun inkişaf etdirilməsi mühüm vəzifələrdəndir. Bu baxımdan rəqəmsal türkologiyanın inkişafı, ortaq elmi layihələrin həyata keçirilməsi və türkoloji tədqiqatların müasir texnologiyalar əsasında aparılması xüsusi əhəmiyyət kəsb edir. O əlavə edib ki, AMEA Türk Akademiyası və qardaş ölkələrin elmi müəssisələri ilə ortaq tədqiqatlar, birgə nəşrlər və klassik irsin öyrənilməsi istiqamətində əməkdaşlığı genişləndirir.

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev** çıxışında bildirib ki, bu gün Türk dünyası elm, mədəniyyət və düşüncə sahəsində ortaq məqsədlər naminə bir ailə kimi fəaliyyətini gücləndirir.

“Bizim dilimiz, tariximiz və coğrafiyamız fərqli ola bilər. Lakin bu fərqlər bizi ayırmır, əksinə ortaq sivilizasiyamızın zənginliyini təşkil edir”, – deyə Baş katib vurğulayıb.

**Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev** qeyd edib ki, türk əməkdaşlıq təşkilatları indiyədək türk dövlətləri arasında inteqrasiyanın möhkəmləndirilməsində mühüm rol oynayıb. Onun sözlərinə görə, mövcud geosiyasi şərait əməkdaşlığın yeni mexanizmlərlə inkişaf etdirilməsini tələb edir: “Əsas vəzifələrdən biri təşkilatlar arasında koordinasiyanın daha da təkmilləşdirilməsi və mövcud resurslardan daha səmərəli istifadə edilməsidir. Eyni zamanda, əməkdaşlıq mexanizmləri dövlətlərimizin inkişaf dinamikasına və yeni geosiyasi reallıqlara uyğunlaşdırılmalıdır”.

**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova** isə çıxışında qeyd edib ki, yüz il əvvəl olduğu kimi, bu gün də Türk dünyasının alimləri, ziyalıları, dövlət xadimləri və beynəlxalq təşkilatların nümayəndələri ortaq gələcəyin müzakirəsi üçün Bakıda bir araya gəliblər. Onun sözlərinə görə, Birinci Türkoloji Qurultay yalnız dil və əlifba məsələlərinin müzakirə olunduğu tədbir olmayıb, eyni zamanda ortaq mədəni yaddaşın qorunması, tarixi irsin öyrənilməsi və türk xalqları arasında elmi-mədəni əməkdaşlığın inkişafına xidmət edən mühüm platforma kimi tarixə düşüb.

Panel sessiyanın sonunda Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə təsis edilmiş xatirə döş nişanları təqdim olunub.

Döş nişanlarını TÜRKSOY-un Baş katibi Sultan Raev akademiklər Rafael Hüseynova və Nizami Cəfərova təqdim edib. Daha sonra Qırğızıstan, Türkiyə, Özbəkistan və Türkmənistan nümayəndələri də xatirə döş nişanları ilə təltif olunublar.

# Panel sessiya: “Birinci Türkoloji Qurultayın mirası: türk xalqlarının mədəni-elmi inteqrasiyası”

**Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində Mədəniyyət Nazirliyi, Bakı Dövlət Universiteti, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Əl-Fərabi adına Qazax Milli Universiteti və Türk Dil Qurumunun təşkilatçılığı ilə keçirilən "Türk dilləri, ədəbiyyatları və tarixlərinin tədrisi müasir çağırışlar kontekstində" mövzusunda Beynəlxalq elmi konfrans öz işini davam etdirir.**

Konfrans çərçivəsində “Birinci Türkoloji Qurultayın mirası: türk xalqlarının mədəni-elmi inteqrasiyası” adlı panel sessiya keçirilib.

Tədbirin moderatoru, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Bayramlı qeyd edib ki, 100 il əvvəl - 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsi türk xalqlarının modernləşmə yolunda keçmiş olduğu bir əsrlik maarifçilik və intibah hərəkatının möhtəşəm yekunu idi: “Türkoloji Qurultayın idealları, o fədakar ziyalıların xatirəsi hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Qurultayın 80 və 90 illik yubileyləri ölkəmizdə təntənə ilə qeyd olunub. “Türk Dünyası Həftəsi” də dövlətimizin başçısının “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamının icrası çərçivəsində reallaşır”.




Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti Bülent Bayram qeyd edib ki, türk dövlətlərinin tarixi mirasını qorumaq və elmi əlaqələri təşkilati səviyyədə idarə etmək fərqli coğrafiyalardakı alimlərin vahid platformada birləşməsini tələb edir. Beynəlxalq Türk Akademiyası rəqəmsal əsrdə müxtəlif ölkələrdəki türkoloqların və elm adamlarının vahid, çevik və ortaq platformada birləşməsi üçün addımların atılmasını zəruri hesab edir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Mahirə Hüseynova Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin həm də hesabat olduğunu bildirib.

Qazaxıstan Milli Akademiyasının həqiqi üzvü Sherubay Kurmanbaiuly isə təhsil və elmdə inteqrasiyanın təməl sütununun dil olduğunu bildirib: “1926-cı ildə Bakıda ən qızğın müzakirə olunan ortaq əlifba və terminologiya məsələsi bu gün süni intellekt mühitində yenidən aktuallaşır. Süni intellektin dilləri idarə etdiyi bir dövrdə türk dillərinin elmi inteqrasiyası və ortaq rəqəmsal terminologiya bazasının yaradılması strateji zərurətə çevrilib”.

Qırğızıstan Milli Elmlər Akademiyasının həqiqi üzvü Sırtbay Musaev Birinci Türkoloji Qurultayın birləşdirici ruhunun müasir türkologiya üçün etibarlı örnək olduğunu bildirib. Qeyd edib ki, türk xalqlarının inteqrasiyasının gələcəyindən danışarkən bu amili mütləq nəzərdə saxlamaq lazımdır.

BDU-nun Türkologiya kafedrasının müdiri Məhərrəm Məmmədov Birinci Türkoloji Qurultayın dərsləri, modern türkologiyanın qarşısında dayanan əsas çağırışlarla bağlı fikirlərini bölüşüb. Bildirib ki, Qurultayın mirası şərəfli keçmiş olmaqla bərabər, Türk dünyasının gələcək inkişafına işıq tutan bələdçidir.

XQ

# Leyla Əliyeva və Arzu Əliyeva "CandyFest" yay festivalı və "Sehrli mirvari" su sirki şousunda










**İyunun 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Bakı Bulvarında keçirilən "CandyFest" yay festivalını ziyarət ediblər.**

Əvvəlcə qonaqlara festival barədə ətraflı məlumat verilib.

Bildirilib ki, iyunun 1-dən başlayan festival iyulun sonunadək davam edəcək. Burada hər yaş qrupundan olan qonaqlar üçün təqdimatlar nəzərdə tutulub. Qeyd olunub ki, festival zamanı hər gün saat 17:00-dan 19:00-dək uşaqlar üçün maraqlı tamaşalar, interaktiv oyunlar və əyləncə proqramları təşkil olunur.



Ziyarət zamanı Leyla Əliyeva və Arzu Əliyeva festival çərçivəsində təşkil olunmuş yarmarka ərazisi və müxtəlif köşklərə baş çəkiblər. Qonaqlar köşklərdə təamların dadına baxıb, festival ziyarətçiləri ilə görüşüb, şəkillər çəkdiriblər. Ziyarət zamanı qonaqlara müxtəlif hədiyyələr də təqdim olunub.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva açıq səma altında keçirilən "Sehrli mirvari" su sirki şousunu izləyiblər. Daha sonra nağıl qəhrəmanlarının iştirakı ilə işıq, musiqi və akrobatik elementlərin yer aldığı tamaşa nümayiş olunub.

***XQ***

# Müharibə canilərinə bəraət yoxdur

*Azərbaycan ictimaiyyəti süni kampaniyanı rədd etdi*

**Bəzi Qərb ölkələrində ermənipərəst təşkilatlar tərəfindən müharibə cinayətkarı Ruben Vardanyan da daxil olmaqla, Azərbaycanda məhkum edilmiş bir sıra müharibə cinayətkarlarının "qurban" kimi qələmə verilməsi ilə bağlı aparılan kampaniyalara qarşı Azərbaycanın ictimaiyyət nümayəndələri sərt mövqe nümayiş etdirib.**

Azərbaycan QHT-lərinin, şəhid ailələrinin, itkin düşmüş şəxslərin yaxınlarının, mina terroru qurbanlarının, keçmiş məcburi köçkünlərin yaydıqları Açıq məktubda Ruben Vardanyanın və digərlərinin törətdikləri ağır cinayətlərə, separatizmi və terrorizmi maliyyələşdirməsinə görə məhkum edildikləri bildirilib.

Sənəddə vurğulanır ki, Azərbaycan vətəndaş cəmiyyəti uzun illərdir beynəlxalq strukturlara müraciətlər ünvanlayaraq müharibə cinayətləri qurbanlarının hüquqlarının müdafiəsini, tarixi ədalətin bərqərar olunmasını və beynəlxalq məsuliyyət prinsiplərinin qorunmasını tələb edir. Bu kontekstdə ABŞ Prezidenti Donald Trampa ünvanlanmış Açıq Məktub (https://en.apa.az/foreign-policy/azerbaijani-ngos-address-open-letter-to-us-president-donald-trump-487462), ABŞ Konqresində irəli sürülmüş birtərəfli təşəbbüslərlə bağlı kəskin etiraz müraciətləri (https://azertag.az/en/xeber/4264859), həmçinin Lemkin İnstitutu (https://report.az/en/foreign-politics/azerbaijani-ngos-call-on-us-based-lemkin-institute-to-apologize), Böyük Britaniya parlamentinin üzvləri (https://www.azernews.az/nation/254843.html) və digər beynəlxalq təsisatlara göndərilən bəyanatlar xatırladılır. Müraciət müəllifləri xüsusi olaraq bəyan edirlər ki, Azərbaycanın öz suveren ərazilərində törədilmiş ağır cinayətləri araşdırmaq, qanunun aliliyini təmin etmək və təqsirkar şəxsləri məhkəmə qarşısına çıxarmaq hüququ və öhdəliyi həm daxili qanunvericilikdən, həm də fundamental beynəlxalq hüquq normalarından irəli gəlir və bu suveren hüquqa kənar müdaxilə yolverilməzdir.

Sənəddə onilliklər ərzində itkin düşmüş şəxslərin ailələrinin beynəlxalq birliyə etdiyi çoxsaylı çağırışların cavabsız qaldığı, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyinin bu gün də naməlum saxlanıldığı və 3400-dən çox mina qurbanının humanitar faciəsinin qlobal kampaniyalarda qərəzli şəkildə diqqətdən kənarda saxlanıldığı faktlarla ifşa olunur. Xüsusilə itkin düşmüş oğlu ilə bağlı xəbər belə ala bilmədən, ömür boyu dərin daxili əzablar içində yaşayaraq ötən il vəfat edən Elmira Dadaşovanın acı taleyi beynəlxalq ictimaiyyətin nümayiş etdirdiyi ikili standartlardan və vurulmuş mənəvi zərər nümunələrindən biri kimi göstərilir.

Açıq məktubun tam mətni ilə bu linkdən tanış olmaq mümkündür. https://azertag.az/en/xeber/an_open_letter_by_families_of_missing_persons_relatives_of_martyrs_mine_victims_and_former_internally_displaced_persons_of_azerbaijan-4290239

***XQ***

# İl yarıya çatır, uğurlar isə yarıdan çoxdur

**2026-cı ilin birinci yarısı Azərbaycanın iqtisadi inkişaf tarixində struktur islahatlarının dərinləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal transformasiya və "yaşıl" iqtisadiyyat modelinə keçid istiqamətində sistemli tədbirlərin reallaşdırılması ilə yadda qaldı. Qlobal iqtisadiyyatda geosiyasi gərginliklərin, beynəlxalq ticarətdə qeyri-müəyyənliyin, enerji bazarlarında qiymət dəyişkənliyinin və inflyasiya təzyiqlərinin davam etdiyi bir şəraitdə respublika iqtisadiyyatında dayanıqlı inkişafının gerçəkləşdirilməsi ölkədə həyata keçirilən uzunmüddətli iqtisadi strategiyanın səmərəliliyini bir daha nümayiş etdirdi.**

İlin ötən 6 ayının ilkin nəticələri göstərir ki, hökumətin həyata keçirdiyi iqtisadi siyasətin mərkəzində makroiqtisadi sabitliyin qorunması ilə bərabər, həm də yeni iqtisadi artım mənbələrinin formalaşdırılması dayanır. Bu isə qeyri-neft sektorunun genişləndirilməsi, innovasiya iqtisadiyyatının inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsi vasitəsilə reallaşır.



## Qeyri-neft sektoru yenə öndədir

2026-cı ilin ilk yarısında Azərbaycan iqtisadiyyatında, təxminən, 2–2,5 faiz səviyyəsində iqtisadi artımın qeydə alınması mövcud beynəlxalq iqtisadi şərait nəzərə alınmaqla müsbət göstərici kimi qiymətləndirilib. Bu artım əvvəlki illərdə formalaşdırılan maliyyə dayanıqlılığı, dövlət investisiyaları və qeyri-neft sektorunun inkişafı hesabına əldə edilib.

**İqtisadçı-ekspert Ramiz Qasımov bildirdi ki,** bu məsələdə ən mühüm məqamlardan biri iqtisadi artımın əsas mənbəyinin əvvəlki dövrlərdən fərqli olaraq hazırda daha çox qeyri-neft sektorunda yaranan əlavə dəyərlə bağlı olduğunu, başqa sözlə, Azərbaycanın uzun illər həyata keçirdiyi iqtisadi şaxələndirmə siyasətinin real nəticələr verməyə başladığını göstərir. Dünyada təkcə enerji gəlirlərinə əsaslanmaması ölkənin makroiqtisadi təhlükəsizliyi baxımından mühüm üstünlük hesab olunur. Bu, eyni zamanda, gələcək iqtisadi inkişaf üçün daha davamlı model formalaşdırır.

Son illərin iqtisadi siyasətində əsas prioritetlərdən biri qeyri-neft sektorunun genişləndirilməsi olub. 2026-cı ilin ilk yarısında da bu istiqamətdə reallaşdırılan layihələr öz bəhrəsini verməyə başlayıb. Sənaye, kənd təsərrüfatı, logistika, informasiya texnologiyaları, turizm, xidmət sektoru və emal sənayesi iqtisadi artımın əsas istiqamətləri kimi diqqət çəkib.

Qeyri-neft sektorunun inkişafı, həm də bir neçə mühüm istiqamətdə, ilk növbədə, yeni istehsal müəssisələrinin yaradılması, ixracyönümlü məhsul istehsalının genişləndirilməsi, rəqabətqabiliyyətli sənaye məhsullarının artırılması, logistika xidmətlərinin inkişaf etdirilməsi və innovasiya əsaslı sahibkarlığın stimullaşdırılmasında özünü qabarıq büruzə verib.

Hesabat dövründə elm və innovasiya iqtisadiyyatının inkişafına xüsusi önəm verilib. Bunun bariz ifadəsi olaraq 2026-cı ilin ilk yarısında diqqətçəkən mühüm layihələrdən biri kimi Bakıda Elm-Texnologiya Parkının yaradılması istiqamətində işlərə başlanılıb. Bu sahəyə xüsusi önəm verilməsi müasir dünya təcrübəsindən qaynaqlanıb. Çünki inkişaf etmiş ölkələrdə texnologiya parkları, sadəcə, istehsal sahəsi olmaqla bərabər, həm də universitetləri, elmi-tədqiqat institutlarını, startap ekosistemlərini, investorları və yüksək texnologiyalı şirkətlərini bir platformada birləşdirən innovasiya mərkəzləri kimi yüksək qiymətləndirilib.

Azərbaycanda Elm-Texnologiya Parkının yaradılması isə innovativ məhsulların hazırlanması, texnologiya transferi, startapların maliyyələşdirilməsi, yüksək ixtisaslı iş yerlərinin yaradılması, rəqəmsal iqtisadiyyatın inkişafı və süni intellekt layihələrinin genişləndirilməsi istiqamətlərində mühüm nəticələr vəd edir. Məhz buna görə, ekspertlərin fikrincə, sözügedən layihə ölkəmizin regionun texnoloji mərkəzlərindən birinə çevrilməsi strategiyasının mühüm elementidir.

## Rəqəmsal yüksəlişin təməli

Hesabat dövründə qəbul edilmiş rəqəmsal iqtisadiyyat və süni intellekt strategiyaları gələcək onilliklərin inkişaf modelini müəyyənləşdirən əsas sənədlər sırasındadır. Hazırda dünyada iqtisadi artımın əsas hissəsi də məhz rəqəmsal texnologiyalar hesabına formalaşır. Çünki süni intellekt, bulud texnologiyaları və avtomatlaşdırılmış idarəetmə sistemləri məhsuldarlığı əhəmiyyətli dərəcədə artırır. Azərbaycanın qəbul etdiyi yeni strategiyalar da bu baxımdan önəm daşıyır. Bu, dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması, biznes proseslərinin elektronlaşdırılması, rəqəmsal vergi inzibatçılığının diqqətdə saxlanılması, kibertəhlükəsizliyin gücləndirilməsi, süni intellekt tətbiqlərinin genişləndirilməsi və rəqəmsal bacarıqların inkişaf etdirilməsi kimi məsələləri əhatə edir.

Bu siyasət uzunmüddətli perspektivdə həm məhsuldarlığın artmasına, həm də investisiya cəlbediciliyinin yüksəlməsinə müsbət təsir göstərəcək. Eyni zamanda, dövlət-özəl tərəfdaşlığı iqtisadi inkişafın mühüm vasitəsinə çevriləcək. TIR parklarının yaradılmasına gəldikdə isə logistika infrastrukturunun genişləndirilməsi, tullantıların idarə olunması layihələrinin həyata keçirilməsi, kommunal xidmətlərin modernləşdirilməsi istiqamətində yeni təşəbbüslərə start verilməsi perspektivdə bu istiqamətlərdə müsbət göstəricilərin nəzərə çarpması ilə müşahidə ediləcək.

Xüsusilə Lənkəranda bərk məişət tullantılarının idarə olunması layihəsi ekoloji təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, dairəvi iqtisadiyyat modelinin formalaşdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Müasir iqtisadiyyatlarda tullantılar artıq problem deyil, əlavə iqtisadi resurs hesab olunur. Başqa sözlə, təkrar emal sənayesinin inkişafı həm yeni iş yerləri yaradır, həm də ətraf mühitə düşən yükü azaldır.

Onu da qeyd edək ki, hesabat dövründə Azərbaycanın geoiqtisadi mövqeyinin gücləndirilməsi baxımından Orta Dəhlizin də inkişafı diqqət mərkəzində saxlanılıb. Bunun nəticəsidir ki, 2026-cı ilin ilk 6 ayında nəqliyyat-logistika sektorunda həyata keçirilən layihələr ölkəmizin beynəlxalq yükdaşımalarında rolunu daha da artırmağa xidmət edib. Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun İllik Toplantıları çərçivəsində regional nəqliyyat və Orta Dəhlizin inkişafına yönəlmiş milyardlarla dollar həcmində maliyyələşmə sazişlərinin imzalanması da Azərbaycanın tranzit ölkə kimi strateji əhəmiyyətini şərtləndirib.

Bu layihələr yükdaşımaların sürətləndirilməsi, logistika xərclərinin azaldılması, beynəlxalq ticarətin genişlənməsi, regional inteqrasiyanın gücləndirilməsi və qeyri-neft gəlirlərinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Müasir dövrdə logistika sektoru Azərbaycanın coğrafi üstünlüyünü iqtisadiyyatın ən gəlirli sahələrindən biri kimi dəyərləndirilən iqtisadi üstünlüyə çevirir.

## Yeni çağırışlar, önəmli layihələr

Bu ilin ilk yarısında "yaşıl" enerji istehsalı istiqamətində də önəmli layihələr reallaşdırılıb. Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə institutlarının iştirakı ilə "Yaşıl enerji dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması davam etdirilib. Bu layihənin icrası ilə bərpaolunan enerji istehsalının artırılması ilə bərabər, eyni zamanda, "yaşıl" elektrik enerjisinin ixracının gerçəkləşdirilməsi, regional enerji təhlükəsizliyinin gücləndirilməsi, karbon emissiyalarının azaldılması, enerji bazarlarının şaxələndirilməsi və Avropa ilə enerji əməkdaşlığının genişləndirilməsi kimi prioritet həllər nəzərdə tutulub.

Azərbaycan artıq neft və qaz ixracını reallaşdıran ölkədən "yaşıl" enerji ixrac edən dövlətə transformasiya prosesini sürətləndirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeni iqtisadi artım mərkəzinə çevrilməsi istiqamətində həyata keçirilən layihələr isə iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi diqqət çəkir. Xüsusilə Kəlbəcərin İstisu, Zülfüqarlı və Dəmirçidam ərazilərində beynəlxalq standartlara cavab verən turizm və rekreasiya zonalarının yaradılması ilə bağlı hazırlıq işlərinin genişləndirilməsi mühüm önəm daşıyır.

Bu layihələrin məqsədi təkcə turizm sektorunun inkişafı deyil. Eyni zamanda, bu məsələ ilə bağlı yeni xidmət sahələrinin yaradılması, özəl investisiyaların cəlb edilməsi, məşğulluğun artırılması, regionların iqtisadi potensialının reallaşdırılması, beynəlxalq turizm marşrutlarının formalaşdırılması nəzərdə tutulur. Kəlbəcərin zəngin təbii ehtiyatları, mineral suları və dağ turizmi imkanları gələcəkdə Azərbaycanın ən perspektivli turizm mərkəzlərindən birinin formalaşmasına şərait yarada bilər.

Yeri gəlmişkən, 2026-cı ilin dövlət büdcəsinin icrasında sosialyönümlülük əsas prinsip kimi diqqətdə saxlanılıb. Bu baxımdan büdcə vəsaitlərinin əhəmiyyətli hissəsi sosial infrastrukturun yenilənməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və təhsil, eləcə də səhiyyə layihələrinin maliyyələşdirilməsinə yönəldilib. Bu yanaşma nəticəsində iqtisadi artım sosial rifahın yüksəldilməsi ilə paralel gerçəkləşdirilib.

Hesabat dövründə beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq daha da gücləndirilib. İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə ölkənin infrastrukturunun yenilənməsi, "yaşıl" iqtisadiyyatın inkişaf etdirilməsi və regional nəqliyyat şəbəkələrinin genişləndirilməsi istiqamətlərində mühüm layihələr həyata keçirilib. Bu əməkdaşlıq nəticəsində uzunmüddətli maliyyə resurslarına çıxış, qabaqcıl idarəetmə təcrübəsinin tətbiqi, beynəlxalq investorların etimadının artırılması və özəl kapitalın daha geniş cəlb olunması kimi önəmli üstünlüklər yaradılıb.

## İqtisadi modernləşmə

2026-cı ilin ilk yarısının nəticələri göstərir ki, qarşıdakı mərhələdə Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bununla yanaşı, yeni çağırışlar sırasında, ilk növbədə, əmək məhsuldarlığının yüksəldilməsi, müasir texnologiyalar əsasında istehsalın genişləndirilməsi, ixracın daha da şaxələndirilməsi və insan kapitalına investisiyaların artırılması və rəqəmsal transformasiyanın sürətləndirilməsi xüsusi yer tutur. Eyni zamanda, kiçik və orta sahibkarlığın maliyyə resurslarına çıxış imkanları genişlənir, innovasiya ekosistemi güclənir, "yaşıl" iqtisadiyyat layihələri sürətlənir və dövlət-özəl tərəfdaşlığının daha geniş tətbiqinə əlverişli şərait yaranır.

Beləliklə, cari ilin birinci yarısının ilkin iqtisadi yekunları göstərir ki, Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət mərhələsinə daxil olur. Artıq inkişaf modeli təkcə enerji gəlirlərinə deyil, həm də qeyri-neft sektorunun genişlənməsinə, rəqəmsal texnologiyalara, innovasiyalara, "yaşıl" enerji layihələrinə və beynəlxalq nəqliyyat-logistika imkanlarına əsaslanır.

Son aylarda qəbul edilmiş dövlət proqramları, iqtisadi siyasət sənədləri və qanunvericilik təşəbbüsləri göstərir ki, cari ilin ikinci yarısında iqtisadi artımın əsas hərəkətverici qüvvələri qeyri-neft sektorunun daha da genişlənməsinə, sahibkarlığın dəstəklənməsinə, investisiya fəallığının artmasına, rəqəmsal iqtisadiyyatın sürətlənməsinə və işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadi dövriyyəsinə inteqrasiya olunmasına müsbət təsir göstərəcək.

Bütün bunlar isə ekspertlər tərəfindən əsas götürülərək, 2026-cı ilin ilk yarısının gələcək onilliklər üçün formalaşdırılan yeni inkişaf arxitekturasının təməlini qoyan mərhələ kimi qiymətləndirilir. Bu strateji kurs, eyni zamanda, Azərbaycanın regional iqtisadi mərkəz kimi mövqeyini daha da gücləndirməklə yanaşı, dayanıqlı, rəqabətqabiliyyətli və innovasiya əsaslı milli iqtisadiyyatın formalaşmasına mühüm töhfə verəcəyinə möhkəm əminlik yaradır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Aqrar proqramın hədəfləri*

# İsmayıllı yeni iqtisadi yüksəlişin astanasında

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

**Yenə dağlar diyarı İsmayıllının axarlı-baxarlı vaxtı gəlib. Hər yer başdan-başa yaşıllığa bürünüb. Baxmaqla doymursan, gözlərin dincəlir. Hamı kimi, ismayıllılar da öz el-obalarını çox sevirlər. Odur ki, belə danışanda bəzən səndən inciyirlər də... Deyirlər ki, İsmayıllı nəinki indilərdə, ilin bütün fəsillərində gözəldir. Həmişə qonaqlı-qaralıdır, hətta xarici ölkələrdən buraya çoxsaylı turistlər gəlir, bu qədim torpağın hər daşını, qayasını, abidələrini ziyarət edirlər.**

Hər qarışı möcüzələrlə dolu olan İsmayıllının və onun igid övladlarının haqqında şairlər də çox yazıblar. Məsələn, ölməz Səməd Vurğun məşhur "Muğan" poemasında bu əsrarəngiz diyarı və rayonun yetirməsi olan əmək qəhrəmanı Sarvan Salmanovu böyük ilhamla vəsf edib:

***Ormanlar içində durub Talıstan,***
***Ona bir baxışla vurulur insan...***

Əslən İsmayıllının Buynuz kəndindən olan unudulmaz şairimiz Musa Yaqubun buranın hər daşını, çiçəyini sevdirən nə qədər şeiri var! Öz yurdlarını ürəkdən sevən İsmayıllının torpaq adamları haqqında bu gün də nə qədər desən, danışmaq olar. Onlar gecə-gündüz çalışır, doğma el-obanın tərəqqisi üçün əllərindən gələni edirlər. Əsas məşğulluq ünvanları isə çəkilən zəhmətin əvəzini birə-beş ödəyən torpaqdır.

Xatırladaq ki, ötən ayın 25-də Prezident İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının inkişafına həsr olunan müşavirə və bununla bağlı Dövlət Proqramının qəbul edilməsi İsmayıllının zəhmət adamlarını da çox sevindirib və daha böyük tərəqqiyə olan inamlarını artırıb. 2 həftə əvvəl isə İsmayıllıda həmin müşavirə kontekstində işgüzar müzakirələr keçirilib.

Prezidentin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov dövlətin kənd təsərrüfatı sahəsinə verdiyi önəm və bu müstəvidə təşkil olunan müşavirənin mahiyyəti, verilmiş tapşırıqlar, son illərdə ölkədə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar, dövlət dəstəyi mexanizmləri, suvarma infrastrukturunun və aqroparkların inkişafı, habelə ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilmiş nəticələr barədə məlumat verib. O, Dövlət Proqramının aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən etdiyini, proqramın əsas məqsədinin məhsuldarlığın artırılması, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi, emal və ixrac imkanlarının genişləndirilməsi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafının təmin edilməsi olduğunu vurğulayıb.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova İsmayıllıdakı çıxışında Dövlət Proqramının aqrar sahədə intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi sürətləndirəcəyini, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəyini qeyd edib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini İlham Bayramov Dağlıq Şirvan iqtisadi rayonunun aqrar inkişaf potensialının reallaşdırılmasında dayanıqlı su təminatının həlledici rol oynadığını vurğulayıb. Deyib ki, bu il Ağsu, İsmayıllı və Şamaxı rayonlarında 3,9 kilometr kanalın beton üzlüyə alınması və 3 subartezian quyusunun təmiri planlaşdırılır. Müasir və innovativ suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, rəqəmsal monitorinq və idarəetmə sistemlərinin qurulması, su uçotunun təkmilləşdirilməsi və su istifadəçiləri ilə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi əsas hədəflər kimi qabardılıb.

## Bolluğun açarı zəhmətdir

**Sözügedən regional müşavirədə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov da çıxış edib. O, bizimlə söhbətində bu barədə ətraflı danışdı:**



– May ayında Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş müşavirə və dövlət başçısının sərəncamla təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" bu gün regionumuzun strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

Regionumuz əlverişli təbii-coğrafi şəraiti, zəngin torpaq və su ehtiyatları ilə ölkəmizin aqrar xəritəsində mühüm yer tutur. Müasir yanaşmaları tətbiq etməklə bu potensialdan maksimum dərəcədə səmərəli istifadə etmək və dövlət başçısının müəyyən etdiyi strateji hədəfləri həyata keçirmək əsas vəzifəmizdir.



Bizim Dağlıq Şirvan iqtisadi rayonunun aqrar potensialından səmərəli istifadə böyük həyati əhəmiyyət daşıyır. Şaquli zonallıq üzrə dağlıq və aran ərazilər arasındakı mikroiqlim fərqləri məhsulun yetişmə dövrünü uzadır ki, bu da bazara uzunmüddətli və davamlı məhsul çıxarılmasına, nəticədə, fermerlərin gəlirlərinin optimallaşdırılmasına şərait yaradır. İsmayıllıda taxılçılıq, heyvandarlıq, arıçılıq, intensiv bağçılıq və tərəvəzçilik sahələri inkişaf edib, xüsusilə arıçılıq və meyvəçilik kənd əhalisinin özünüməşğulluğunun təmin edilməsində mühüm rol oynayır.

Göstərilən çoxşaxəli dövlət dəstəyinin məntiqi nəticəsi olaraq, son illərdə rayonumuzda kənd təsərrüfatı xeyli inkişaf edib. Ötən il 31 min hektar əkin sahəsindən 96 min ton taxıl məhsulu götürülüb. Əlbəttə, Dövlət Proqramında nəzərdə tutulan hədəflərə nail olunması üçün məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin tətbiqi və dövlət–özəl sektor əməkdaşlığının gücləndirilməsi vacibdir.

Qeyd edim ki, rayonumuzdakı "İvanovka Aqropark" ASC müasir aqrar inkişafın ən nümunəvi modelidir. Burada innovativ bağçılıq sistemləri, dayanıqlı yem bazası yaradılıb. Kənddə südçülük ənənələrinin müasir sənaye prinsipləri əsasında inkişaf etdirilməsi məqsədilə fundamental addımlar atılır. İnvestisiya dəyəri 10 milyon manat olan süd emalı zavodunun tikintisi bu ənənələri daha da gücləndirəcək. Müəssisə fəaliyyətə başladıqdan sonra ənənəvi İvanovka kərə yağının daha böyük həcmdə və müasir standartlara uyğun istehsalına, eyni zamanda, müxtəlif növ süd məhsullarının istehsalına nail olunacaq. Burada ənənəvi çeşidlərlə yanaşı, yüksək keyfiyyətli kərə yağından tutmuş, Avropa və milli tipli pendir növlərinə, qaymaq, kəsmik və digər ağartı məhsullarına qədər geniş spektrdə, minlərlə ton həcmində rəqabətqabiliyyətli məhsul istehsalı təşkil olunacaq.

Su təminatının dayanıqlığı və modern suvarma infrastrukturu aqrar sektorun inkişafını şərtləndirən fundamental amil sayılır. Dövlət başçımızın 1 aprel 2025-ci il tarixli sərəncamı ilə İvanovka kəndində əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 5 milyon manat vəsait ayrılması, eyni zamanda, qlobal iqlim dəyişiklikləri fonunda suya qənaət edən müasir sistemlərin tətbiqi, iqlimə dözümlü toxum sortlarının istifadəsi kimi prioritet hesab edilən istiqamətlər qarşıda duran əsas vəzifələrdəndir.

Bizim hədəflərimiz aydındır: Taxıl və digər bitkilərdə məhsuldarlığı elmi əsaslarla artırmaq; torpağın münbitliyini qorumaq üçün növbəli əkin sistemini genişləndirmək; meyvəçilik və üzümçülük ənənələrini qoruyaraq intensiv bağların salınmasını sürətləndirmək; tərəvəz istehsalında mütərəqqi üsulları stimullaşdırmaq; soyuducu anbarların logistik imkanlarından maksimum səmərəli istifadə etmək; su ehtiyatlarının idarə olunmasını təkmilləşdirmək və müasir qənaətcil suvarma şəbəkələrini genişləndirmək.

Dövlətin yaratdığı imkanlardan maksimum səmərəli istifadə etmək, ayrılmış resursları şəffaf və hədəfyönümlü idarə etmək bizim müştərək vəzifəmizdir. Məqsədimiz torpaqdan yüksək və keyfiyyətli məhsul götürmək, daxili bazarı qorumaq və regionumuzun aqrar şöhrətini yeni zirvəyə daşımaqdır. Bir sözlə, dövlətin təqdim etdiyi geniş imkanlardan və resurslardan şəffaf, məqsədyönlü və qənaətlə istifadə olunması təkcə dövlət qurumlarının deyil, həm də hər bir fermerin və sahibkarın üzərinə düşən vətəndaşlıq borcudur. Dövlət Proqramının uğurlu icrası, istehsalçıların qarşılaşdığı çətinliklərin operativ həlli, dövlət dəstəyi mexanizmlərinin əlçatanlığının təmin edilməsi və proseslərə effektiv nəzarət bütün tərəflərdən yüksək koordinasiya və məsuliyyət tələb edir.

## DAİM-in daimi qayğıları

**İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzi kənd təsərrüfatı işləri üzrə əsas "qərargah" sayılır. İş adamlarının, fermerlərin və mütəxəssislərin bütün çalışmaları burada rəsmiləşdirilir, hesabatlar, təkliflər hazırlanaraq lazımi ünvanlara təqdim olunur. DAİM-in direktoru Rövşən Yəhyayev məlum müşavirələr və yeni Dövlət Proqramı kontekstində cari vəziyyətin ətraflı icmalını verdi:**



– Rayonumuzun ərazisinin əksər hissəsi dağlıq və dəmyə olduğu üçün burada daha çox taxılçılıq inkişaf edib. Belə ki, 2014-cü ildə payızlıq və yazlıq dənli və dənli paxlalıların əkin sahəsi 29 min 752 hektar, məhsul istehsalı 83 min 620 ton, məhsuldarlıq 28,1 sentner olmuşdusa, ötən il bu rəqəmlər müvafiq olaraq 31 min 229 hektar, 96 min 531 ton və 30,9 sentnerə çatıb. Buna keyfiyyətli və məhsuldar toxum seçimi, qanunauyğun növbəli əkin tətbiqi, mineral gübrələrdən, pestisidlərdən düzgün və vaxtında istifadə sayəsində nail olunub. Əlbəttə, sözügedən artım son hədd deyil. Daha çox iş görmək potensialımız var. Odur ki, rayonda iri taxılçılıq və toxumçuluq təsərrüfatlarının sayını artırmaq, kooperasiyaların yaradılması istiqamətində ardıcıl işlər aparmaq əzmindəyik.

Rayon ərazisində iki müxtəlif kənddə son 5 ildə 256 hektar sahəni əhatə edən 6 pivot suvarma sistemi qurulub. Bu sahələrdə ərzaqlıq buğda və dənlik qarğıdalı əkilir. 2026-cı ilin məhsulu üçün 18726 hektar buğda, 11035 hektar arpa olmaqla cəmi 29761 hektar payızlıq dənlilər əkilmişdir. Bundan əlavə, 108 hektar yazlıq buğda və 115 hektar yazlıq arpa səpini də aparlmışdır. Ümumiyyətlə, cari ildə 18834 hektar buğda, 11150 hektar arpa biçiləcəkdir.

Son illər rayon ərazisində müasir və intensiv becərmə texnologiyalarına əsaslanan kartof əkini də genişlənmişdir. Belə sahələrin hər hektarından 30–40 ton məhsul əldə olunur. Məhsuldarlığın daha da artırılması üçün müasir texnoloji tədbirlər həyata keçirilir. Bunun üçün yeni texnika və aqreqatlar alınır, eyni zamanda, daha məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlar gətirilir. 2025-ci məhsul ilində 626 hektar kartof əkini sahəsində 9045 ton məhsul istehsal olunub və məhsuldarlıq əvvəlki ildən çox olaraq 145,3 sentnerə yüksəlib.

İsmayıllının ənənəvi sahələrindən biri də meyvəçilikdir. Rayonda mövcud 2 min 600,2 hektar meyvə bağının 500 hektarından çoxu intensiv və super intensiv bağlardır. Yeni salınan meyvə və üzüm bağlarında müasir suvarma (damcı suvarma) sistemi quraşdırılır. "Aspilad Agro" MMC əvvəlki illərdə salınmış 110 hekrat üzüm bağına müasir suvarma sistemi quraşdırıb. Ötən ilin sentyabrından indiyədək 22 kənd üzrə 11 fermer tərəfindən 28 hektar yeni intensiv meyvə bağı salınıb. 2025-ci məhsul ilində 1056 hektar bar verən meyvə bağından 10163 ton məhsul əldə edilib. Məhsuldarlıq əvvəlki ildən 5,6 sentner çox – 101,8 sentner olub.

Son illər rayonun Diyallı, Talıstan və Qoşakənd kəndlərində plantasiya formasında tərəvəzçiliyin inkişafına da diqqət göstərilir. 2025-ci təsərrüfat ilində 515 hektar tərəvəz əkini sahəsindən 5022 ton məhsul istehsal edilib və məhsuldarlıq 97,6 sentnerə çatıb.

Rayonda fəaliyyət göstərən toxumçuluq təsərrüfatları hər il yeni və məhsuldar sortlar gətirilməsini, çoxaldılaraq ilk növbədə rayon fermerlərinə satılmasını təmin edirlər. Son illər rayonun Qubaxəlilli kəndində ümumi tutumu 4 min ton olan bir, Kürdmaşı kəndində ümumi tutumu 3 min ton olan bir və Balik kəndində isə ümumi tutumu 250 ton olan üç olmaqla 5 soyuducu anbar tikilərək istifadəyə verilib. "Külüllü kənd təsərrüfatı istehsalatı" kooperativi yaradılıb, "İvanovka arıçılıq" kooperarativinin yaradılması istiqamətində işlər aparılır.

**– Bəs, istehsalının daha da artırılması üçün görülməsi zəruri olan işlər hansılardır?**

– Taxıl bitkilərinin məhsuldarlığının artırılması və ya əldə olunmuş məhsuldarlığın qorunub saxlanması əsas şərtdir. Növbəli əkinlərin tətbiq olunması ilə əlaqədar lazımi maarifləndirmə və izahat işlərini davamlı olaraq həyata keçirməliyik. Meyvəçilik rayonun ənənəvi sahəsi olduğu üçün yeni intensiv bağların salınması səngiməməlidir. Vahid sahədən daha çox məhsul götürmək üçün rayonlaşmış və daha məhsuldar toxum sortlarının yayılmasına və bütün fermerlər tərəfindən tətbiqinə nail olmalıyıq. Son illər müşahidə olunan şiddətli quraqlığın zərərli təsirini aradan qaldırmaq üçün rayonumuzun zəngin su ehtiyatlarından səmərəli istifadənin vacibliyi məhsul istehsalçılarına aşılanmalıdır.

Aqrar sahədə mövcud çətinliklər aşağıdakılardır: kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli kreditin verilməsi zamanı müvəkkil banklarla istehsalçı arasında girov şərtlərinin ağır olması; məhsullarının sığortalanmasında fermerlərin marağının az olması; subsidiyalar verilsə də, mineral gübrələrin baha olması; rayonda istehsal olunmuş bir çox kənd təsərrüfatı məhsullarının (barama, tütün, yun, gön-dəri, meyvə-tərəvəz və s.) emal müəssisələrinin olmaması; mövcud toxumçuluq təsərrüfatlarında daha məhsuldar (elit) taxıl sortlarının azlığı; istehsalda səmərəliliyin yüksəldilməsinə səbəb ola biləcək kooperativlərin təşkilinin ləngiməsi; "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC tərəfindən istehsal olumuş çoxnövlü kənd təsərrüfatı məhsullarının mərkəzləşmiş qaydada alınmaması, bəzi hallarda isə alış qiymətinin aşağı olması; ixracına ehtiyac duyulan bitkilərin əkin sahələrinin genişləndirilməsi üçün torpaq sahəsinin azlığı və ya olduqda belə təyinatının çevik şəkildə dəyişdirilməməsi.

## Yeni aqroparkın yem bazası perspektivləri

**"İvanovka Aqropark" ASC ötən ilin fevralında səhmdarların qərarı ilə təsis olunub. Qurumun icraçı direktoru Ramin Əlifov bizi təsərrüfatla tanış edərək dedi:**



– Yeni təsisatda məqsəd regionlarda məşğulluğu artırmaq və ərzaq təhlükəsizliyinə töhfə verməkdir. ASC-mizin ümumi ərazisi 7 min 600 hektardır ki, bunun da 5 min 200 hektar əkinəyararlı sahələrdir. Əsasən əkinçilik, bağçılıq üzrə ixtisaslaşmışıq, mövcud olan heyvandarlıq üzrə fəaliyyət göstəririk. Layihə dəyəri 25,1 milyon manat təşkil edir.

Qısa müddətdə fəaliyyət göstərdiyinə baxmayaraq, ASC-miz kifayət qədər uğur qazanıb. Keçən il müəssisəmizdə 17 min ton məhsul istehsal edilib, 600 tona yaxın məhsul ixrac olunub. Bu, cari ildə də planlaşdırılır. Müasir texniki aqreqatların alışı həyata keçirilib. İlk dəfə olaraq Azərbaycanda genişmiqyaslı "Raps" əkini həyata keçirilib. İxrac potensiallı məhsuldur, ixracı da planlaşdırılır.

Əsas uğurlarımızdan biri toxumçu kimi fəaliyyət göstərməyimizdir. Yerli və xarici arpa-buğda sortlarını becəririk. İstəyirik ki, müəssisənin toxum tələbatını tam ödəyək və ölkədə yüksək keyfiyyətli arpa-buğda toxumlarının satışını həyata keçirək.

Olduqca fərəhli haldır ki, dövlət başçımızın 1 aprel 2025-ci il tarixli fərmanı ilə İvanovka əkin sahələrinin suvarılması məqsədilə Prezidentin ehtiyat fondundan Su Ehtiyatları Agentliyinə ilkin mərhələdə 5 milyon manat vəsait ayrılmışdır. Layihə çərçivəsində nasosxana, 7 km 630-luq magistral su kəməri və 100 min kubluq su rezervuarının tikintisi nəzərdə tutulub.

**– Müəssisə olaraq yeni layihələr tətbiq etməyi planlaşdırırsınızmı?**

– Əlbəttə. 1000 hektar əraziyə pivot suvarma sistemləri tətbiq etmək, 500 hektar əraziyə damlama çeşidli meyvə bağlarının salınması, yeni müasir strip-till texnika və aqreqatlarının alışını həyata keçirmək fikrindəyik. Əsas məqsəd əkinçilik və yem bazası yaratmaqla mövcud heyvandarlıq təsərrüfatlarını, ət və süd məhsullarının istehsalatını inkişaf etdirməkdir. Bir istəyimiz də "Tarladan – süfrəyə" dəyər zəncirini yaratmaqdır. Başlıca hədəfimiz novativ texnalogiya tətbiqi ilə mövcud resurslara qənaət etməklə maksimum məhsuldarlıq əldə edib, iqtisadiyyat və kənd təsərrüfatında ərzaq təhlükəsizliyinə bir Aqropark olaraq öz töhfəmizi verməkdir.

Qeyd edək ki, bir neçə gün əvvəl Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) İvanovkada "Toxumçuluğun inkişafında sertifikatlaşmanın əhəmiyyəti" mövzusunda görüş keçirilib. Sahə günündə fermerlər, yerli seleksiyaçılar, toxum istehsalçıları, mütəxəssislər və media nümayəndələri iştirak ediblər. Tədbir yeni Dövlət Proqramına dair tədbirlər planının icrası çərçivəsində reallaşdırılıb. Dövlət – özəl sektor əməkdaşlığının aqrar sahəyə verdiyi töhfələr iştirakçıların diqqətinə çatdırılıb.

Qonaqlar yerli əkin sahələri və yeni sortlarla tanış olublar. Bildirilib ki, aqroparkda növbəli əkin sistemi və izolyasiya qaydalarına ciddi yanaşılır. Maraq doğuran fakt kimi vurğulanıb ki, ötən il AXA-nın xəttilə 80 min tondan çox toxum və 7 milyona yaxın ting sertifikatlaşdırılıb. Bu göstərici ölkədə toxumçuluq sahəsinin ardıcıl inkişafını, fermerlərin yüksək keyfiyyətli toxum və tinglərlə təminatının gücləndirilməsini, eləcə də aqrar sahədə məhsuldarlığın artırılması üçün həyata keçirilən tədbirlərin uğurlu nəticələrini əks etdirir.

**Rayonun Qubaxəlilli kəndindən olan fermer Müşfiq Həsənov halal zəhməti ilə ucalanlardandır. Təsərrüfatda qazandığı uğurlara görə hələ 2017-ci ildə "Tərəqqi" medalına layiq görülüb. Bizimlə söhbətində ailə təsərrüfatı barədə həvəslə danışdı:**



– Cəmi 300 hektar torpaq sahəmiz var. Bunun üçdə-ikisində toxumluq buğda yetişdiririk. Mövsüm ərzində işçi sayımız 5-dən 10-a, 15-ə qədər artır. İldə təsərrüfatımızda 500 tona qədər toxumluq buğda hasil edilir və emal olunaraq öz rayonumuzun, eləcə də ətraf rayonların fermerlərinə satılır. Fermamız da var. Orada 200 baş iribuynuzlu və 500 baş xırdabuynuzlu heyvan bəslənilir.

Giley etsəm, insafsızlıq olar. Məsələ burasındadır ki, gərək, çətinlikdən qorxmayasan. Belə olduqda çəkilən zəhmət itmir. Bizim çalışmalarımız sayəsində həm zəhmətimizin maya dəyəri ödənilir, həm də dolanacağımız təmin edilir. Dövlət başçımızın keçirdiyi məlum müşavirəni və müvafiq Dövlət Proqramının qəbulunu alqışlayırıq. İnşallah, nəzərdə tutulanlar bütünlüklə həyata keçirilər və ölkədə ərzaq bolluğu təmin edilər, ixrac potensialı artar...

Regional müşavirədə də, həmsöhbətimiz olan zəhmət adamlarının fikirlərində də belə bir möhkəm əminlik ifadə edilib ki, Dövlət Proqramının icrası Dağlıq Şirvan iqtisadi rayonunda taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlığın inkişafına, məhsuldarlığın yüksəldilməsinə, fermer təsərrüfatlarının dayanıqlılığının artırılmasına və regionun aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

**İsmayıllı**

*Aqrar proqramın hədəfləri*

# Şəmkir bolluq, bərəkət bölgəsidir

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

**Ölkəmizdə aqrar sahənin inkişafı dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır. Son illər həyata keçirilən islahatlar, fermerlərə göstərilən qayğı və diqqət, eləcə də müasir layihələr kənd təsərrüfatının inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyevin bu sahədə verdiyi mühüm tapşırıqlara uyğun olaraq aqrar sahənin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Elə Azərbaycanda kənd təsərrüfatının inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramının qəbul edilməsi də bu diqqətin bariz nümunəsidir.**



Aparılan sosial-iqtisadi siyasətin, qəbul edilmiş dövlət proqramlarının uğurlu nəticələri bütün ölkədə olduğu kimi, Qazax-Tovuz iqtisadi rayonuna daxil olan Şəmkirdə də aydın nəzərə çarpır. Elə son illərin statistik göstəriciləri də rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahədə ciddi irəliləyiş əldə olunduğunu təsdiqləyir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 3 ildə kənd təsərrüfatı məhsullarının həcminə görə lider olan Şəmkirdə ötən il 880,2 milyon manatlıq məhsul istehsal edilib ki, bu da ümumi respublika göstəricisinin 6,64 faizini təşkil edir.

Ölkəmizin ən böyük və inkişaf etmiş aqrar rayonlarından sayılan Şəmkirin əlverişli torpaq-iqlim şəraiti, zəngin təsərrüfatçılıq ənənələri və dövlət tərəfindən göstərilən davamlı dəstək nəticəsində burada kənd təsərrüfatının əksər sahələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Rayon iqtisadiyyatının əsas istiqamətlərini taxılçılıq, bağçılıq, tərəvəzçilik, istixana təsərrüfatı və heyvandarlıq təşkil edir. Bu sahələrin hər biri isə əhalinin işlə təminatında da mühüm rol oynayır.

## Bitkiçilik

Ölkəmizin qərb bölgəsində yerləşən Şəmkir rayonunun münbit torpaqları və su ehtiyatlarının zənginliyi burada taxılçılığın inkişaf etdirilməsi üçün yaxşı imkan yaradır. Ötən il rayon üzrə 14 min 298 hektar taxıl sahəsinin hər hektarından 34,6 sentner olmaqla, ümumilikdə, 49 min 503 ton məhsul yığılıb. İl ərzində təkrar əkinlər də daxil olmaqla 2 min 727 hektar sahədən 19 min 32 ton qarğıdalı, 698 hektar sahədən isə 1395 ton günəbaxan toplanıb.

2026-cı ilin məhsulu üçün rayon ərazisində, ümumilikdə, 17 min 271,3 hektar sahədə dənli bitkilər əkilib. Həmin sahələrin 13 min 909 hektarını taxıl bitkiləri təşkil edir ki, bunun da 6 min 287 hektarı buğdanın, 7 min 537 hektarı arpanın, 85 hektarı isə vələmirin payına düşür. Ümumi taxıl əkinlərinin 7 min 135 hektarı suvarılan, 6 min 774 hektarı isə dəmyə torpaqlarda yerləşir.

Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzindən aldığımız məlumata əsasən, rayonda taxıl biçini kampaniyasına iyunun 15-də start verilib. İndiyədək 1657 hektar arpa sahəsində biçin aparılıb və hər hektardan orta hesabla 36,1 sentner məhsul yığılıb. Bu göstərici fermerlərin aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə yerinə yetirməsinin, eləcə də əlverişli təbii şəraitin nəticəsi kimi qiymətləndirilə bilər. Onu da öyrəndik ki, taxıl biçininin mütəşəkkil şəkildə həyata keçirilməsi, məhsulun vaxtında və itkisiz yığılması məqsədilə Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzi, "Aqroservis" ASC və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə xüsusi qərargah yaradılıb.

Hazırda rayon ərazisində 25 kombayn fəaliyyət göstərir ki, bunun da 10-u "Aqroservis" ASC-yə, qalanları isə fiziki şəxslərə məxsus texnikalardır. Texnikaların biçin prosesinə tam gücü ilə cəlb olunması işlərin operativ və fasiləsiz şəkildə aparılmasına imkan yaradır. Artıq rayonda buğda biçininə də hazırlıq görülür. Mövcud dinamika nəzərə alınaraq biçin kampaniyasının qısa müddətdə və yüksək təşkilatçılıq şəraitində başa çatdırılacağı gözlənilir.

Rayonda taxılçılıqla yanaşı, digər strateji əhəmiyyətli bitkiçilik sahələrinin də inkişaf etdirildiyini söyləyən **Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rəşad Əzizov** bildirdi ki, fermerlər bu ilin



məhsulu üçün 2 min 356 hektar sahədə dənlik qarğıdalı səpini həyata keçiriblər. Onun sözlərinə görə, bitkilərin mövcud vəziyyəti sahələrdən yüksək məhsuldarlıq əldə ediləcəyinə inam yaradır.

**Mərkəz direktoru daha sonra dedi:**

– Sevindirici haldır ki, fermerlərimiz arpa biçini başa çatdırılmış sahələrdə təkrar qarğıdalı əkirlər. Təkrar əkinlər həm torpaqdan daha səmərəli istifadə olunmasına, həm də heyvandarlığın yem bazasının möhkəmləndirilməsinə mühüm töhfə verir. Xüsusilə dənlik və silosluq qarğıdalı istehsalının artırılması rayonumuzun heyvandarlıq təsərrüfatlarının yem təminatının yaxşılaşdırılmasına xidmət edir. Mövcud proqnozlara əsasən, mövsüm ərzində 800–1000 hektar sahədə təkrar qarğıdalı səpininin aparılması nəzərdə tutulur...

Eyni zamanda, şəmkirli fermerlər cari ilin məhsulu üçün 719 hektar sahədə günəbaxan, 213 hektar sahədə isə dən lobyası əkiblər. Həmin bitkilərin becərilməsi kənd təsərrüfatı istehsalının şaxələndirilməsi, torpaq münbitliyinin qorunması və fermerlərin gəlirlərinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Rayonda kənd təsərrüfatının ənənəvi sahələrindən biri də kartofçuluqdur. Ötən il 6 min 640 hektar sahədən 191 min 415 ton məhsul əldə edilib. Kartofçuluqda hektarın orta məhsuldarlığı 289 sentner təşkil edib ki, bu da ölkə üzrə yüksək göstəricilərdən sayılır. Bütövlükdə isə, rayonun əlverişli torpaq-iqlim şəraiti və fermerlərin zəngin təcrübəsi burada kartof istehsalının ildən-ilə inkişaf etməsinə şərait yaradır. Bu ilin məhsulu üçün suvarılan və dəmyə torpaqlarda 6 min 323 hektar sahədə kartof əkini həyata keçirilib. Əkin prosesində yüksək reproduksiyalı və sertifikatlı toxumlardan istifadə edilib ki, bu da məhsuldarlığın artırılması, xəstəlik və zərərvericilərə qarşı davamlılığın yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Son iki il ərzində rayonda müasir tələblərə cavab verən iki nümunəvi kartof toxumçuluq təsərrüfatının yaradılması da bu istiqamətdə görülən işlərin mühüm göstəricisi kimi dəyərləndirilə bilər. Hazırda fermerlər fiziki şəxs Şöhrət Qarayevə məxsus təsərrüfatda və "Alman Dağ Toxumçuluq" MMC-də yetişdirilən yüksək reproduksiyalı toxumlarından geniş istifadə edirlər ki, bu da gələcəkdə bol məhsul istehsalına təminat yaradır.

Bununla yanaşı, Şəmkirdə tərəvəzçilik və bostançılıq sahələri də sürətlə inkişaf etməkdədir. Cari ilin məhsulu üçün rayon ərazisində 13 min 60 hektar sahədə müxtəlif növ tərəvəz və bostan bitkiləri əkilib. Əkin sahələrinin genişləndirilməsi isə həm daxili bazarın keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına, həm də fermerlərin gəlirlərinin artırılmasına xidmət edir.

Bağçılıq Şəmkir rayonunun kənd təsərrüfatında xüsusi yer tutan və son illərdə sürətlə inkişaf edən sahələrdən biridir. Dövlət tərəfindən tətbiq olunan subsidiyalar, güzəştli dəstək mexanizmləri və müasir aqrotexnologiyaların tətbiqi rayonda meyvəçiliyə marağı xeyli artırıb. Bunun da nəticəsində intensiv bağların sahəsi əhəmiyyətli dərəcədə genişləndirilib. Hazırda rayon ərazisində, ümumilikdə, 6 min 621 hektar meyvə bağı mövcuddur. Həmin bağların 21 min 48 hektarında xurma, 1260 hektarında şaftalı, 513 hektarında ərik, 480 hektarında gilas, 141 hektarında alma, qalan hissələrdə isə digər müxtəlif növ meyvələr yetişdirilir.

Şəmkirin meyvə bağlarının 3 min 400 hektarı müasir suvarma sistemləri ilə təchiz olunmuş intensiv bağlardır. Burada tətbiq olunan müasir texnologiyalar məhsuldarlığın yüksəldilməsinə və istehsal xərclərinin optimallaşdırılmasına imkan yaradır. Dövlət tərəfindən verilən birdəfəlik əkin subsidiyaları nəticəsində 2024–2025-ci illərdə rayonda 600 hektardan artıq yeni bağ salınıb. Həmin bağların 550 hektarı intensiv tipli, qalan hissəsi isə ənənəvi bağçılıq təsərrüfatlarıdır. Bu göstəricilər Şəmkir rayonunda bağçılıq sahəsinin davamlı inkişaf etdiyini və gələcək illərdə daha da genişlənəcəyini göstərir.

## İstixana təsərrüfatı

Şəmkir istixana təsərrüfatlarının inkişaf səviyyəsinə görə ölkəmizin qabaqcıl rayonları sırasında öz mövqeyini qoruyub saxlayır. Təkcə onu qeyd etmək kifayətdir ki, rayon ərazisində uzun illər ərzində formalaşmış istixanaçılıq ənənələri bu sahənin dayanıqlı inkişafına və fermerlərin yüksək gəlir əldə etməsinə şərait yaradıb. Hazırda rayon ərazisindəki mövcud 1070 hektar istixana sahələrinin 873 hektarında pomidor, 197 hektarında isə xiyar yetişdirilir. 2025-ci ildə hər hektardan müvafiq olaraq 1694 sentner olmaqla 147 min 894 ton pomidor və 1254 sentner olmaqla 24 min 709 ton xiyar yığılıb.

İstixanaların fəaliyyəti məhsul istehsalı ilə yanaşı, məşğulluq problemlərinin həllinə də önəmli töhfə verir. Belə ki, hazırda Şəmkirin istixanalarında qonşu rayonların da sakinləri daxil olmaqla 10 min nəfərdən artıq işçi çalışır. Burada istehsal olunan məhsullar həm daxili bazarın tələbatının ödənilməsində, həm də ölkənin ixrac potensialının artırılmasında mühüm əhəmiyyət daşıyır. Xüsusilə pomidor istehsalı və ixracı Şəmkir fermerlərinin əsas gəlir mənbələrindən sayılır.

**Rayonun istixana təsərrüfatının inkişaf etdirilməsi istiqamətində son illər görülən işlər, bu sahədə əldə olunan yüksək nailiyyətlərlə bağlı məlumat verən DAİM rəhbəri dedi:**

– Sevindirici haldır ki, hazırda məhsul ixracı yalnız ənənəvi Rusiya bazarı ilə məhdudlaşmır, eyni zamanda, digər xarici ölkələrin bazarları ilə də əlaqələr qurulur. Bu isə istehsalçıların bazar imkanlarını genişləndirir. İstixanaçılıq sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və fermerlərin bilik və bacarıqlarının artırılması istiqamətində də mühüm addımlar atılır. Bu məqsədlə cari ilin may ayında Niderlandın aqrar təsisatlarından sayılan RONAR B.V. şirkətinin təşəbbüsü ilə rayonumuzda istixana istehsalçıları üçün ixtisaslaşdırılmış seminar təşkil edilib. Burada iştirakçılara istixana təsərrüfatlarında biotəhlükəsizlik tədbirləri, suvarma sistemlərinin səmərəli idarə olunması, suyun keyfiyyətinin qorunması, istixana gigiyenası, bitki xəstəlikləri və bakterial mənşəli problemlərə qarşı müasir mübarizə üsulları barədə geniş məlumatlar verilib.

Şəmkir rayonunda istehsal olunan kənd təsərrüfatı məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, xarici bazarlara da ixrac edilir. 2025-ci ildə 16 min 147 ton pomidor, 4 min 655 ton göyərti, 9 min 593 ton xurma, 600 ton ərik, 112 ton gilas, 122 ton alça, 195 ton nektarin, 714 ton şaftalı, 90 ton xiyar və 647 ton moruq xarici bazarlara ixrac edilib. Bu isə ölkəyə valyuta daxilolmalarının artmasına mühüm töhfə verib.

Şəmkir, həm də böyük üzümçülük və şərabçılıq ənənələrinə malikdir. Bu ənənələr indi də qorunub saxlanılır və inkişaf etdirilir. Hazırda rayonda mövcud 531 hektar üzüm bağlarının hamısı bar verən yaşdadır. 2025-ci ildə üzüm bağlarından 38 min 690 ton məhsul toplanıb.

## Aqropark

"Şəmkir Aqropark" MMC Cənubi Qafqazda aqropark formatlı ilk kənd təsərrüfatı layihəsidir. Müəssisənin logistika mərkəzinin təməli ölkə Prezidenti İlham Əliyevin 2014-cü il noyabrın 15-də Şəmkir rayonuna səfəri çərçivəsində qoyulub. 2017-ci il avqustun 20-də isə dövlət başçısının iştirakı ilə aqroparkın açılışı olub. Aqroparkın əsas strateji məqsədləri kənd təsərrüfatının inkişafı üzrə dövlət siyasətinin dəstəklənməsi, sektorun iştirakçıları üçün elmi-texniki və biznes mərkəzinə çevrilməsi, "Made in Azerbaijan" brendinin xarici bazarlarda tanıdılmasıdır. Parkın fəaliyyətinin əsasını sahibkarlara müasir texnologiyalar təklif etmək, istehlakçıları keyfiyyətli və ekoloji təmiz məhsullarla təmin etmək, eyni zamanda, kənd təsərrüfatı sahəsində innovativ xidmətlər təklif etməklə qeyri-neft sektorunun inkişafını və respublikanın ixrac potensialını artırmaqdan ibarətdir.

"Şəmkir Aqropark"ın istifadəsində əkin sahələri ilə yanaşı, maşın-tarktor parkı, saxlanma kameraları, su anbarı, nasosxana, logistika mərkəzi, müxtəlif təyinatlı anbarlar və çeşidləmə sahələri, inzibati binalar və digər infrastruktur obeyktləri var. Ötən müddətdə aqroparkın ərazisində, ümumilikdə, 166 hektar sahədə meyvə bağları salınıb. Bunların da 37 hektarı intensiv üsulla salınmış 5-8 yaşlı armud, ərik, gilas, şaftalı, heyva və gavalıdan ibarət qarışıq bağlar, 129 hektarı isə 2025-ci ildə salınmış intensiv xurma və badam bağlarıdır. Həmin bağların suvarma suyuna olan tələbatı Şəmkirçay su anbarı və Kür çayına yaxın ərazidə yerləşən 6 ədəd subartezian quyusu vasitəsilə ödənilir. Sözügedən mənbələr mövcud bağların suvarma suyuna olan tələbatının mövsüm zamanı 15-20 faizini ödəyir.

Hazırda müəssisənin istifadəsində olan 166 hektar meyvə bağlarından əlavə əkinəyararlı 343,58 hektar torpaq sahəsi də var. Aqroparkın rəhbərliyi həmin torpaq sahəsində intensiv tipli yeni meyvə bağlarının salınması ilə bağlı investisiya layihəsi hazırlayıb. Layihəyə əsasən, "Şəmkir Aqropark"ın təsərrüfat fəaliyyətinin genişləndirilməsi, istehsal həcminin artırılması və ixrac potensialının artırılması məqsədilə 344,58 hektar sahədə şaftalı-nektarin, ərik, xurma, gilas və badam bağlarının salınması, damcı suvarma sisteminin qurulması, bununla da, müəssisənin meyvə bağlarının ümumi sahəsinin 519,58 hektara çatdırılması planlaşdırılır. Yeni salınacaq bağlarda orta illik məhsul istehsalının 3 min 942 ton olacağı proqnozlaşdırılır.

**"Şəmkir Aqropark" MMC-nin direktoru Etibar Yolçuyev** bizimlə söhbət əs-



nasında təsərrüfatını inkişaf etdirmək üçün üzləşdikləri müəyyən çətinlikləri dilə gətirsə də, onların da yaxın zamanlarda aradan qaldırılacağna inandığını söylədi. O dedi:

– Kənd təsərrüfatının, xüsusilə bağçılıq sahəsinin inkişafında su resurslarının həyati əhəmiyyəti vardır. Yuxarıda qeyd etdiyim səbəblərdən aqroparkın ərazisindəki meyvə bağlarının suvarılmasında bir sıra problemlər mövcuddur. Tərəfimizdən aparılmış araşdırma nəticəsində aqroparkda mövcud olan və salınması planlaşdırılan yeni meyvə bağlarının suvarma suyu ilə təminatı üçün strateji əhəmiyyətli mənbə kimi Maşın kanalı hesab edilmişdir. Müvafiq layihə institutu tərəfindən aparılmış araşdırmaya əsasən, məlum olub ki, bağları Maşın kanalı vasitəsilə su ilə təmin etmək üçün diametri 500 mm, uzunluğu 9 kilometr olan təzyiqli boru kəmərinin tikintisinə ehtiyac var.

Aparılmış qiymətləndirməyə əsasən, layihənin reallaşdırılması üçün 10,26 milyon manat vəsaitin tələb olunduğu dəqiqləşib. Həmin vəsaitin 6,12 milyon manatının "Şəmkir Aqropark" MMC tərəfindən, 4,14 milyon manatının isə Dövlət Proqramı vasitəsilə maliyyələşdirilməsi təklif olunur. Layihə icra olunduqdan sonra yeni salınacaq meyvə bağlarında 91 daimi və 120 mövsümi iş yerinin açılması mümkün olacaq. Bu isə yerli əhalinin məşğulluq məsələlərinin həllində mühüm rol oynayacaq.

## Baramaçılıq

Baramaçılıq da rayonun kənd təsərrüfatında mövsümi xarakter daşıyan ənənəvi məşğuliyyət növlərindən biridir. Bir qədər əziyyət tələb edən baramaçılığın gəliri daha çox olduğundan son illər rayonda bu sahəyə maraq xeyli artıb.

2026-cı ilin may ayında Şəmkir kümçülərinə 190 qutu ipəkqurdu paylanıb. İndiyədək isə 992,3 kiloqram yüksək keyfiyyətli barama istehsal edilərək tədarük məntəqəsinə təhvil verilib.



## Heyvandarlıq

Ölkəmizin kənd təsərrüfatı baxımından inkişaf etmiş bölgələrindən biri olan Şəmkir rayonu heyvandarlıq sahəsində də mühüm potensiala malikdir. Hazırda rayon ərazisində 55 min 800 baş iribuynuzlu və 238 min 856 baş xırdabuynuzlu heyvan mövcuddur. Son illər heyvandarlıq sahəsində məhsuldarlığın artırılması üçün süni mayalanma tədbirlərinə xüsusi diqqət göstərilir. Ötən il sahənin mütəxəssisləri tərəfindən 1053 baş iribuynuzlu heyvan üzrə süni mayalanma aparılıb, bunun da nəticəsində 802 baş sağlam buzov əldə edilib. Həmin göstərici 2024-cü illə müqayisədə 47 baş çox olub ki, bu da damazlıq işlərinin genişləndirilməsinin nəticəsidir.

Rayonda quşçuluq sahəsi də inkişaf etməkdədir. Yeni Həyat kəndi ərazisində fəaliyyət göstərən "ELF TRADING GROUP LTD" MMC-nin quşçuluq təsərrüfatında il ərzində 910 min baş yumurtalıq və 260 min baş ətlik toyuq yetişdirilib. Hazırda müəssisənin gündəlik istehsal gücü 900 min ədəd yumurta, illik quş əti istehsalı isə 442 ton təşkil edir.

Şəmkir rayonunda kənd təsərrüfatının mühüm istiqamətlərindən birini də arıçılıq təşkil edir. İndiyədək 779 arıçı qeydiyyatdan keçərək 18 min 284 arı ailəsini elektron informasiya sistemində bəyan edib. İşğaldan azad edilmiş ərazilərə xırdabuynuzlu heyvandarlıq təsərrüfatlarının və arı ailələrinin mövsümi köçürülməsinin təşkili məqsədilə bu il 55 arıçının müraciəti elektron sistemdə qeydiyyata alınıb.

## Texnika və gübrə təminatı

Məlum olduğu kimi, yüksək məhsuldarlığın əldə edilməsində əsas amillərdən biri fermerlərin keyfiyyətli mineral gübrələr, müasir texnika və digər istehsal vasitələri ilə təmin olunmasıdır. Şəmkir rayonunda da dövlət tərəfindən bu istiqamətdə həyata keçirilən mühüm dəstək tədbirləri öz müsbət nəticələrini verməkdədir. Rəşad Əzizov bildirdi ki, rayonda fəaliyyət göstərən gübrə satış məntəqələri fermerlərin tələbatının ödənilməsinə imkan yaratmaqla yanaşı, kənd təsərrüfatı texnikalarına çıxışı daha da asanlaşdırıb. Onun sözlərinə görə, dövlət subsidiyaları, bir sıra güzəşt mexanizmləri və aqrar sahəyə göstərilən hərtərəfli diqqət fermerlərin istehsal imkanlarının genişlənməsinə, məhsuldarlığın yüksəldilməsinə və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verir.

Rayonda məhsul istehsalı çoxaldıqca, soyuducu anbarların quraşdırılmasına da diqqət artırılır. Belə ki, soyuducu anbarların tikilməsi üçün şərtlərin asanlaşdırılması fermerlərdə bu sahəyə marağı xeyli gücləndirib. Elə hazırda Şəmkir rayonu üzrə ümumi həcmi 30 min tondan çox olan soyuducu anbarlarının mövcudluğu da bu amili təsdiqləyir.

## Təlimlər, təşviqlər

Şəmkirli fermerlərin aqrar sahədə bilik və bacarıqlarının artırılması, müasir kənd təsərrüfatı təcrübələrinin tətbiqinin təşviqi və maarifləndirmə işinin gücləndirilməsi məqsədilə mütəmadi görüşlər, təlimlər və maarifləndirici tədbirlər təşkil edilir. Bu tədbirlər həm Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzi, həm də Kənd Təsərrüfatı Nazirliyinin aidiyyəti qurumları tərəfindən həyata keçirilir, fermerlərə kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə aktual məlumatlar çatdırılır, metodiki tövsiyələr verilir və qarşılıqlı fikir mübadiləsi aparılır.

Rayonun kənd təsərrüfatı istehsalçılarının peşəkar biliklərinin artırılmasına, innovativ yanaşmaların mənimsənilməsinə və istehsal fəaliyyətinin daha səmərəli təşkilinə töhfə vermək məqsədi daşıyan belə tədbirlərin əhəmiyyətini vurğulayan Şəmkir Aqrar İnkişaf Mərkəzinin direktoru R.Əzizov bildirdi ki, fermer və fərdi təsərrüfat sahibləri ilə mütəmadi əlaqələrin qurulması, onların fəaliyyətində qarşıya çıxan məsələlərin operativ şəkildə həllinə dəstək göstərilməsi və aqrar sahədə məlumatlılıq səviyyəsinin artırılması üçün maarifləndirmə işi davamlı olaraq həyata keçirilir. Bu istiqamətdə fermerlərə informasiya-məsləhət xidmətləri göstərilir, müasir aqrar yanaşmalar barədə məlumatlar təqdim olunur...

Ümumilikdə isə, Şəmkirdə müşahidə etdiklərimizdən, xüsusən də ayrı-ayrı təsərrüfat başçıları ilə söhbətlərimizdən bir daha aydın oldu ki, taxıl biçini kampaniyasının mütəşəkkil şəkildə həyata keçirilməsi, strateji əhəmiyyətli bitkilərin əkin sahələrinin genişləndirilməsi, təkrar əkinlərin təşviqi, intensiv bağçılığın, eləcə də heyvandarlığın inkişafına göstərilən dövlət dəstəyi rayonun aqrar potensialının daha da güclənməsinə imkan yaradır. Məqalədə sadaladığımız fakt və göstəricilər cari ildə də yüksək məhsul əldə olunacağını və Şəmkir rayonunun ölkənin ərzaq təhlükəsizliyinin təminatında mühüm rolunu davam etdirəcəyini deməyə əsas verir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Şəmkir**

*Təqvim yada salır*

# Dünya şöhrətli Azərbaycan genetiki

## *Akademik Cəlal Əliyevin fundamental elmə və qlobal ərzaq təhlükəsizliyinə töhfələri*

**Böyük alim və ictimai-siyasi xadim, milli biologiya elminin görkəmli simalarından biri olan akademik Cəlal Əlirza oğlu Əliyev 30 iyun 1928-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmışdır. Alimin həyat yolu, fundamental tədqiqatları, yaratdığı buğda sortları və elmi məktəbi Azərbaycanın intellektual inkişafına, milli elmi potensialın formalaşmasına, eləcə də dünya biologiya elminə əhəmiyyətli töhfələr vermişdir.**

Biologiya elminin müasir inkişaf mərhələsinə və qlobal çağırışlarına Cəlal Əliyevin elmi irsi prizmasından nəzər saldıqda fundamental elmi düşüncənin zaman və məkan sərhədlərini aşan gücü aydın görünür. Biologiya elminin əsas istiqamətləri, yeni texnoloji imkanları və qarşıdakı perspektivləri fonunda akademik Cəlal Əliyev zirvəsindən baxış XXI əsrin mühüm problemlərindən biri olan ərzaq təhlükəsizliyinin elmi əsaslarının qiymətləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır.

XXI əsrdə biologiya elmi fundamental dəyişikliklər mərhələsinə qədəm qoymuşdur. Canlı sistemlərin öyrənilməsi zamanı genomiks, transkriptomiks, proteomiks, metabolomiks, böyük verilənlərin analizi və süni intellekt texnologiyaları biologiyanın tədqiqat metodologiyasını yeni səviyyəyə yüksəltmişdir. Genomiks və digər çoxsəviyyəli bioloji məlumatların süni intellekt vasitəsilə təhlili dayanıqlı kənd təsərrüfatının inkişafında və qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm elmi alətə çevrilmişdir.

Bu yanaşmalar yeni sortların yaradılmasını sürətləndirir, bioloji ehtiyatlardan səmərəli istifadəyə və dəyişən ekoloji şəraitə uyğun bitki formalarının seçilməsinə və yaradılmasına imkan yaradır. Məhz bu baxımdan, bütün şüurlu ömrünü elmə həsr etmiş, yüksək elmi prinsipiallıq, fundamental biliklərə sədaqət və yaradıcı axtarış nümunəsi göstərmiş akademik Cəlal Əliyevin irsi müasir biologiyanın inkişaf istiqamətləri ilə dərin uyğunluq təşkil edir.

Akademik Cəlal Əliyevin irsi Azərbaycanda fiziki-kimyəvi biologiya sahəsinin inkişafı, molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, bioinformatika və rəqəmsal biologiya kimi müasir istiqamətlərin formalaşması ilə sıx bağlıdır. Onun fotosintezin molekulyar əsasları və bitki məhsuldarlığının bioloji mexanizmləri üzrə fundamental tədqiqatları, yaratdığı elmi məktəb dünya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Alim hələ illər öncə biologiya və aqrar elmlərdə riyazi modelləşdirmə, kompüter yanaşmaları və rəqəmsal texnologiyaların tətbiqinin vacibliyini vurğulamış, elmin gələcək inkişaf xəttini qabaqcadan müəyyənləşdirmişdir. Bu gün Azərbaycanda rəqəmsallaşma və süni intellektin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunması, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyində və 2026-cı il yanvar ayının 6-da mətbuata verdiyi müsahibədə bu sahələrin əhəmiyyətini xüsusi qeyd etməsi həmin strateji baxışların müasir mərhələdə davam etdiyini göstərir.

Ölkəmizdə “yaşıl inqilab” yanaşmalarının elmi əsaslarının formalaşmasına və tətbiqinə akademik Cəlal Əliyev mühüm töhfələr vermişdir. Onun formalaşdırdığı elmi mühit Azərbaycanda innovativ düşüncə tərzinin və elmə əsaslanan inkişaf yanaşmasının möhkəmlənməsinə mühüm təsir göstərmişdir.

Həyat və elmi fəaliyyətinin mühüm mərhələləri ilə sıx bağlı olan AMEA-nın elmi potensialının gücləndirilməsində, prioritet tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində və milli elmi məktəblərin inkişafında alimin rolu daim qədirbilənliklə yad edilir. 1981-1990-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Biologiya Elmləri Bölməsinin akademik-katibi kimi fəaliyyət göstərən akademik Cəlal Əliyev elmi prioritetlərin müəyyənləşdirilməsi, fundamental tədqiqatların inkişafı və onların praktik nəticələrə yönəldilməsi istiqamətində mühüm addımlar atmışdır. Onun rəhbərliyi dövründə bölmə və onun institutlarının beynəlxalq əlaqələri genişlənmiş, xarici elmi mərkəzlərlə əməkdaşlıq yeni səviyyəyə yüksəlmiş və gənc tədqiqatçıların qlobal elmi mühitə inteqrasiyası üçün geniş imkanlar yaranmışdır.

Dünya şöhrətli bioloqun elmi fəaliyyəti, ictimai və vətəndaşlıq mövqeyi müstəqil Azərbaycan dövlətinin ideya və intellektual əsaslarının möhkəmlənməsinə də mühüm töhfələr vermişdir. Cəlal müəllim elm və dövlətçilik düşüncəsini birləşdirən, milli inkişaf strategiyasının elmi əsaslarının formalaşmasına xidmət edən görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Dövlət müstəqilliyinin möhkəmləndiyi mühüm tarixi mərhələlərdə akademik Cəlal Əliyev daim ümummilli lider Heydər Əliyevin yanında olmuş, prinsipial mövqeyi və ictimai fəaliyyəti ilə seçilmiş, milli maraqların və dövlətçilik dəyərlərinin qorunması üçün əlindən gələni etmişdir.

Alimin elmi fəaliyyətinin ən mühüm nəticələrindən biri fundamental biologiya biliklərinin aqrar elm və kənd təsərrüfatı ilə əlaqələndirilməsi olmuşdur. Fotosintez prosesinin, bitki fiziologiyasının və məhsuldarlığın bioloji əsaslarının öyrənilməsi istiqamətində apardığı tədqiqatlar yüksək məhsuldar və davamlı buğda sortlarının yaradılmasına elmi zəmin yaratmışdır.



Akademik fotosintez və fototənəffüs kimi mürəkkəb bioloji proseslərin mahiyyətinə fundamental yanaşma ilə nüfuz etmiş, əldə etdiyi nəticələrlə dünya biologiyasının inkişafına mühüm töhfələr vermişdir. Onun ən möhtəşəm elmi nailiyyətlərindən biri fototənəffüs prosesinə yeni baxışın formalaşdırılması olmuşdur. Çoxillik fundamental və tətbiqi tədqiqatlar nəticəsində Cəlal Əliyev fototənəffüsün bitki üçün “itki” yaradan mexanizm deyil, həyat fəaliyyətinin və metabolik tarazlığın təmin olunmasında mühüm rol oynayan zəruri proses olduğunu elmi əsaslarla göstərmişdir. Bu yanaşma məhsuldarlığın yalnız fotosintezin intensivliyi ilə deyil, həm də bitkidə gedən mürəkkəb fizioloji proseslərin qarşılıqlı əlaqəsi ilə müəyyənləşdiyini ortaya qoymuşdur.

Seleksiyaçı akademikin irəli sürdüyü “yaxşı fotosintez” konsepsiyası bitkilərin məhsuldarlıq potensialının artırılmasına yönəlmiş yeni elmi yanaşmaların əsasını təşkil etmişdir. Onun multidissiplinar tədqiqat strategiyası molekulyar, fizioloji və aqroekoloji səviyyələri vahid sistemdə birləşdirərək bitkilərin məhsuldarlığının idarə olunmasına yeni baxış formalaşdırmışdır.

Cəlal müəllimin elmi irsi göstərir ki, fotosintez daim inkişaf edən, yeni metodoloji yanaşmalar tələb edən mürəkkəb bioloji sistemdir. Onun tədqiqatları bu sahənin “tam öyrənilmiş” istiqamət kimi qəbul edilməsinin elmi baxımdan doğru olmadığını sübut etmiş, müasir biologiyanın gələcək inkişafı üçün yüksək dəyərli konseptual baza yaratmışdır.

Akademik Cəlal Əliyevin elmi fəaliyyətində nəzəri biliklərin praktik nəticələrə çevrilməsi xüsusi yer tuturdu. O, biologiyanın fundamental qanunauyğunluqlarını kənd təsərrüfatının real ehtiyacları ilə əlaqələndirərək, yüksək məhsuldarlığa, keyfiyyətə və ekoloji dayanıqlılığa malik bitki sortlarının yaradılmasını gələcəyə hesablanmış elmi strategiyanın əsas istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu elmi dünyagörüşünün mühüm mərhələlərindən biri 1971-ci ildə müdafiə etdiyi “Bitkilərin fotosintez fəaliyyəti, mineral qidalanması və məhsuldarlığı” mövzusunda doktorluq dissertasiyası olmuşdur.

Genetik müxtəlifliyin qorunması və məqsədyönlü istifadəsi alimin seleksiya sahəsində əsas elmi prinsiplərindən biri idi. O, yüksək məhsuldarlıqlı sortların yaradılmasının zəngin və müxtəlif genetik material bazasının mövcudluğundan asılı olduğunu elmi baxımdan əsaslandırmışdır. Məhz bu yanaşmanın nəticəsi olaraq, Azərbaycanda müxtəlif coğrafi mənşəyə, bioloji xüsusiyyətlərə və təsərrüfat əhəmiyyətinə malik minlərlə buğda nümunəsini əhatə edən zəngin genetik ehtiyat bazası formalaşdırılmışdır. Milli genefondun formalaşdırılması strategiyasının praktiki ifadəsi kimi Qobustan Bölgə Təcrübə Stansiyasında yaradılmış canlı tarla buğda kolleksiyası xüsusi elmi əhəmiyyət daşıyır.

Alimin elmi strategiyasının mühüm xüsusiyyətlərindən biri Azərbaycan aqrar elminin beynəlxalq elmi məkanla inteqrasiyasına verdiyi töhfələr olmuşdur. Onun təşəbbüsü ilə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Məşvərət Qrupuna (CGIAR) daxil olan aparıcı elmi mərkəzlərlə qurulan əməkdaşlıq genetik ehtiyatların öyrənilməsi, seleksiya imkanlarının genişləndirilməsi və müasir tədqiqat metodlarının tətbiqi üçün yeni perspektivlər yaratmışdır. Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəz (ICARDA), Buğda və Qarğıdalının Yaxşılaşdırılması üzrə Beynəlxalq Mərkəz (CİMMYT) və s. bu kimi təşkilatlarda Cəlal müəllimə müdrik elm ağsaqqalı kimi hörmət edir, onunla hesablaşırdılar.

Təşəbbüskar alim fundamental araşdırmaları ilə yanaşı, elmin təşkili və idarə olunması sahəsində də böyük xidmətləri olan görkəmli alim idi. 1976-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1980-ci ildə isə həqiqi üzvü seçilməsi onun elmi nüfuzunun göstəricisi olmaqla yanaşı, biologiya elminin inkişafında daha geniş və məsuliyyətli mərhələnin başlanğıcı olmuşdur.

Cəlal Əliyevin elm təşkilatçısı kimi ən böyük xidmətlərindən biri müasir biologiyanın strateji istiqamətlərini özündə birləşdirən elmi institutlaşma modelinin formalaşdırılması olmuşdur. Bu xətt ölkədə molekulyar biologiya, biotexnologiya və əlaqəli sahələrin inkişafı üçün möhkəm elmi baza yaratmışdır. Bu proses hələ 1971-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Botanika İnstitutunda yaradılmış kiçik elmi qrupla başlamış, zaman keçdikcə laboratoriyalara, daha sonra isə məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları istiqamətində fəaliyyət göstərən böyük elmi struktura – şöbəyə çevrilmişdir.

2014-cü ildə AMEA-nın qərarı ilə həmin elmi bazada Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılması akademik Cəlal Əliyevin elmi strategiyasının məntiqi nəticəsi idi. 2016-cı ildən müstəqil fəaliyyət göstərən institut sonrakı illərdə müasir istiqamətlərdə beynəlxalq səviyyəli tədqiqat platformasına çevrilmişdir.

2025-ci ildə elmi fəaliyyətin daha səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun, Mikrobiologiya İnstitutunun və Biofizika İnstitutunun bazasında “Molekulyar Biologiya İnstitutu” publik hüquqi şəxsin yaradılması bu elmi irsin yeni mərhələdə davamını təmin etmişdir. Yeni struktur müasir idarəetmə prinsipləri, multidissiplinar tədqiqat yanaşmaları və beynəlxalq əməkdaşlıq imkanları əsasında fəaliyyətini quraraq akademik Cəlal Əliyevin formalaşdırdığı elmi ənənələri müasir çağırışlarla uzlaşdırmaqdadır.

Alimin formalaşdırdığı elmi məktəbin müasir mərhələdə əsas inkişaf istiqamətlərindən biri Molekulyar Biologiya İnstitutunun beynəlxalq elmi əlaqələrinin genişlənməsi ilə bağlıdır. İnstitutun beynəlxalq əməkdaşlıq coğrafiyası Avropa, Amerika və Asiyanın nüfuzlu elmi qurumlarını əhatə edir. Kembric, Oksford, Delaver, Pusan Milli universitetləri, Fransanın elmi-tədqiqat mərkəzləri, İtaliya, Almaniya, Türkiyə, Rusiya, Ukrayna, Belarus və digər ölkələrin aparıcı elmi müəssisələri ilə əlaqələr elmi mübadilə, birgə layihələr və yeni tədqiqat istiqamətlərinin inkişafına xidmət edir. Bu əməkdaşlıqlar sırasında Almaniyanın Osnabruk Tətbiqi Elmlər Universiteti və Maks Plank Təkamül Antropologiyası İnstitutu ilə imzalanmış anlaşma memorandumları xüsusi əhəmiyyət daşıyır.

İnstitutun beynəlxalq elmi məkanda iştirakının mühüm göstəricilərindən biri də “Transactions of the Institute of Molecular Biology and Biotechnologies” (TIMBB) jurnalının fəaliyyətidir. Resenziyalı, açıq çıxışlı bu nəşr əlaqəli istiqamətlər üzrə müasir tədqiqatların təqdim edildiyi beynəlxalq elmi platformaya çevrilmişdir. Jurnalın redaksiya heyətində müxtəlif ölkələri təmsil edən tanınmış alimlərin, o cümlədən Nobel mükafatı laureatı, AMEA-nın fəxri üzvü professor Əziz Səncərın iştirakı onun elmi nüfuzunun və beynəlxalq əlaqələrinin göstəricisidir. Sevindirici haldır ki, son illərdə böyük inkişaf yolu keçmiş jurnalın SCOPUS beynəlxalq indeksləmə bazasına daxil edilməsi reallaşmaq üzrədir.

İnstitutun elmi əlaqələri yalnız əməkdaşlıq müqavilələri ilə məhdudlaşmır, həm də qlobal elmi dialoqun inkişafına yönəlmiş tədbirlər vasitəsilə genişlənir. Türkiyənin Dokuz Eylül Universiteti, Özbəkistanın elmi qurumları və s. ilə birgə keçirilən beynəlxalq seminar, görüş və müzakirələr yeni ideyaların mübadiləsinə, gənc tədqiqatçıların beynəlxalq elmi mühitə inteqrasiyasına imkan yaradır.

Azərbaycanda kənd təsərrüfatının inkişafı, məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi və ərzaq təminatının gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin 25 may 2026-cı ildə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə aqrar sahənin qarşısında duran vəzifələri müəyyənləşdirərkən məhsuldarlığın yüksəldilməsi, resurslardan səmərəli istifadə, müasir texnologiyaların tətbiqi, daxili istehsal imkanlarının genişləndirilərək ixracdan asılılığı aradan qaldırmaq kimi məsələləri xüsusi vurğulaması bu istiqamətin strateji əhəmiyyətini bir daha göstərir. Bu baxımdan da akademik Cəlal Əliyevin fundamental tədqiqatları ilə formalaşdırdığı “elm – texnologiya – praktiki nəticə” yanaşması müasir aqrar siyasətin elmi əsasları ilə səsləşir və bu gün də böyük alim və müəllimin yaratdığı elmi məktəbin inkişaf istiqamətlərini müəyyənləşdirir.

Elmdə bu baxışın müasir təzahürlərindən biri 12 iyun 2025-ci il tarixində Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Əkinçilik Elmi-Tədqiqat İnstitutu, Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəz (ICARDA), Almaniya Federativ Respublikasının Osnabrük Tətbiqi Elmlər Universitetinin Bitkilərin Seleksiyası Departamenti və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilmiş “Rəqəmsal və GWAS əsaslı texnologiyaların tətbiqi ilə buğdanın yaxşılaşdırılması” mövzusunda beynəlxalq elmi konfrans olmuşdur. Tədbirin davamı olaraq 13 iyun tarixində AR KTN Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında keçirilən tarla seminarında əldə edilmiş elmi nəticələrin praktik tətbiq imkanları nümayiş etdirilmişdir.

Akademik Cəlal Əliyevin elmi ideyalarının alternativ enerji, genomiks və rəqəmsal texnologiyalar əsasında yeni istiqamətlərdə inkişaf etdirilməsi 2025-ci il 15-17 oktyabrda Bakıda keçirilən “Enerji, qida, ətraf mühit və iqlim təhlükəsizliyi sahəsində çağırışlar” mövzusunda beynəlxalq konfransda da öz əksini tapmışdır. Konfrans çərçivəsində keçirilən növbəti “Cəlal Əliyev qiraətləri” xüsusi elmi və mənəvi əhəmiyyət daşıyan tədbirlərdən biri olmuşdur. Artıq ənənəyə çevrilmiş bu elmi platforma akademikin irsinin beynəlxalq elmi mühitdə yaşadılmasına, onun fundamental ideyalarının yeni tədqiqat istiqamətləri ilə əlaqələndirilməsinə xidmət edir. Qiraətlər çərçivəsində Koreya Respublikasının Soqanq Universitetinin Bitki Gen Tənzimlənməsi laboratoriyasının müdiri professor Byeong-ha Lee “Bitkilərdə abiotik streslərə davamlılığın artırılması strategiyaları” mövzusunda məruzə ilə çıxış etmişdir.

Ərzaq təhlükəsizliyinin təmin olunması, iqlim dəyişiklikləri şəraitində kənd təsərrüfatı sistemlərinin dayanıqlılığının artırılması və yeni seleksiya texnologiyalarının tətbiqi istiqamətində aparılan elmi fəaliyyətlər bu gün də ardıcıl şəkildə davam etdirilir. Bu baxımdan 16 iyun 2026-cı ildə AR ETN Molekulyar Biologiya İnstitutu və AR KTN Əkinçilik Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə Qobustan Bölgə Təcrübə Stansiyasında keçirilmiş “Quraq ərazilərdə buğdanın seleksiyası üçün süni intellekt və yüksək fenotipləmə platformaları” mövzusunda beynəlxalq tarla seminarı xüsusi əhəmiyyət daşıyır.

Xarici alimlərin və beynəlxalq təşkilat nümayəndələrinin iştirakı ilə keçirilən bu tədbir müasir rəqəmsal texnologiyaların, süni intellekt alətlərinin və yüksək dəqiqlikli fenotipləmə metodlarının aqrar tədqiqatlara inteqrasiyasını nümayiş etdirən mühüm elmi platformaya çevrilmişdir. Seminarın davamı olaraq, 17 iyun tarixində Almaniyanın Osnabruk Tətbiqi Elmlər Universitetinin professoru Ali Nazın Molekulyar Biologiya İnstitutunda “Qlobal ərzaq təhlükəsizliyində fenotip-genotip əlaqəsi” mövzusunda təqdim etdiyi məruzə müasir biologiya və seleksiya elminin əsas istiqamətlərinə həsr olunmuş mühüm elmi müzakirələrdən biri olmuşdur.

Elm fədaisi Cəlal Əliyev üçün elm və təhsil vahid inkişaf sisteminin ayrılmaz hissələri idi. Onun rəhbərliyi ilə formalaşan elmi məktəbdə müxtəlif sahələrdən olan istedadlı gənclər – bioloqlar, kimyaçılar, fiziklər, riyaziyyatçılar və aqrar sahə üzrə mütəxəssislər biologiya elminin müasir istiqamətləri üzrə yetişdirilmiş, fundamental tədqiqatlarla kadr hazırlığı üzvi şəkildə əlaqələndirilmişdir. Akademik, təxminən, 300 yüksəkixtisaslı mütəxəssis, o cümlədən elmi rəhbər və məsləhətçi kimi 15 elmlər və 81 fəlsəfə doktoru hazırlamışdır. Onun davamçıları bu gün Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Yaponiya, Cənubi Koreya, Avstraliya, İsveç, Kanada, Almaniya və digər ölkələrin aparıcı universitet və elmi mərkəzlərində fəaliyyət göstərərək Azərbaycan elmini beynəlxalq səviyyədə təmsil edirlər.

Unudulmaz alimin elmi fəaliyyətinin əsasını təşkil edən ideyalar, nəzəri yanaşmalar və fundamental tədqiqatlar tək milli biologiya elminin deyil, dünya biologiyasının inkişafına da mühüm töhfələr vermişdir. Onun zəngin elmi irsi 800-ə yaxın elmi əsərdə, o cümlədən 25 fundamental monoqrafiya və kitabda öz əksini tapmışdır.

Böyük alimin dünya elmi məkanındakı nüfuzunun mühüm göstəricilərindən biri Beynəlxalq Fotosintez Cəmiyyətinin (ISPR) onun şərəfinə “The Jalal Aliyev Lecture Award” mükafatı və medalını təsis etməsidir. Bu qərar akademik Cəlal Əliyevin fotosintez elminə verdiyi fundamental töhfələrin beynəlxalq səviyyədə tanındığını və Azərbaycan elmi məktəbinin qlobal məkanda tutduğu mövqeyi nümayiş etdirir. Fotosintez tədqiqatları sahəsində aparıcı alimlərə artıq iki dəfə təqdim edilmiş bu nüfuzlu mükafat akademik Cəlal Əliyevin elmi ideyalarının yeni nəsil tədqiqatçılar üçün davamlı ilham mənbəyi olduğunu göstərir.

Bu gün akademik Cəlal Əliyevin ideyaları, elmi baxışları və milli inkişaf naminə göstərdiyi xidmətlər öz real nəticələrində yaşayır. Onun bütün ömrü boyu xidmət etdiyi elm, kənd təsərrüfatı və insan rifahı naminə formalaşdırdığı yanaşmalar müasir Azərbaycanın strateji hədəfləri ilə tam səsləşir. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyaraq ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş, güclü dövlət institutları, dinamik iqtisadiyyat və müasir texnoloji yanaşmalar əsasında gələcəyə inamla irəliləyir.

Bu yüksəliş prosesində elmə, innovasiyaya və insan kapitalına verilən dəyər xüsusi əhəmiyyət daşıyır. Akademik Cəlal Əliyevin yaratdığı elmi məktəb, onun adı ilə bağlı olan Molekulyar Biologiya İnstitutu və yetişdirdiyi alimlər bu gün də Azərbaycan elminin inkişafına töhfə verməkdə davam edir. Böyük alimin arzuladığı elmə söykənən, milli maraqlara xidmət edən və dünya elmi məkanında layiqli yer tutan Azərbaycan modeli məhz bu istiqamətdə formalaşır.

Alimin elmi irsi gələcəyə istiqamət verən canlı bir elmi və intellektual xəzinədir. Onun fundamental ideyaları, yaratdığı məktəb və yetişdirdiyi davamçılar Azərbaycanın elmi potensialının bundan sonra daha da güclənməsinə xidmət edəcəkdir.

Cəlal Əliyevin ömür yolu göstərdi ki, həqiqi elm insan ömrü ilə məhdudlaşmır, ideyalarda, yetişdirilən nəsillərdə və cəmiyyətin inkişafına çevrilən nəticələrdə yaşayır. Onun yandırdığı elm çırağı bu gün yeni nəsil alimlərin fəaliyyəti ilə daha da işıqlanır və Azərbaycan elminin gələcək uğurlarına yol göstərir.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***akademik***

*“Xalq qəzeti”nin nəşri*

# I Bakı Türkoloji Qurultayının tarixi dəyəri və dərsləri

*(əvvəli 1-ci səhifədə)*

Cəmi 8 gün davam edən möhtəşəm toplantı, əslində, bütöv bir əsrin düşüncə və ideya istiqamətlərinə təsir edən hadisəyə çevrildi. 100 il sonra onun doğurduğu elmi və mədəni rezonans daha da hiss olunmaqdadır.

Qurultay yalnız görünən tərəfləri ilə deyil, həm də dərin və bəzən gizli qalan ağrılı tərəfləri ilə də xüsusi əhəmiyyət daşıyır. O, türkologiya elminin sistemli inkişafına təkan verməklə yanaşı, türk xalqları arasında mədəni və mənəvi yaxınlaşmanın güclənməsində mühüm rol oynadı. 20-dən çox türk xalqının və başqa xalqların nümayəndələrinin qatıldığı toplantıda ortaq əlifba məsələsi – xüsusilə latın qrafikasına keçid ideyası, dil və ədəbiyyatın inkişafı, elmi əməkdaşlığın genişləndirilməsi kimi vacib mövzular geniş müzakirə edildi.

Qəbul edilən qərarlar təkcə elmi müstəvidə deyil, həm də ideoloji və mədəni sahədə yeni mərhələnin başlanğıcını qoydu. Bu baxımdan I Türkoloji Qurultay türk xalqlarının milli özünüdərkinin möhkəmlənməsində, ortaq kimlik şüurunun formalaşmasında mühüm dönüş nöqtəsi kimi tarixdə öz yerini qoruyub saxlayır.

1926-cı ildə keçirilən I Türkoloji Qurultay yalnız elmi müzakirələrlə deyil, həm də həmin ildə çəkilən “Birinci Türkoloji Qurultay” sənədli filmi ilə tarixə həkk olundu. Azərbaycan kinematoqrafiyasının ilk sənədli nümunələrindən sayılan bu ekran əsəri, türkologiya sahəsində beynəlxalq miqyaslı ilk toplantını əbədiləşdirərək Səməd ağa Ağamalıoğlu, Əli bəy Hüseynzadə, Fuad Köprülü, Xalid Səid Xocayev, Teodor Menzel, Bəkir Çobanzadə, Əziz Qubaydulin, Həbib Cəbiyev, Hüseyn Cavid, Fərhad Ağazadə kimi simaları da canlı şəkildə gələcəyə ötürdü.

Lakin sovet hakimiyyətinin ideoloji siyasəti nəticəsində I Türkoloji Qurultayın elmi və ictimai əhəmiyyəti uzun illər kölgədə saxlanıldı. Qurultayda qəbul edilən qərarlar, xüsusilə türk xalqlarının dil, əlifba və mədəni inteqrasiyasına dair irəli sürülən ideyalar pantürkizm kimi qiymətləndirilərək tənqid olundu. Qurultayın bir çox iştirakçıları 1930-cu illərin siyasi repressiyalarının qurbanına çevrildi, onların elmi irsi uzun müddət araşdırılmadı, adlarının çəkilməsi belə məhdudlaşdırıldı. Bu səbəbdən I Türkoloji Qurultay onilliklər ərzində elmi dövriyyədən kənarda qaldı və onun tarixi əhəmiyyəti obyektiv şəkildə qiymətləndirilmədi.



1970-ci ildən etibarən türkoloji elmdə baş verən müəyyən canlanma nəticəsində qurultayın fəaliyyətinə yenidən maraq göstərilməyə başlandı. Tədqiqatçılar bu mötəbər elmi toplantının XX əsrin əvvəllərində türk xalqlarının ortaq elmi düşüncəsinin formalaşmasında, türkologiyanın inkişafında və dilçilik elminin mühüm istiqamətlərinin müəyyənləşdirilməsində oynadığı rolu daha obyektiv şəkildə araşdırmağa başladılar. Bununla da qurultay tədricən elmi yaddaşa qaytarıldı və onun irsi yenidən qiymətləndirildi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra I Türkoloji Qurultaya münasibət tamamilə yeni məzmun qazandı. Qurultay artıq yalnız tarixi hadisə kimi deyil, Azərbaycanın elmi fikir tarixinin, milli-mədəni irsinin və Türk dünyasının inteqrasiya proseslərinin mühüm mərhələsi kimi dəyərləndirildi. Bu istiqamətdə dövlət səviyyəsində ardıcıl tədbirlər həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ildə I Türkoloji Qurultayın 80 illiyinin, 2016-cı ildə isə 90 illiyinin qeyd olunması ilə bağlı imzaladığı sərəncamlar Qurultayın irsinin öyrənilməsinə və təbliğinə təkan verdi. Həmin sərəncamlara uyğun olaraq respublikada və xarici ölkələrdə beynəlxalq elmi konfranslar, simpoziumlar, sərgilər və müxtəlif elmi tədbirlər təşkil olundu, qurultayın materialları yenidən nəşr edildi, onun iştirakçıları və qəbul etdiyi qərarlar haqqında yeni tədqiqat əsərləri işıq üzü gördü.

Bu tədbirlər I Türkoloji Qurultayın təkcə Azərbaycan elmi üçün deyil, bütövlükdə Türk dünyasının ortaq elmi və mədəni irsi baxımından əhəmiyyətini bir daha təsdiqlədi. Eyni zamanda, türk xalqları arasında dil, əlifba, tarix, mədəniyyət və elmi əməkdaşlığın inkişafına, ortaq mənəvi dəyərlərin qorunmasına və türkologiya sahəsində yeni tədqiqat istiqamətlərinin formalaşmasına mühüm töhfə verdi. Bu gün Birinci Türkoloji Qurultay XX əsr türkoloji fikir tarixinin ən mühüm elmi hadisələrindən biri kimi qiymətləndirilir və onun ideyaları Türk dünyasında elmi-mədəni inteqrasiyanın inkişafı baxımından aktuallığını qoruyub saxlayır.




Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışı zamanı 2026-cı ildə I Türkoloji Qurultayın 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunmasını irəli sürərək bu mötəbər hadisəyə yeni məna qazandırdı. 22 oktyabr 2025-ci il tarixli sərəncamla yubileyin rəsmi şəkildə qeyd olunması təsdiqləndi və bununla da qurultayın tarixi irsi dövlət səviyyəsində yenidən diqqət mərkəzinə gətirildi.

I Türkoloji Qurultay müasir dövrdə türkologiya elminin inkişafına istiqamət verən mühüm platformaya çevrilmişdir. Bu prosesdə Azərbaycan tədricən regional çərçivədən çıxaraq beynəlxalq elmi mühitdə söz sahibi olan mərkəzlərdən biri kimi mövqeyini möhkəmləndirmişdir. Qurultayın yad edilməsi ənənəsi isə yalnız tarixə ehtiram deyil, həm də türk xalqları arasında mənəvi bağların gücləndirilməsinə xidmət edən canlı bir proses kimi davam edir.

“Xalq qəzeti” də I Türkoloji Qurultay mövzusuna xüsusi həssaslıqla yanaşaraq bu əlamətdar hadisəni səhifələrində geniş şəkildə işıqlandırmış, qəzet əməkdaşlarının və elm adamlarının müxtəlif baxış bucaqlarından onlarla yazı dərc etmişdir. Redaksiya eyni zamanda qəzetin əməkdaşı, Bakı Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Namiq Əhmədovun “I Türkoloji Qurultay: böyük birlik və repressiya olunmuş miras” kitabını hazırlamış və Türkiyənin Bilkənd Universitetinin professoru, Dövlət mükafatı laureatı Əmirulla Məmmədovun təşəbbüsü ilə Türkiyədə qürulmuş Azərbaycanlı Elm Adamları Dərnəyinin birgə layihəsi kimi çap etmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, bu kitab 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın elmi-siyasi mahiyyətini və tarixi rolunu geniş şəkildə təqdim edir və ilk dəfə olaraq qurultayın bütün rəsmi nümayəndələri haqqında ətraflı ensiklopedik məlumat verir. Kitabda qurultay iştirakçılarının sonrakı taleyi - repressiyalara məruz qalan ziyalıların faciəli həyat yolu da araşdırılır. Müəllif qurultayın türk xalqları arasında elmi və mədəni yaxınlaşmaya təsirini ön plana çəkir. Bu gün türk dövlətləri və xalqları arasında əməkdaşlıq, ortaq layihələr və elmi mübadilə proqramları həmin ideyaların davamı kimi qiymətləndirilir.

Kitab I Türkoloji Qurultayın tarixi rolunu, onun iştirakçılarının taleyini və Türk dünyasının intellektual inkişafına təsirini kompleks şəkildə təqdim edərək oxucuya geniş və dolğun baxış bucağı qazandırır. Ümumiyyətlə, “Xalq qəzeti” və Türkiyədə qurulmuş Azərbaycanlı Elm Adamları Dərnəyinin birgə layihəsi kimi çap olunmuş bu kitab, təkcə, publisistik marağın deyil, sistemli elmi yanaşmanın məhsulu kimi seçilir və qurultayın ictimaiyyətə təqdimində yeni mərhələ açır. Əlbəttə, hər bir ilk təşəbbüsdə olduğu kimi, burada da müəyyən elmi mübahisə doğura biləcək məqamlar mövcuddur. Qurultay nümayəndələrinin ensiklopedik səviyyədə sistemləşdirilməsi baxımından bu kitabın ilkin və əhatəli mənbələrdən biri olduğu diqqəti cəlb edir.

Maraqlı cəhətlərdən biri də odur ki, nəşrdə Vilayət Quliyev və Azər Turan kimi tanınmış tədqiqatçıların əhatəli araşdırmalarında yer almayan bəzi nümayəndələr haqqında da məlumatlar var. Kitabın digər mühüm üstünlüyü isə müxtəlif türk respublikalarından — Türkmənistan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Yakutiya, hətta Türkiyədən gəlmiş nümayəndələr barədə daha geniş və dəqiq məlumatların təqdim edilməsidir. Bu yanaşma, indiyədək kifayət qədər işıqlandırılmayan məqamların üzə çıxarılmasına və I Türkoloji Qurultayın nümayəndələri haqqında daha dolğun mənzərənin formalaşmasına imkan yaradır.

Bu baxımdan “Xalq qəzeti”nin kitabxanası” seriyası çərçivəsində ərsəyə gələn bu nəşrin də I Türkoloji Qurultayın zəngin elmi irsinin yenidən dərk edilməsinə xidmət göstərəcəyinə inanırıq. Kitab, təkcə, mövcud bilikləri sistemləşdirmək məqsədi daşımır, yeni araşdırmalar üçün istiqamətlər müəyyənləşdirən, oxucu ilə tarixi yaddaş arasında canlı elmi dialoq yaradan bir mənbə kimi nəzərdə tutulmuşdur. Ən başlıcası isə, bu əsər I Türkoloji Qurultayın 100 illik yubileyinə ehtiramın və milli elmi irsə bağlılığın ifadəsidir.

Türkoloji Qurultaydan söz açarkən bu sahənin inkişafına töhfə verən alim və ziyalıların fəaliyyətini xatırlatmamaq mümkün deyil. İsa Həbibbəyli, Tofiq Hacıyev, Kamil Nərimanoğlu, Adil Babayev, Nizami Cəfərov, Muxtar İmanov, Əli Şamil, Ədalət Tahirzadə, Akif Aşırlı kimi tədqiqatçıların, eləcə də son illərdə Nadir Məmmədlinin gördüyü işlər bu istiqamətdə ardıcıl elmi ənənənin formalaşdığını göstərir. Bu mövzu təkcə akademik mühitlə məhdudlaşmayıb, həm də geniş ziyalı təbəqəsinin diqqət mərkəzində olub.

Anar, Rafael Hüseynov, Samir Tağızadə, Büludxan Xəlilov kimi simaların yazılarında da qurultay yalnız tarixi hadisə kimi deyil, həm də milli yaddaşın ağrılı və məsuliyyətli bir parçası kimi təqdim olunur. Əslində, bu mövzu ətrafında səslənən fikirlərdə bir ortaq cəhət aydın hiss olunur: itirilmiş və güllələnmiş bir dövrün faciəsi ilə yanaşı, gələcəyə yönəlmiş ümid və məsuliyyət duyğusu.

Türk dünyasının müxtəlif guşələrində yaşayan ziyalıların da münasibəti, qurultayın yalnız bir ölkənin deyil, bütöv Türk dünyasının ortaq yaddaş hadisəsi olduğunu göstərir. Bu baxımdan çoxsaylı misallarla siyahını uzatmaq mümkündür, lakin əsas məqam dəyişmir: I Türkoloji Qurultay düşüncə və kimlik tariximizin canlı mövzusu olaraq qalır.

***Əflatun AMAŞOV,***
***“Xalq qəzeti”nin baş redaktoru***

***Kamal Abdulla – 75***

# Xəzər sahillərində qədirbilənlik təntənəsi

**Xalq yazıçısı, akademik Kamal Abdullanın anadan olmasının 75 illiyi münasibətilə Xəzər rayonunda yubiley mərasimi keçirildi. Şağan Mədəniyyət Mərkəzində təşkil edilən məclisdə görkəmli alimin və ictimai xadimin ömür yoluna qədirbilənliklə nəzər salındı. “Ömrün 75 illik zirvəsi” adlı görüş zəngin məzmunu, yüksək intellektual ab-havası və səmimi emosional çalarları ilə yadda qaldı.**





Həmin gün güclü yağışa, əlverişsiz hava şəraitinə baxmayaraq, Şağan Mədəniyyət Mərkəzinin zalı Kamal Abdulla yaradıcılığını sevən oxucular, ziyalılar, elm və sənət adamları, tələbələr və ədəbiyyat həvəskarları ilə dolu idi. Salona hakim kəsilmiş maraq, diqqət və ehtiram bir daha göstərdi ki, yubilyarın elmi və bədii yaradıcılığı də oxucularını dərindən düşündürür, onu yaddaşın dərin qatlarına aparır. Bu isə o deməkdir ki, Kamal Abdulla bu gün Azərbaycan ədəbi-fəlsəfi düşüncəsində canlı mövqeyini inamla qoruyur.

Mərasim akademik Kamal Abdullanın həyat və yaradıcılıq yoluna həsr olunmuş videoçarxın nümayişi ilə başlandı. Yazıçının elmi fəaliyyəti, bədii yaradıcılığı, dilçilik, mifologiya, ədəbiyyat və ictimai fikir sahəsindəki xidmətlərini əks etdirən görüntülər zalda xüsusi bir ovqat yaratdı. Videoçarxdan sonra alqış sədaları altında tədbirin əsas hissəsinə keçid edildi və yubiley məclisi, sözün əsl mənasında, elmi-ədəbi düşüncə meydanına çevrildi.

“Xəzər” Muzey Mərkəzinin direktor müavini, Azərbaycan Jurnalistlər Birliyinin və Rusiya Bonistlər Birliyinin üzvü Rüfət Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən yubiley görüşü yüksək səviyyəsi ilə seçildi. Onun giriş çıxışında Kamal Abdulla yaradıcılığına şəxsi oxucu sevgisi, mənəvi bağlılıq və intellektual ehtiram açıq şəkildə duyulurdu.

Elmi-ədəbi məclisin aparıcısı “Xəzər” Muzey Mərkəzinin təsisçisi və rəhbəri Səyavuş Əlizadə Kamal Abdulla yaradıcılığını Azərbaycan ədəbi və elmi düşüncəsinin mühüm zirvələrindən biri kimi təqdim etdi. O qeyd etdi ki, Kamal Abdulla imzası bədii sözün estetik gücünü, fəlsəfi təfəkkürün dərinliyini, tarixi yaddaşın gizli qatlarını və milli mifologiyanın mənəvi kodlarını özündə birləşdirən bütöv bir məktəbdir.

Məclisdə iştirak edən tanınmış elm, ədəbiyyat və mədəniyyət xadimlərindən Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov, Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyev, AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim İmanov, BDU-nun dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cəlil Nağıyev, etnoqraf və folklorşünas, professor Təvəkkül Səlimov, Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev, Əməkdar incəsənət xadimi, dosent Aqil Məlikov, Əməkdar mədəniyyət işçisi, fəlsəfə doktoru Azər Turan, şair Rüstəm Behrudi, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, professor Fuad Məmmədov, dramaturq Cavid Zeynallı, görkəmli rejissor Ramiz Həsənoğlu, Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Əhmədova mərasimə yüksək təntənə və elmi-mədəni məzmun gətirdilər.

Çıxışlarda Kamal Abdullanın çoxşaxəli yaradıcılıq dünyasına müxtəlif rakurslardan nəzər salındı. Akademik Vaqif Abbasov akademikin yaradıcılığının elmi dəyərini yüksək qiymətləndirərək onun intellektual miqyasını xüsusi vurğuladı. Professor Rafiq Əliyevin ürək sözləri məclisin ən maraqlı intellektual məqamlarından biri kimi yadda qaldı. O, Kamal Abdulla yaradıcılığında qeyri-səlis məntiqin izlərindən, bədii düşüncə ilə elmi idrakın kəsişmə nöqtələrindən danışdı, dünyaşöhrətli alim Lütfi Zadənin Kamal Abdulla yaradıcılığına münasibətini xatırlatdı. Bu yanaşma yazıçının əsərlərinin həm də müasir elmi-fəlsəfi təfəkkür kontekstində dəyərləndirilməsinin vacibliyini göstərdi.

Professor Təvəkkül Səlimov mərasimin Şağan qəsəbəsinin mədəni həyatında xüsusi hadisə olduğunu bildirdi. Onun sözlərinə görə, bu miqyasda, bu səviyyədə və bu tərkibdə elmi-ədəbi məclisin Şağanda keçirilməsi əlamətdar hadisədir. Doğrudan da, həmin gün Şağan Mədəniyyət Mərkəzi Azərbaycan elminin, ədəbiyyatının və sənətinin tanınmış simalarını bir araya gətirən canlı fikir məkanına çevrilmişdi.

Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev Kamal Abdulla ilə yaradıcılıq əlaqələrindən danışaraq onun sözlərinə musiqi yazan ilk sənətkarlardan biri olduğunu qeyd etdi. Bu məqam Kamal Abdulla yaradıcılığının bədii söz sərhədlərini aşaraq musiqi duyumu ilə də səsləşdiyini göstərirdi. Əməkdar incəsənət xadimi Aqil Məlikov isə yazıçının əsərlərinin mənəvi dəyərindən, insanın daxili aləminə təsir gücündən söz açdı.

Şair Rüstəm Behrudi Kamal Abdulla ilə uzun illərə söykənən dostluğundan, onun insan və yaradıcı şəxsiyyət kimi incəliklərindən danışdı. O, filoloq alimin mətnlərindəki zərif fəlsəfi qatlara, sözün görünməyən mənasını duymaq bacarığına diqqət çəkdi. Professor Fuad Məmmədov isə yazıçının ədəbi və elmi yaradıcılığına yüksək qiymət verərək maraqlı bir etiraf etdi: Kamal Abdullanı uzun illərdir tanımasına baxmayaraq, məhz bu tədbirdə onun şəxsiyyətinin və yaradıcılığının yeni tərəflərini özü üçün kəşf etdiyini bildirdi.

Pofessor Fuad Məmmədov isə qeyd etdi ki, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası Rəyasət Heyətinin qərarı ilə Kamal Abdulla “Mədəniyyət səfiri” fəxri diplomu ilə təltif olunub.

Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Əhmədova Kamal Abdullanın yubiley məclisinin rayon ictimaiyyəti üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi, tədbirə Xəzər ictimaiyyəti adından yüksək qiymət verdi. Onun çıxışı bu məclisin yalnız ədəbi dairələrin tədbiri kimi deyil, geniş ictimai-mədəni hadisə kimi qəbul olunduğunu təsdiqlədi.

Sonra Kamal Abdulla ilə panel müzakirə keçirildi. Moderator Rüfət Əliyevin sualları yazıçının yaradıcılığının mühüm istiqamətlərini əhatə edirdi: romanlarda tarixi yaddaş və şəxsiyyət obrazı, rəsmi tarixin görünməyən insan taleləri, xatirə və unutmaq fəlsəfəsi, daxili monoloqların tənhalığı, “Kitabi-Dədə Qorqud”a yeni baxış, mifoloji düşüncə, “Sehrbazlar dərəsi”nin mistik aləmi, reallıqla xəyal arasındakı tarazlıq, povest və hekayələrdə insan psixologiyası, ədəbi tənqidlə oxucu münasibəti, dilçi alimlə yazıçı azadlığının vəhdəti, ədəbi dilin anlaşıqlığı və estetik dərinliyi.

Bu panel məclisin ən canlı və düşüncə yüklü mərhələlərindən biri oldu. Kamal Abdulla cavablarında öz yaradıcılıq laboratoriyasının qapılarını açdı, yazıçı tənhalığından, yaddaşın bədii mətndəki rolundan, mifologiyanın müasir insan üçün daşıdığı mənadan, dilin intellektual və estetik imkanlarından danışdı. Onun çıxışında sakitliklə dərinlik, təvazökarlıqla düşüncə miqyası, yazıçı həssaslığı ilə alim dəqiqliyi bir arada hiss olunurdu.

Açıq mikrofon formatında davam edən görüşdə zalda əyləşən qonaqlar, oxucular, ziyalılar və tələbələr Kamal Abdullaya suallar ünvanladılar, ürək sözlərini bölüşdülər. Bu hissə tədbirə xüsusi səmimiyyət gətirdi. Burada rəsmi nitqlərin ardınca canlı oxucu nəfəsi duyuldu. Kamal Abdulla hər suala diqqətlə yanaşdı, cavablarında həm müdriklik, həm də insanlara qarşı həssas münasibət nümayiş etdirdi. Məclisin ən təsirli məqamlarından biri isə 123 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Fidan Əliyevanın çıxışı oldu. Onun səhnədə Kamal müəllimin yazdığı bir şeiri səsləndirməsi məclisə fərqli bir rəng qatdı.

Görüş başa çatdıqdan sonra akademik Kamal Abdulla və qonaqlar “Xəzər” Muzey Mərkəzini ziyarət etdilər. Qonaqlar muzeylə yaxından tanış oldular, burada qorunan eksponatlar, mədəni irs nümunələri və mərkəzin fəaliyyəti barədə məlumat aldılar. Beləliklə, bu ziyarət günün ümumi məzmununu tamamlayıb, söz, elm, yaddaş və mədəni irs eyni mənəvi xətt üzərində birləşdirdi. “Ömrün 75 illik zirvəsi” adlı elmi-ədəbi məclis Kamal Abdullanın yubileyinə həsr olunmuş uğurlu və yaddaqalan təntənə kimi tarixə düşdü.

***Əbülfəz BABAZADƏ,***
***kulturoloq-yaponşünas,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***




# "AzİnvestİInşaat" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Bölmələrin və maddələrin adları | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Qeyri-maddi aktivlər | 7,494.95 | | 9,312.45 | |
| Torpaq, tikili və avadanlıqlar | 4,153,744.66 | | 4,133,406.71 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **4,161,239.61** | | **4,142,719.16** |
| Ehtiyatlar | 25,936,586.24 | | 27,376,308.57 | |
| Qısamüddətli debitor borcları | 1,203,041.42 | | 953,734.65 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 61,596,929.86 | | 1,901,311.56 | |
| Sair qısamüddətli maliyyə aktivləri | 1,145,763.04 | | | |
| Sair qısamüddətli aktivlər | 19,717,718.79 | | 9,762,102.27 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **109,600,039.35** | | **39,993,457.05** |
| **CƏMİ AKTİVLƏR** | | **113,761,278.96** | | **44,136,176.21** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2,000.00 | | 2,000.00 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 8,081,590.34 | | 4,471,736.41 | |
| **CƏMİ KAPİTAL** | | **8,083,590.34** | | **4,473,736.41** |
| Sair uzunmüddətli öhdəliklər | 68,576,160.92 | | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | 68,576,160.92 | | 0.00 |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 25,450,654.23 | | 33,608,332.86 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 9,267,326.03 | | 2,082,649.29 | |
| Qısamüddətli kreditor borcları | 2,239,437.66 | | 2,658,877.47 | |
| Sair qısamüddətli öhdəliklər | 144,109.78 | | 1,312,580.18 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **37,101,527.70** | | **39,662,439.80** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **105,677,688.62** | | **39,662,439.80** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **113,761,278.96** | | **44,136,176.21** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | **2,000.00** | **2,914,373.68** | **2,916,373.68** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | **3,404,445.38** | **3,404,445.38** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | **(1,847,082.65)** | **(1,847,082.65)** |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **2,000.00** | **4,471,736.41** | **4,473,736.41** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **2,000.00** | **4,471,736.41** | **4,473,736.41** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | **4,241,228.01** | **4,241,228.01** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | **(631,374.08)** | **(631,374.08)** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **2,000.00** | **8,081,590.34** | **8,083,590.34** |
| **Hesabat dövrünün sonuna qalıq** | **2,000.00** | **8,081,590.34** | **8,083,590.34** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 4,241,228.01 | 3,404,445.38 |
| mənfəət vergisi üzrə xərclər | 1,060,307.00 | 851,111.35 |
| amortizasiya xərcləri | 254,427.33 | 1,312,992.66 |
| Ehtiyatların azalması (artması) | 1,439,722.33 | (25,227,959.78) |
| əməliyyat debitor borclarının azalması (artması) | (249,306.77) | 1,335,408.27 |
| sair qısamüddətli aktivlərin azalması (artması) | (11,101,379.56) | (5,790,623.58) |
| əməliyyat kreditor borclarının artması (azalması) | 68,156,721.11 | 1,834,274.24 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | (9,326,149.03) | 23,056,261.88 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | 6,124,369.74 | (1,149,058.42) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **60,599,940.16** | **(373,148.00)** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | 1,817.50 | 1,510.05 |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (274,765.28) | (1,856,730.00) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(272,947.78)** | **(1,855,219.95)** |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | (631,374.08) | (1,847,082.65) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(631,374.08)** | **(1,847,082.65)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **59,695,618.30** | **(4,075,450.60)** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **1,901,311.56** | **5,976,762.16** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **59,695,618.30** | **(4,075,450.60)** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **61,596,929.86** | **1,901,311.56** |

### Mənfəət, zərər və digər məcmu gəlir haqqında hesabat

| Göstəricilərin adları | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 62,227,026.40 | 45,708,513.10 |
| Sair əməliyyat gəlirləri | 268,635.93 | 220,451.38 |
| İstifadə edilmiş material ehtiyatları | (23,948,839.66) | (9,876,530.66) |
| İşçi heyəti üzrə xərclər | (5,001,410.79) | (4,859,125.82) |
| Amortizasiya xərcləri | (254,427.33) | (1,312,992.66) |
| Digər əməliyyat xərcləri | (1,845,596.29) | (1,179,162.95) |
| Sair əməliyyat xərcləri | (26,143,853.25) | (24,445,595.66) |
| Əməliyyat mənfəəti (zərəri) | 5,301,535.01 | 4,255,556.73 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 5,301,535.01 | 4,255,556.73 |
| Mənfəət vergisi | (1,060,307.00) | (851,111.35) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 4,241,228.01 | 3,404,445.38 |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**Rəy**

Biz "AZİNVEST İNŞAAT" QAPALI SƏHMDAR CƏMİYYƏTİ (VÖEN 1702336441) 31 dekabr 2025-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tetib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün audite aid daxili nəzarəti başa düşürük.

İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"İATC" MMC-nin direktor auditoru Şükürov Rüfət Kamil oğlu**

# "İsmayıloğlu" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Aktivlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Əsas vəsaitlər | 295 288,93 | 373 178,97 |
| Kapitallaşdırma üçün aktivlər | 1 233 564,89 | 1 233 564,89 |
| **Cəmi uzunmüddətli aktivlər** | **1 528 853,82** | **1 606 743,86** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 78 269,58 | 47 111,11 |
| Ticarət və digər debitor borcları | 634 531,82 | 280 423,64 |
| Mal-material ehtiyatları | 958 904,86 | 920 740,95 |
| Digər aktivlər | 1 231 383,22 | 704 290,83 |
| **Cəmi qısamüddətli aktivlər** | **2 903 089,48** | **1 952 566,53** |
| **Cəmi aktivlər** | **4 431 943,30** | **3 559 310,39** |
| Nizamnamə kapitalı | 5 000,00 | 5 000,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 550 121,72 | 464 000,33 |
| Əvvəlki dövrlər üzrə bölüşdürülməmiş mənfəət | 2 759 265,36 | 2 295 265,03 |
| **Cəmi kapital** | **3 314 387,08** | **2 764 265,36** |
| Ticarət kreditor borcları | 21 933,30 | 3 468,65 |
| Alınmış avanslar | 228 973,00 | 228 973,00 |
| Bank kreditləri | 770 697,97 | 466 651,43 |
| Digər öhdəliklər | 95 951,95 | 95 951,95 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1 117 556,22** | **795 045,03** |
| **Cəmi öhdəliklər** | **1 117 556,22** | **795 045,03** |
| **Cəmi kapital və öhdəliklər** | **4 431 943,30** | **3 559 310,39** |

### MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Satışdan gəlirlər | 2 296 232,13 | 1 826 155,00 |
| Əməliyyat və digər inzibati xərclər | (1 625 298,69) | (1 246 154,59) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **670 933,44** | **580 000,41** |
| Əsas vəsait satışından mənfəət (zərər) | 16 718,71 | 0,00 |
| **Vergiyə cəlb olunan mənfəət (zərər)** | **687 652,15** | **580 000,41** |
| Mənfəət vergisi | (137 530,43) | (116 000,08) |
| **Cəmi il üzrə ümumi mənfəət (zərər)** | **550 121,72** | **464 000,33** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Vergidən əvvəl mənfəət | 687 652,15 | 580 000,41 |
| Əsas vəsait satışından mənfəət (zərər) | (16 718,71) | 0,00 |
| Əsas vəsaitlərin amortizasiyası | 66 303,66 | 92 677,63 |
| Keçmiş illərə dair düzəlişlər | 0,00 | 9 527,22 |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | **737 237,10** | **682 205,26** |
| Mal-material ehtiyatlarının azalması (artması) | (38 163,91) | 32 035,00 |
| Ticarət və digər kreditor borclarının artması (azalması) | 18 464,65 | 168,65 |
| Ticarət və digər debitor borclarının azalması (artması) | (354 108,18) | (224 531,67) |
| Digər öhdəliklərin artması (azalması) | 0,00 | (448 722,54) |
| Digər aktivlərin azalması (artması) | (527 092,39) | 0,00 |
| Alınmış avansların artması (azalması) | 0,00 | 22 100,00 |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | **(163 662,73)** | **63 254,70** |
| Ödənilmiş mənfəət vergisi | **(137 530,43)** | **(116 000,08)** |
| Əsas vəsaitlərin satışı | 28 305,09 | 0,00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti** | **(109 225,34)** | **(116 000,08)** |
| Bank kreditinin artması (azalması) | 304 046,54 | 73 605,87 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **304 046,54** | **73 605,87** |
| **İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **47 111,11** | **26 250,62** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma)** | **31 158,47** | **20 860,49** |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **78 269,58** | **47 111,11** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə** | **5 000,00** | **2 285 737,81** | **2 290 737,81** |
| Keçmiş illərə dair düzəliş (vergi yoxlaması nəticəsində mənfəət artımı) | 0,00 | 9 527,22 | 9 527,22 |
| Hesabat ili üzrə mənfəət | 0,00 | 464 000,33 | **464 000,33** |
| **31 dekabr 2024-cü il tarixinə** | **5 000,00** | **2 759 265,36** | **2 764 265,36** |
| **1 yanvar 2025-ci il tarixinə** | **5 000,00** | **2 759 265,36** | **2 764 265,36** |
| Hesabat ili üzrə mənfəət | 0,00 | 550 121,72 | **550 121,72** |
| **31 dekabr 2025-ci il tarixinə** | **5 000,00** | **3 309 387,08** | **3 314 387,08** |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

"İsmayıloğlu" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə

**Rəy,**

Biz, "İsmayıloğlu" QSC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər ümumi gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizcə, hazırki maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına "MHBS" uyğun olaraq düzgün əks etdirir.

Maliyyə hesabatları haqqında rəy bildirmək üçün Cəmiyyətin biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübutlarını əldə edirik. Biz Cəmiyyətin auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audirt prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyim daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

Auditorlar Palatası tərəfindən hazırkı rəy üçün verilən qeydiyyat nömrəsi: **kfsITpWhVU**

Auditorun hüquqi statusu: Lisenziyalı audit təşkilatı / Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən akkreditə olunmuşdur/

Smart Audit MMC Lisenziya № AT/115

Auditor: Emil Məmmədov

Auditorun qeydiyyat nömrəsi: SA/205

20 may 2026-cı il

Ünvan: AZ1065 Bakı Azərbaycan, C.Cabbarlı 609, Globus Center 12-ci mərtəbə. Əlaqə nömrəsi: +994 12 597 5515 / +994 12 597 5525 / www.smartaudit.az email: office@smartaudit

# "Kaspian Speşialist Servises" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Aktivlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Əsas vəsaitlər | 880 359,46 | 1 077 238,43 |
| Kapitallaşdırma üçün aktivlər | 6 025 951,37 | 4 975 649,20 |
| **Cəmi uzunmüddətli aktivlər** | **6 906 310,83** | **6 052 887,63** |
| Ticarət və digər debitor borcları | 709 527,51 | 933 356,32 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 230 616,95 | 303 342,32 |
| Digər qısamüddətli aktivlər | 1 891 424,65 | 1 528 788,70 |
| **Cəmi qısamüddətli aktivlər** | **2 831 569,11** | **2 765 487,34** |
| **Cəmi aktivlər** | **9 737 879,94** | **8 818 374,97** |
| Nizamnamə kapitalı | 2 000,00 | 2 000,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 894 557,16 | 1 172 950,25 |
| Əvvəlki illərin bölüşdürülməmiş mənfəəti | 7 274 624,86 | 6 690 674,62 |
| **Cəmi kapital** | **8 171 182,02** | **7 865 624,86** |
| Ticarət kreditor borcları | 109 123,45 | 0,00 |
| Bank kreditləri | 1 411 344,46 | 952 750,10 |
| Digər öhdəliklər | 46 230,00 | 0,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1 566 697,91** | **952 750,10** |
| **Cəmi öhdəliklər** | **1 566 697,91** | **952 750,10** |
| **Cəmi kapital və öhdəliklər** | **9 737 879,93** | **8 818 374,96** |

### MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Satışdan gəlirlər | 2 739 972,96 | 3 357 390,86 |
| İnzibati və sair əməliyyat xərcləri | (1 632 915,66) | (1 891 203,05) |
| **Əməliyyat mənfəəti** | **1 107 057,30** | **1 466 187,81** |
| Əsas vəsaitin satışından mənfəət (zərər) | 11 139,15 | 0,00 |
| **Vergidən əvvəl mənfəət** | **1 118 196,45** | **1 466 187,81** |
| Mənfəət vergisi | (223 639,29) | (293 237,56) |
| **Cəmi il üzrə xalis mənfəət** | **894 557,16** | **1 172 950,25** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Vergidən əvvəl mənfəət | 1 118 196,45 | 1 466 187,81 |
| Əsas vəsaitlərin amortizasiyası | 152 509,64 | 200 837,30 |
| Əsas vəsaitlərin satılmasından zərər (gəlir) | (11 139,15) | 0,00 |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | **1 259 566,94** | **1 667 025,11** |
| Ticarət və digər kreditor borclarının artması (azalması) | 109 123,45 | (14 249,00) |
| Ticarət və digər debitor borclarının azalması (artması) | 223 828,81 | (590 547,69) |
| Digər öhdəliklərin artması (azalması) | 46 230,00 | 0,00 |
| Digər aktivlərin azalması (artması) | (362 635,95) | (352 263,97) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan pul vəsaitləri** | **1 276 113,25** | **709 964,45** |
| Ödənilmiş mənfəət vergisi | (223 639,29) | (293 237,56) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | **1 052 473,96** | **416 726,89** |
| Kapitallaşdırma üçün aktivlər | (1 050 302,17) | 0,00 |
| Əsas vəsaitlərin satılması | 55 508,48 | 0,00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti** | **(994 793,69)** | **0,00** |
| Dividend ödənişi | (589 000,00) | (583 575,00) |
| Bank kreditinin artması (azalması) | 458 594,36 | 461 044,23 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **(130 405,64)** | **(122 530,77)** |
| **İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **303 342,32** | **9 146,20** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma)** | **(72 725,37)** | **294 196,12** |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **230 616,95** | **303 342,32** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə** | **2 000,00** | **7 274 249,62** | **7 276 249,62** |
| Hesabat ili üzrə mənfəət | 0,00 | 1 172 950,25 | **1 172 950,25** |
| Verilmiş dividend | 0,00 | (583 575,00) | **(583 575,00)** |
| **31 dekabr 2024-cü il tarixinə** | **2 000,00** | **7 863 624,86** | **7 865 624,86** |
| **1 yanvar 2025-ci il tarixinə** | **2 000,00** | **7 863 624,86** | **7 865 624,86** |
| Hesabat ili üzrə mənfəət | 0,00 | 894 557,16 | **894 557,16** |
| Verilmiş dividend | 0,00 | (589 000,00) | **(589 000,00)** |
| **31 dekabr 2025-ci il tarixinə** | **2 000,00** | **8 169 182,02** | **8 171 182,02** |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Kaspian Speşialist Servises" Qapalı** Səhmdar Cəmiyyətinin rəhbərliyinə

**Rəy,**

Biz, "Kaspian Speşialist Servises" QSC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər ümumi gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizcə, hazırki maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına "MHBS" uyğun olaraq düzgün əks etdirir.

Auditorlar Palatası tərəfindən hazırkı rəy üçün verilən qeydiyyat nömrəsi: **tEIAMWNPGk**

Auditorun hüquqi statusu: Lisenziyalı audit təşkilatı / Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən akkreditə olunmuşdur/

Smart Audit MMC Lisenziya № AT/115

Auditor: Emil Məmmədov

Auditorun qeydiyyat nömrəsi: SA/205

17 iyun 2026-cı il

Ünvan: AZ1065 Bakı Azərbaycan, C.Cabbarlı 609, Globus Center 12-ci mərtəbə. Əlaqə nömrəsi: +994 12 597 5515 / +994 12 597 5525 / www.smartaudit.az email: office@smartaudit

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 112 (31081) 30 iyun 2026-cı il, çərşənbə axşamı

İDMAN

## Çində Olimpiya lisenziyası turniri



**İyunun 26-dan 28-dək Çinin Sindao şəhərində keçirilən cüdo üzrə Qran-Pri turniri başa çatıb. Turnirdə 57 ölkədən 500 idmançı mübarizə aparıb.**

Son yarış günü Azərbaycan millisinin üzvü Murad Fətiyev bürünc medal qazanıb. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, 90 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçu üçüncü yer uğrunda görüşdə Qırğızıstan təmsilçisi Erjan Kanatbekovu məğlub edib.

Bununla da Azərbaycan yığması turniri 1 qızıl və 3 bürünc medalla başa vurub. Daha əvvəl Zelim Tçkayev (81 kq) qızıl, Əhməd Yusifov (60 kq) və Hidayət Heydərov (73 kq) isə bürünc medal əldə etmişdilər.

57 ölkənin təmsil olunduğu yarışda Azərbaycan millisi ümumi komanda hesabında dördüncü, kişilər arasında isə üçüncü yeri tutub.

## Lənkəranda Beynəlxalq Şahmat Festivalı




**"Azərbaycan Şahmat Turu" çərçivəsində "Lənkəran Open 2026" Beynəlxalq Şahmat Festivalına start verilib. Azərbaycan Şahmat Federasiyası və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşan turnirdə ölkəmizdə yanaşı Türkiyə, İran, Hindistan, Macarıstan və FIDE şahmatçıları təmsil olunur.**

Festivalın açılış mərasimində Azərbaycan Şahmat Federasiyasının birinci vitse-prezidenti Faiq Həsənov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Elmin Quliyev və digər rəsmi şəxslər iştirak edib.

Turnir reytinqlərə uyğun olaraq A və B qrupu olmaqla iki kateqoriyada təşkil edilir. Festival çərçivəsində rapid və blits üzrə də yarışlar keçiriləcək.

200-ə yaxın şahmatçının mübarizə apardığı yarışın ümumi mükafat fondu 22.650 manat təşkil edir. Turnirin baş hakimi Saiq Quliyevdir.

## Dünya kubokunda qızıl medal

İSTANBUL 2027
4th EUROPEAN GAMES

**26–29 iyun tarixlərində Çinin Nankin şəhərində aerobika gimnastikası üzrə Dünya kuboku keçirilib.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, yarışda ölkəmizi fərdi proqramda Sara Əlixanlı, qarışıq cütlük proqramında isə Mədinə Mustafayeva və Vladimir Dolmatov təmsil ediblər.

Təsnifat mərhələsinin nəticələrinə əsasən, Sara Əlixanlı 17.900 xal, Mədinə Mustafayeva və Vladimir Dolmatov isə 18.600 xal toplayaraq final mərhələsinə vəsiqə qazanıblar.

Finalda qarışıq cütlüyümüz 19.100 xalla rəqiblərini geridə qoyaraq qızıl medalın sahibi olublar. Sara Əlixanlı isə 18.050 xalla 6-cı yerdə qərarlaşıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Ağahüseyn Hüseynov – 85*

# Peşəkar jurnalist, nüfuzlu ziyalı

**Əməkdar jurnalist Ağahüseyn Hüseynov görkəmli media xadimi Nəsir İmanquliyev canlı mətbuat məktəbinin yetirməsi olması ilə fəxr edən qələm sahibidir. Onun yaradıcılıq yüksəlişi Nəsir müəllimin təməlini qoyub populyarlaşdırdığı "Bakı" və "Baku" qəzetlərində gerçəkləşib. Veteran jurnalist bir müddət "Baku" qəzeti üzrə redaktor müavini olub, 1990-cı ildən isə hər iki qəzetə baş redaktorluq edib.**

Yaşlı oxucular bilirlər ki, paytaxtımızın adını daşıyan və mətbu informasiya aynası olan şəhər qəzetləri, təxminən, yarım əsrlik dövrdə hər axşam intizarla gözlənilib, alınaraq başdan-ayağadək oxunub. Bu nüfuzlu və mötəbər qəzetlər ötən əsrin 70-80-ci illərində jurnalist kadrlarının püxtələşməsində də əsl məktəbə çevrilmişdi. Burada Azərbaycan mədəniyyətinin və ədəbiyyatının bütöv bir nəsli oxucularla canlı ünsiyyətdə olub. Cəmil Əlibəyov, Hüseyn Abbaszadə, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Cabir Novruz, Gülhüseyn Hüseynoğlu, Nüsrət Kəsəmənli və onlarca tanınmış qələm sahibi bu sıradandırlar. Peşəkar jurnalistlərdən Şamil Şahməmmədov, Şaban Şabanovun, Şakir Abdullayevin, Ənvər Məşədiyevin, Dağbəyi İsmayılovun və Ağahüseyn Hüseynovun da imzaları şəhərin axşam qəzetindən tanınıb. Onların aktual məqalələrini, reyd yazılarını, felyetonlarını oxucular böyük maraqla qarşılayırdılar. "Bakı" və "Baku"nun abunəçiləri çox idi, eyni zamanda, hər axşam saat 6-da köşklərə paylanılan qəzet tez bir zamanda alınıb qurtarırdı.

Ağahüseyn Hüseynov hər zaman qəzetin yaradıcısı – Azərbaycan jurnalistikasının görkəmli siması, böyük ziyalı, pedaqoq, alim Nəsir İmanquliyev haqqında fəxrlə danışır. O, xatirələrində neçə-neçə istedadlı qələm sahibinin, publisistin püxtələşməsinə, cəmiyyətdə mövqe tutmasına, özünü təsdiq etməsinə ömür əridən Nəsir müəllimin Azərbaycanın həm mətbu, həm də ictimai-siyasi həyatında böyük şəxsiyyət olduğunu vurğulayıb: "Mən xüsusən Nəsir müəllimin kadr seçiminə heyran idim. O, bir ünsiyyəti ilə müəyyənləşdirirdi ki, qarşısında dayanan adamdan jurnalist çıxacaq, ya yox. Unikal duyumu vardı. Böyüklə böyük, kiçiklə kiçik idi. Qəzet əməkdaşlarının hər birinin qəlbinə yol tapmağı bacarırdı. Yaratdığı məsuliyyət mühiti hamını yaradıcılığa səsləyirdi".



İndi heç yerdə əvvəlki qəzet bumu yoxdur. "Bakı" qəzetinin davamı olan media vasitəsi isə 2020-ci ildən onlayn rejimdə oxucularının görüşünə gəlir. Ağahüseyn müəllim doğma qəzetin adının yaşadılmasından məmnundur. Sözün əsl mənasında, peşə fədaisi sayılan veteran qələm sahibi həm ziyalı, publisist, həm də qəzet işinin mahir bilicisi kimi tanınan şəxslərdəndir. Ən əsası isə Ağahüseyn müəllim jurnalistikaya sədaqəti ilə nümunədir. Onun bu peşəyə məsuliyyətlə yanaşması gənc jurnalistlər üçün örnəkdir. Fərdi yazıları, baş redaktor qeydləri və hazırlanmasına rəhbərlik etdiyi materiallar hər zaman mövzu əhatəliliyi, problemin mahiyyətinin hərtərəfli açılması, dil-üslub cəhətlərinin sadəliyi ilə seçilib.

Veteran jurnalist Bakının sosial həyatı, infrastrukturu barədə yazılarla bərabər, mədəniyyət mövzularına geniş yer ayırmışdır. Ağahüseyn Hüseynovdan söz düşəndə həmkarları onu əxz etdiyi, həyat fəlsəfəsində möhkəm yer tutan dürüstlüyü, məsuliyyəti, səmimiliyi, qayğıkeşliyi jurnalistikaya da gətirməyi bacarmış əsl qələm adamı, peşəkar idarəçi kimi səciyyələndirirlər.

Ağahüseyn Hüseynov çox çətin dövrdə adıçəkilən mətbuat orqanlarına rəhbərlik etməyə başlayıb, bu, son dərəcə böyük məsuliyyət idi. O, bir rəhbər kimi "Bakı" və "Baku" qəzetlərinə məxsus ənənələri layaqətlə davam etdirə bilib. Ağahüseyn müəllimi jurnalist peşəsinin təəssübünü çəkən, gördüyü işlə bu peşəyə dəyər qazandıran həmkar və ziyalı kimi xarakterizə etmək doğru olardı.

Azərbaycanın peşəkar jurnalistikası bu məktəbin Ağa müəllim kimi bir məzunu ilə öyünə bilər.

*Ə.DOSTƏLİ*
*XQ*

*Dünya çempionatı – 2026*

# 1/16 final mərhələsi: gərgin mübarizə davam edir

**ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi 2026-cı il Dünya çempionatı tarixi hadisələrlə zəngindir. Mundialın qrup mərhələsinin 3-cü turunun son oyun günü keçirilən qarşılaşmalarda qapılara 19 qol vuruldu. Maraqlı və gərgin keçən qarşılaşmalarda Əlcəzair – Avstriya – 3:3, İordaniya – Argentina – 1:3, Panama – İngiltərə – 0:2, Xorvatiya – Qana – 2:1, Konqo DR – Özbəkistan – 3:1 hesablı nəticələr qeydə alınıb. Kolumbiya – Portuqaliya matçı isə qolsuz bərabərliklə başa çatıb – 0:0.**

Dünya və Argentina futbolunun ulduzu Leonel Messi son oyunda vurduğu 6-cı qolla Dünya çempionatlarında vurduğu qolların sayını 19-a çatdırıb və hər iki göstəricidə liderlik edir. DÇ–2026-da indiyədək keçirilən oyunları nəzərə alsaq Messidən sonrakı yerlərdə 4 qol vuran Kilian Mbappe, Usman Dembele (Fransa), Vinisius Junior (Braziliya), Erling Haaland (Norveç), 3 qol vuran Harri Keyn (İngiltərə), Conatan Devid (Kanada), Yoan Vissa (Konqo DR), Deniz Undav (Almaniya), Yohan Manzambi (İsveçrə), Matheus Kunya (Braziliya), İsmaila Sarr (Seneqal), İsmael Saibari (Mərakeş), Brayan Brobbi (Niderland) və Elayca Cast (Yeni Zelandiya) qərarlaşıblar.

Beləliklə, Dünya çempionatının 1/16 final mərhələsində gərgin oyunlar davam edir.

30 iyun saat 00:30-da Almaniya – Paraqvay, saat 05:00-da Niderland – Mərakeş, 21:00-da Fildişi Sahili – Norveç, 1 iyul saat 01:00-da Fransa – İsveç, saat 05:00-da Meksika – Ekvador, saat 20:00-da İngiltərə – Konqo Demokratik Respublikası, 2 iyul saat 00:00-da Belçika – Seneqal, 04:00-da ABŞ – Bosniya və Herseqovina, saat 23:00. İspaniya – Avstriya, 3 iyul saat 03:00-da Portuqaliya – Xorvatiya, saat 07:00-da İsveçrə – Əlcəzair, saat 22:00-da Avstraliya – Misir, 4 iyul saat 02:00-da Argentina – Kabo Verde, 05:30-da Kolumbiya – Qana matçları keçiriləcək.



Qeyd edək ki, pley-off mərhələsinə iyunun 28-də start verilib və ilk oyun turnirin ev sahiblərindən biri olan Kanada ilə Cənubi Afrika Respublikası (CAR) arasında baş tutub. Los-Anceles stadionunda keçirilən və portuqaliyalı hakim Juan Pineyrunun idarə etdiyi qarşılaşma son dərəcə gərgin və bərabər səviyyəli mübarizə ilə yadda qalıb. Matçın taleyini uzatma dəqiqələrində vurulan yeganə qol həll edib. Görüşün 90+2-ci dəqiqəsində sağ cinah müdafiəçisi Alistair Conston cərimə meydançasına doğru asma ötürməsini CAR-ın müdafiəçisi başla uzaqlaşdırmağa çalışsa da, cərimə meydançasının xətti yaxınlığında dayanan Stivin Euştakiu topu sinəsi ilə saxlayaraq yerə düşmədən güclü və dəqiq zərbə ilə qapının aşağı küncünə vurub.

Kanada millisi bu qələbə ilə öz futbol tarixində ilk dəfə olaraq Dünya çempionatının 1/8 final mərhələsinə yüksəlib. Matçın qəhrəmanı Stivin Euştakiu standart vəziyyətlərdən (set-pieces) pley-off mərhələsində 5-dən çox qol şansı yaradaraq 2006-cı ildən bəri bunu bacaran ikinci futbolçu olub (birincisi Andrea Pirlo idi). Məğlubiyyətə baxmayaraq, CAR-ın qapıçısı Ronven Vilyams oyun ərzində 85 dəqiq ötürmə edərək, Manuel Noyerə məxsus olan pley-off rekordunu (51 ötürmə) geridə qoyub.

Kanada yığması pley-offun ilk iştirakçısı olaraq növbəti mərhələdə Niderland – Mərakeş cütünün qalibi ilə qarşılaşacaq.

Xatırladaq ki, Kanadadan başqa Cənubi Afrika Respublikası, Fildişi Sahili, Kabo-Verde (Cape Verde), Konqo Demokratik Respublikası (DR Konqo) və Bosniya və Herseqovina milliləri tarixində ilk dəf 1/16 final mərhələsində oynayacaqlar.

Dünən axşam ABŞ-ın Hyuston şəhərindəki "NRG Stadium"da Braziliya millisi Yaponiya komandası ilə qarşılaşıb. Oyun "sambaçıların" qələbəsi ilə başa çatıb – 2:1.

*Q.YUSİFOĞLU*
*XQ*

HAVA

## Paytaxtda axşam, şimal-qərb rayonlarında səhər yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturunun gecə 18-20, gündüz 25-29 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, axşam yağıntıların bir qədər güclənəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 16-20, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 23-28 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

*✓ "AZSIĞORTA" ASC tərəfindən verilən və sığorta təminatını təsdiq edən AZ/085450, AZ/085451, AZ/085452 nömrəli sığorta şəhadətnamələri (qeyd edilən sığorta blankları) itdiyi üçün etibarsız sayılır.*

*✓ "Azərterminalkompleks" birliyinin balansında olan "Land Cruiser "markalı, "77-YM-844" dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsinə məxsus BB604415 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağabala Hacıyev və Qurban Sadıqov Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aslan Aslanov ailəsi ilə birlikdə Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Əli Osmanova atası

**ƏLİSULTAN OSMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri Ramiz Həsənova qardaşı

**DURSUN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rövşən Ağayev və Hüseynbala Mirələmov Oqtay Şahbazova əzizi

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəhim Məmmədov, Rafiq Əliyev, Rövşən Ağayev və İsrafil Qurbanov Oqtay Şahbazova həyat yoldaşı

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 814
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00